# VİLAYƏT BAĞÇASI

## İKİNCİ CİLD

İslam İnqilabının Böyük Rəhbəri
Ayətullah Xameneinin tələbə və müəllimlərə
tövsiyələri

Çevirən: İbrahim Mirzə

## Ruhanilərin universitetlərdə təmsil olunmasının zəruriliyi[1]

Bismillahir-Rəhmanir-Rəhim.

### Elm və din

Əvvəla, bu böyük işi dərk edib düzgün qiymətləndirən və öhdəsinə götürən möhtərəm cənablara və əziz din alimlərinə xoşgəldin deyirəm. Ümidvaram ki, Allah sizə böyük mükafat versin, Öz vədinə və böyüklüyünə uyğun olaraq bu yolda öncəkindən daha artıq və daha yaxşı dəstəkləsin və siz işlərinizin bəhrəsini görəsiniz. Mən xüsusən cənab Cənnətiyə, cənab Sədrə və bu işi üzərinə götürmüş digər cənablara səmimi təşəkkürümü bildirirəm.

[1] Fəqih rəhbərin universitetlərdəki nümayəndələrilə görüşdə çıxışı: 10 sentyabr 1996.

Ruhanilərin universitetlərdə təmsil olunması elm və dinin təmsil olunması deməkdir. Universitetlər elm ocağı, dindar insanların orada olması səbəbindən həm də din ocağıdır. Ruhanilik də din elmini güclü, məntiqli, universitetə və universitet mənsublarının səviyyəsinə uyğun şəkildə təqdim edir. Bu, məsələnin elmi tərəfidir. Din təlimləri ən uca elmlərdən, ən güclü zehni və fəlsəfi mövzulardan, bəzi sahələrdə ən mühüm ictimai və həyati məsələlərdən sayıldığından, elmi şəkildə ortaya qoyulmalıdır. Burada zəif əsaslandırmadan və qüsurlu izahdan ciddi şəkildə çəkinmək lazımdır. Çünki bütün buların əks təsiri olar. Pis müdafiə etmək gözdən salmağın ən mühüm üsullarındandır.

**Ruhanilərin rəftarı**

Buna əsasən, ruhanilərin və din alimlərinin universitetlərdə təmsil olunması

İslam maarifini bütün sahələrdə məntiqli, başadüşülən, güclü və əsaslandırılmış formada təqdim etməkdən ötrüdür. Bu, məsələnin elmi tərəfidir. Dini tərəfi - imanı gücləndirmək, elmi dərk yollarından hasil olan hər bir şeydir. Lakin ən mühüm məsələ budur ki, cənab ruhanilərin rəftarı dinin təbliğatçısı, din təlimlərinin və dini dəyərlərin daşıyıcısıdır.

**Əməllə dəvət etmək**

Bu gün və həmişə din alimləri xalqı öz rəftarları, yaşayış tərzləri və müxtəlif məsələlərə münasibətləri ilə dinə dəvət etmişlər. Deməк istəmirik ki, bunun istisnası yoxdur. Bəli, istisna da var. Bunun əksinə əməl edən və dindən qaçıranlar da var. Lakin prinsipcə, ruhani işinin xisləti belədir. Allaha şükür olsun ki, bu gün əksəriyyət deyilən kimidir.

## Universitetlərin səmərəliliyi

Buna əsasən, ruhanilərin universitetdə təmsil olunması universitetin səmərəliliyi üçün zəruridir. Bu, ruhanilərin universitetə müdaxiləsi deyil. Xeyr, universitetlərdə rektorlar, siyasətlərini təyin edənlər, tədris edənlər, digər işçilər var. Onlar özlərinin bütün işlərini görürlər. Ruhanilər oraya müdaxilə qəsdilə daxil olmurlar. Təbii ki, ruhanilərə qanuna uyğun səlahiyyətlər verilməsə, universitetlərdə çalışmalarının mənası olmaz. Biz deyə bilmərik ki, alimlər universitetdə qanunları neyləyirlər, qayda-qanunla nə işləri var. Xeyr, heç bir yerdə qayda-qanun olmadan, səlahiyyət verilmədən bir iş görmək olmaz. İş görmələri üçün əlləri açıq olmalıdır.

## Universitetdə fəaliyyətin fəlsəfəsi

Bu cənablar bəzi səlahiyyətlərlə təmsil olunsalar da, bu, qeyd olunan niyyətlədir;

yəni dinin elmi şəkildə bəyan olunması, dini rəftarın və məzhəbi imanın praktik izahı. Əsas məqsəd budur. Bəli, bunlar əldə edildikdən sonra üçüncü məsələ gəlir. Bəzən onun əhəmiyyəti bu iki məsələdən az olmur. O da budur ki, ruhanilər universitetdə gənclərin psixoloji sığınacağı, sirdaşı ola bilərlər. Gənclik hiss və duyğular aləmidir. Gəncin beyni kimi ruhu da bir çox məsələlərdən təsirlənir. Özünü böyük bir ruhda, geniş bir ürəkdə, mehriban və xeyirxah bir nəfəsdə qorumaq üçün gəncin bir yerə ehtiyacı var. Bu geniş ürək, yüksək düşüncə və xeyirxah ruh - dərdləri və problemləri eşidən, lazımi tövsiyələri verən, mənəvi və ruhi cəhətdən təbiblik edən, dərdinə şərik olan ruhani ola bilər.

### Universitetdə fəaliyyətin zəruriliyi

Əgər bir ruhani buna nail olsa, bilsin ki, universitetdə işi uğurlu alınıb; hələ nail

olmayıbsa, bilsin ki, işdə qüsur var. Çünki ruhani bu deyilən formada, yəni sözügedən iki xüsusiyyətlə harada olsa, xüsusən də gənc mühitində olduqda üçüncü xüsusiyyət qaçılmazdır. Buna əsasən, mən bu orqanı vacib və lazımlı bilir, fəaliyyətində israrlıyam. Artıq bir şey istəmirik, amma təkid edirəm ki, ona lazımi səlahiyyətlərin verilməsi üçün müvafiq qərarlar qəbul olunsun. Bu da Mədəni İnqilab Ali Şurasının və digər səlahiyyətli qurumların işidir. İndiyə qədər görülən işlər çox yaxşıdır, amma görülməyənlər də görülməlidir. İxlasla, dini borcunu yerinə yetirmək üçün universitetə gedən ruhani və din alimlərinə rəqib, mərdimazar, lazımsız bir şey, formal bir orqan, yaxud universitetlərə müdaxilə edən adamlar kimi baxmaq olmaz. Bu, səhv və yanlışdır. İnşallah, zaman ötdükcə sizin işlərinizin bəhrəsi daha artıq görünəcək.

## Nümayəndəliklərin fəaliyyəti

Nümayəndəlik orqanı artıq illərdir ki, universitetlərdə çalışır. Son 2-3 ildə doğrudan da yaxşı işlər görüb. Düzdür, keçmişdə də zəhmətlər çəkilib və yaxşı işlər görülüb. Lakin son zamanlar, yəni son 2-3 ildə aldığı status tərəfimizdən daha çox təsdiq olunur. Bunun da az-çox nöqsanları ola bilər, demək istəmirik ki, tamamilə səhvsizdir. Amma hər halda, nöqsanlar aradan qaldırılasıdır. Bugünkü forma daha düzgün və münasibdir. Hamı kömək etməlidir. Mənim gördüyüm qədər, Ali təhsil və Tibbi təhsil nazirliklərinin məsul şəxsləri bunu yaxşı qarşılayır, universitetlərdə belə bir qurumun olmasını istəyirlər. Cənab nazirlər və digər məsul şəxslər onların fəaliyyətinə müsbət yanaşır, bunu səmərəli hesab edirlər. Mən sözlərindən belə anlayıram.

**Universitetləri İslama uyğunlaşdırmaq**

Bizim dediyimiz "İslama uyğunlaşdırmaq" məsələsi çoxtərəfli və çox dərin bir məsələdir. Cənab Cənnətinin dediyi, cənab Sədrin bu gözəl və dəqiq yazısında oxuduğu kimi, ölkənin və inqilabın gələcəyi ona bağlıdır. Bu o demək deyil ki, inqilabın əvvəlindən bu işlə məşğul olmayıblar. Xeyr, inqilabın əvvəlindən qayğıkeş, xeyirxah, inqilabçı və mömin tələbələr bu sahədə iş görmək üçün özləri çox israrlı xahişlər etmişlər. Sonra da hamının bildiyi işlər görüldü, imam Mədəni İnqilab Komitəsini yaratdı və daha sonra onun əsasında Mədəni İnqilab Ali Şurası formalaşdı. Bunların hamısı bu məqsədlə olmuşdur.

**Ciddi və əsaslı iş**

Bu gün universitetlərin nəzərdə tutulan istiqamətdə mühüm inkişaf etmədiyini görürüksə, deməli, işlərdə qüsurlar olub. Niyyətə qaldıqda isə bu, inqilabın niyyətidir, hamının niyyətidir. Bu gün bu sözləri danışan bizlər də inqilabın əvvəlindən bu məsələni izləyən şəxslərdənik. Mən hiss edirəm ki, bu gün ciddi bir işə ehtiyac var. Buna görə də, bu məsələni müstəqil şəkildə önə çəkdim.

Möhtərəm nazirin özü işgüzar müsəlmandır və bu işin doğrudan da yaxşı şəkildə baş tutmasını istəyir. Mən ona dedim ki, siz ali təhsil işində əsaslı və böyük bir iş görmək istəyirsinizsə, bu işi görməlisiniz. Universitetlərin və ali təhsil işlərinin idarəsi adi və normal bir işdir. Hansı nazir gəlsə, bunu edəcək. Amma əsaslı iş görmək istəyən nazir bunu etməlidir.

## Qısamüddətli və uzunmüddətli layihələr

Biz dəfələrlə demişik ki, elm hövzəsi universitetləri İslama uyğunlaşdırmaq işinə kömək göstərməli və işin bir qismini öhdəsinə götürməlidir. Bu bir qismin ümdə hissəsini universitetdə olan siz cənablar görə bilərsiniz və görməlisiniz. Çünki universitetlə tanış olmayan bir ruhaninin bu işi yaxşı şəkildə yerinə yetirə və bundan ötrü ən yaxşı, ən yaxın və ən etimadlı yolu seçə bilməsi məlum deyil. Lakin siz orada olduğunuzdan bu işdə rol oynaya bilərsiniz. Mən deyirəm ki, universitetləri İslama uyğunlaşdırmaq üçün qısamüddətli və uzunmüddətli layihələr nəzərə alınmalıdır. Yəni biz nə qısamüddətli layihələrə etinasız yanaşırıq, nə də qısamüddətli işlərlə qane olub uzunmüddətli işləri yaddan çıxarırıq. Biz bunların hər ikisini bir-birinin yanında istəyirik; həm qısamüddətli, həm

uzunmüddətli, lakin dərin, həqiqi və əsaslı işlər. Mənim istədiyim bu deyil ki, hansısa universitetdə qısaqol köynək geyindiyinə görə bir müəllimin yaxasından yapışsınlar. Mənim istədiyim və çalışdığım bu deyil. Belə məsələlərlə məşğul olmaq əsas işdən yayınmaqdır.

## İslam mühiti

Biz istəyirik ki, universitet bir İslam mərkəzi və İslam məqsədli bir yer olsun. İslam məqsədi budur ki, elm ən üstün keyfiyyətində, elmi məsələlər ən yeni formasında, elmi işlər ən uğurlu növündə, əxlaq və iman ən aydın və ən pak vəziyyətində olmalıdır; hamısı bir-birinin yanında. Bizim istədiyimiz budur və bu məqsədlərə çatmaq üçün, təbii ki, bəzi üsullar lazımdır.

## Elm və ölkənin gələcəyi

Məsul şəxslər, müəllimlər, dərs vəsaiti, xüsusən də sözügedən humanitar elmlər barədə əsaslı işlər görülməlidir. Bunların təfərrüatı uyğun iclaslara, aidiyyətli komissiyalara və tədqiqat qruplarına tapşırılsın. Onlar bu işlərlə məşğul olsunlar. Bizim istədiyimiz bunlardır.

Əgər kimsə gəlib bizim dediklərimizi 1-2 kiçik işdə xülasə etsə, əməldə, yaxud sözdə bunu göstərsə, bu böyük məqsədə zülm etmişdir.

Qısa olaraq deyim ki, mən bu işlə maraqlanacağam. Bundan sonra elmi-mədəni sahələrdə və universitet rəhbərliyində təmsil olunmaq üçün bunlar meyar seçilməlidir. Çünki İslam işi görüldükdə, elmi iş də onun içində gedir. Söhbət təbii ki, güclü elmi işdən gedir. Çünki zəif elmi iş İslam işi ola bilməz. Bu elm ölkənin bu gününü və sabahını təmin etməlidir. Bu, zəif elmlə təmin olunmur. Hər

halda, ümid sizədir. Allahdan kömək istəyin ki, bu işi var gücünüzlə yerinə yetirəsiniz.

Allahın salamı və rəhməti olsun sizə!

## Düşmənin üsullarını öyrənməyin zəruriliyi[2]

Bismillahir-Rəhmanir-Rəhim.

Bütün əziz qardaş və bacılara, xüsusilə uzaq yollardan və digər şəhərlərdən təşrif buyurmuş qardaş və bacılara xoşgəldin deyirəm. Məclis çox şirin və ürəkaçan məclisdir; çünki elmi işlərin ön sırasında dayanan gənclərin - tələbə, şagird və müəllimlərin, nümayəndəlik orqanında çalışan, elmlə məşğul olan insanların məclisidir.

Məclis 13 aban (4 noyabr) imperializm və hegemonizmlə mübarizə gününə yaxın bir vaxta təsadüf etdiyindən, bu məclisdə

---

[2] Qlobal Hegemonizmə qarşı Milli Mübarizə Günü münasibəti ilə çıxışı: 31 noyabr 1996.

mühüm məsələ olan hegemonizmlə mübarizə şüarı barədə bir qədər söhbət olunması yerinə düşər. Ümumiyyətlə, bir ölkədə və bir təşkilatda şüar çox əhəmiyyətli amildir. Hər bir ölkədə müxtəlif şüarlara qarşı münasibət xüsusi diqqətə və həssaslığa malikdir. Əgər xalq və onun məmurları şüarlarla münasibətin necəliyini yaxşı bilməsələr, böyük ziyanlar qarşıya çıxar.

Hərdən bəziləri dillənib "bu gün şüar günü deyil, əməl günüdür" – deyirlər. Bu, düzgün deyil. Baxmayaraq ki, bu sözü deyənlərin bəziləri xoş niyyətdədirlər və təkcə şüarla ölkəni idarə etməyin imkansız olduğunu bildirmək istəyirlər.

**Şüar və əməl**

Şüar verməklə bir ölkəni yox, heç bir kəndi də idarə etmək və abadlaşdırmaq olmaz. Şüarın yanında əməl də olmalıdır. Lakin bəziləri sadəlövhlükdən, bəziləri isə

bəlkə də qərəz üzündən bu sözü başqa şəkildə izah edirlər. Onlar demək istəyirlər ki, şüarı kənara qoymaq lazımdır. Bu, yanlışdır. Şüar bayraq, işarə və yol nişanları kimidir. Şüarsız əməl də əməlsiz şüar kimidir.

**Şüarın əhəmiyyəti**

Bir xalq haraya getdiyini və nə etməli olduğunu bilməsi üçün öz şüarlarını açıq-aydın şəkildə qorumalıdır. Əgər şüarlar ortadan götürülsə, sanki böyük bir cəmiyyət bir səhrada işarə və nişansız hərəkət edir. Bir də görərsiniz ki, başqa bir yerə çatıb. Şüar bir xalqın və bir ölkənin yolu səhv salmasına qoymur. Bu baxımdan, bunun özü də bir şüar olsun və biz deyək: "Həm şüar, həm əməl! Əməl yanında şüar, şüar sayəsində əməl!"

**Əsas şüar**

İran xalqının əsas şüarı istiqlaliyyət və azadlıq idi. Bu, İslam Respublikası şüarı ilə sonuclandı. Zaman ötdükcə istiqlaliyyət və azadlıq şüarları da daha aydınlaşdı, onlardan, yolu göstərən yeni şüarlar əmələ gəldi. O şüarlardan biri də Hegemonizmlə mübarizə şüarıdır.

**Hegemonizmin mənası**

Ərəb dilində "İstikbar" (hegemonluq) sözünün geniş mənası var. Quranda bu sözün müxtəlif formaları dəfələrlə işlədilib, məhz "İstikbar" kimi də gəlib. Belə nəzərə çarpır ki, bu, təkəbbürdən başqa bir şeydir. Belə demək olar ki, təkəbbür daha çox mənəvi və psixoloji bir xarakterdir; yəni insan özünü digərlərindən üstün bilir. "İstikbar" isə daha çox təkəbbürün praktik cəhətinə aid olur. Yəni təkəbbürlülük edib özünü digərlərindən üstün bilən şəxs digərləri ilə rəftarında bunu büruzə verir;

digərlərini alçaldır, təhqir edir, işlərinə müdaxilə edir, onlar üçün qərar çıxarır.

"İstikbar"ın mənası budur. Quranın şanlı ayəsində "istikbar" (hegemonluq) edən insanlar barədə danışarkən deyir: "Onlara belə bir peyğəmbər gəldikdə bu, ancaq onların nifrətini artırdı; yer üzündə "istikbar" (hegemonluq) etmələri və pis əməlləri ucbatından"[3]. Yəni Peyğəmbərin və haqq sözün qarşısında "istikbar" etdilər. Demədilər ki, biz üstünük; bu üstünlüyü, daha çox haqqa malik olmanı, özünə daha artıq haqq tanımanı əməldə göstərdilər; yəni küfr, inad və zülm cəbhəsinin haqq söz, mənəviyyat, nur və hidayət cəbhəsi ilə uzun və bitməyən müharibələri. "İstikbar" budur.

## Böyük şeytan

[3] Fatir/42-43.

Dünya dövlətləri arasında hegemonluq edəni tapmaq çox da çətin deyil. İmamın "böyük şeytan" ləqəbi verdiyi ABŞ dövləti İran xalqının haqlı iradəsi qarşısında hegemonluq etdi. Bizim dövrümüzdə formalaşan hegemonizm ABŞ hegemonizmidir. İnqilabdan öncə və inqilab dövründə də belə idi, indi də belədir.

**Hegemonizmlə mübarizə**

13 Aban (4 noyabr) gününün yada saldığı üç hadisə bununla əlaqədardır. İnqilabdan qabaq imam amerikalıların müdaxiləsinə, həmçinin kapitulyasiya məsələsinə qarşı çıxdı. Buna görə 13 abanda imamı sürgün etdilər. Hegemonizm budur. Haqq sözü haqqı deyənin boğazında kəsdiklərini düşündülər, amma bu səs kəsilmədi və Allaha şükür olsun ki, çox səmərəli oldu.

İnqilab əsnasında belə bir gündə bizim şagirdlərimiz xiyabanlara çıxdılar və “Ameikaya ölüm!” dediklərinə, ABŞ cəbhəsi ilə mübarizə apardıqlarına görə qətlə yetirildilər. Bu da yenə ABŞ hegemonizmi ilə əlaqədardır. İnqilabdan sonra da amerikalıların yeni yaranmış İslam quruluşuna qarşı müxtəlif təxribatları bizim tələbələrimizin amerikalıların Tehrandakı təxribat mərkəzini, yəni ABŞ səfirliyində yerləşən casus yuvasını tutmaları ilə nəticələndi. Bu da imperializm və hegemonizmlə mübarizə məsələsində başqa bir hadisə idi. Yəni hegemonizmlə mübarizə inqilabdan öncə başlanmışdır və bu günə qədər də davam edir.

**Düşmənin üsullarını bilməyin zəruriliyi**

Xalqımız hegemonizmlə mübarizə şüarını bir bayraq kimi qorumalıdır. Nə

üçün? Çünki ucalmış bu bayraq qorunmasa və bu şüar itsə, xalq yolunu itirər.

Biz düşmənin üsullarını bilməsək, bizi məhv etmək istəyən düşmənlə mübarizəni unutsaq, aydın məsələdir ki, düşmənin istədiyi yolla - məhv, uçurum və fəsad yolu ilə gedəcəyik.

### Ayıq xalq

Deməli, hegemonizmlə mübarizə daimi bir şüardır. Lakin əsas məsələ budur ki, ayıq bir xalq həmişə şüarlarla münasibəti düzgün seçir. Bəzən insan yalnız bir şüarı daim dilində təkrarlayır. Bu, böyük iş deyil. Bəzən də şüarı yarır, onun dərinliyinə gedir və onun əsasında iş görür. Belə olmaq lazımdır. Hegemonizmlə mübarizə şüarı barədə - dedik ki, bu gün hegemonizmin əsas nümunəsi işğalçı ABŞ dövlətidir - deyim ki, amerikalıların özləri bu şüarı unutdurmaq üçün inqilabın əvvəlindən işlər görmüşlər.

Nə üçün? Çünki nə qədər ki, bu şüar mövcuddur və xalq "ABŞ-a ölüm" şüarı ilə yaşayır, ABŞ-ın bu ölkəyə və onun sərvətlərinə yenidən yiyələnməsi mümkün deyil.

Deməli, bu hal nə vaxta qədər davam etsə, prinsip etibarilə, ABŞ-ın bu ölkəyə yolu olmayacaq; bu ölkənin nə siyasətinə müdaxilə edə biləcəklər, nə iqtisadi sərvətlərinə malik ola biləcəklər, nə də burada mədəni sahədə təmsil olunacaqlar. Bu ölkəyə qayıtmaq üçün birinci bu şüarı sıradan çıxarmalı, hegemonizm və ABŞ-la düşmənliyi ortadan götürməlidirlər.

**Zehinlərin yayınması**

Özlərinə görə onların da bəzi yolları var. İnqilabın ilk günündən müxtəlif formalarda bu işləri görürlər. İşlərin biri xalqda ABŞ-ın məğlubedilməz böyük güc olması və onunla mübarizənin qeyri-

mümkünlüyü barədə fikir formalaşdırmaqdır. Yaddaşınıza müraciət edin: imamın dövründən, xüsusən də vəfatından bu günə qədər bəzi şəxslər, istər açıq şəkildə ABŞ-a bağlı olan, istərsə də ölkə daxilində olub ABŞ-a çox da aşkar bağlı olmayan qüvvələr müxtəlif vasitələrlə - məqalə, hekayə, şeir, siyasi təhlil və digər formalarla bu fikri səsləndirirlər. Xalqa deyirlər ki, əbəs yerə zəhmət çəkməyin. Lakin bu, səhv fikirdir.

**ABŞ-la mübarizədə məqsəd**

İran xalqı "biz hegemonizmlə mübarizə aparırıq" dedikdə məqsədi bu deyil ki, qoşun çəkib Fars körfəzində ABŞ donanmasını bombalamaq istəyirik. Bizim mübarizəmiz belə deyil. Hətta İran xalqı və ölkənin məmurları demirlər ki, biz quldur amerikalıların əlinə bəhanə vermək üçün bir iş görmək istəyirik, qoy onlar İslam

Respublikası əleyhinə dəlisov və radikal addım atsınlar. Deməli, mübarizənin mənası hərbi mübarizə deyil. Əlbəttə, əgər haçansa hərbi hücum olsa, İran xalqı sərt cavab verəcək. İran xalqı düşmən qarşısında boş durmayacaq. Lakin mübarizədə məqsəd budur ki, İran xalqı düşmənin hiyləsi, hücumu, əngəli, siyasi işləri və İranı yenidən öz orbitlərindən birinə çevirmək üçün görülən müxtəlif işlər qarşısında kəskin şəkildə və qüdrətlə dayanacaq, müqavimət göstərəcək. Mübarizə bu deməkdir. Hegemonizmlə mübarizə budur ki, dünya səviyyəsində harada bacarsaq, hegemonizmi ifşa edəcəyik. Haradasa bir məzlum hegemonizmin zülmündən zərər çəkmişsə və cana gəlmişsə, biz bacardığımız qədər o məzlumun yanında olacağıq.

**Kələklərin ifşası**

Amerikalılar Orta Şərq məsələsində öz çeşidli üsulları ilə İslam Respublikasını, adını sülh qoyduqları xəyanətkar sazişə cəlb etməyə çalışdılar. Lakin İslam İranı qüdrətlə dayandı, qəbul etmədi. Biz ilk gündən dedik ki, bu proses haqsız olduğu üçün məğlubiyyətə uğrayacaq. Elə də oldu. Bu gün bütün dünya bizim sözümüzü təsdiqləyir. Hegemonizmlə mübarizə odur ki, amerikalılar dünyanın hər hansı bir yerində hər hansı bir xalqın, İslam prinsiplərindən birinin və ya bizim inam bəslədiyimiz bir həqiqət əleyhinə hiylə və kələk işlətsə, biz o hiyləni ifşa edib zərərsizləşdirəcəyik. İndiyə qədər də belə olub.

**Zəif Amerika**

Bu mübarizədə Amerika nəinki məğlubedilməz deyil, hətta çox zəifdir. Bu gün ABŞ bir neçə cəbhədə məğlub olub. Əfqanıstana girdilər ki, zahirən qanuni bir

hökuməti öz maraqlarından ötrü kənara çəkib, yerinə asılı bir hökumət gətirsinlər, amma bacarmadılar. İraqda başqa şəkildə çalışdılar, baş tutmadı. Orta Şərqdə çox geniş səylər göstərdilər, amma bacarmadılar. Dünyanın siyasi məsələlərində və Avropanı İrana qarşı çıxarmaqdan ötrü çalışdılar, amma bacarmadılar. İslam Respublikasına qarşı iqtisadi sanksiya tətbiq etdilər, bacarmadılar. Xalqları bizə qarşı təhrik etməyə çalışdılar, amma onların özü kimi düşünən, azlıqda olan bir qrupdan başqa ölkələrdə bacarmadılar.

**ABŞ-ın acizliyi**

Bu gün dünya səviyyəsində - Asiyada, Afrikada, hətta Avropada İslam Respublikasının ölməz əfsanəsinin, yəni mərhum və böyük imamımızın adı gələndə xalq həyəcanlanır və bacardıqda şüar da verir. Deməli, amerikalılar zəifdirlər. Ölkə

daxilində quruluşun müqəddəslərini ictimai rəydə gözdən salmaq üçün var-gücləri ilə çalışdılar, amma bacarmadılar.

**İslam Respublikasının səmərəli ağacı**

Bəzilərinin "nə üçün əbəs yerə zəhmət çəkirsiniz" - deyə düşünməsi, bunu yayması, yazması və deməsi yanlışdır. Xeyr, biz əbəs yerə zəhmət çəkmirik. Əgər əbəs olsaydı, beş il öncə İslam Respublikasının kəfəni çürüməli idi. Və İslam Respublikası o zaman yeni əkilmiş ağac idisə, bu gün Allahın lütfü ilə iri və səmərəli bir ağaca çevrilmişdir.

**Aydın gənclər**

Hegemonizmin səylərindən başqa birisi səhnədən çıxarmaq istədikləri şəxs əleyhinə mənfi fikir formalaşdırmaqdır. Əziz gənclər bu məqama diqqət yetirsinlər. Bu, son 17 il ərzində İslam Respublikası əleyhinə çox kəskin şəkildə baş verib. Doğrudan da bizim

gənclərimizin, ziyalılarımızın, beynəlxalq və siyasi məsələlərdə aydın baxışa yiyələnmək istəyən şəxslərin bu məqama diqqət yetirmələri vacibdir.

**ABŞ siyasəti**

Amerikalılar təkcə İrana qarşı yox, dünyanın hər hansı bir tərəfində onu bəyənməyən bütün dövlətlərə qarşı siyasət yürüdürlər. Əlbəttə, İslam Respublikası kimi bir dövlətə, ümumiyyətlə, dözümsüzdürlər. Bəzi dövlətlərin isə yalnız hansısa bir hərəkətini, mövqeyini bəyənmirlər. Bu siyasət təkcə amerikalılara məxsus deyil. Yeni dövrdə, modern texnologiya dövründə dünyanın bütün quldurlarında bu siyasət mövcuddur. Lakin bu gün bizim üçün bu alçaq mövqeyi ABŞ rejimi tutmuşdur.

Sözügedən siyasət budur ki, bir tərəfdən həmin dövlətə qarşı güclü təzyiqlər göstərir və onu əldən saldığını sanır.

Dünyada onun əleyhinə təbliğat aparır, xalqını ondan küsdürür, iqtisadi blokadaya salır, elm, texnologiya və sənaye inkişafından saxlayır.

**Vahiməyə düşmüş düşmən**

Gördünüz ki, atom stansiyası məsələsində dünyada necə qalmaqal yaratdılar. Dedilər ki, İran atom bombası düzəltmək istəyir. Bilirlər ki, belə deyil. Onlar bu ölkədə nüvə sənayesinin yaranmasını, bu xalqın yeni texnologiya və üsullara yiyələnməsini istəmirlər. Çünki belə istedadlı bir xalq yeni elm və texnologiyaya yiyələnsə, daha heç vaxt onunla qarşı-qarşıya gələ bilməzlər.

**Amerika üslubu**

Deməli, bir tərəfdən siyasət, iqtisadiyyat, elm və informasiya sahəsində təzyiqlər göstərirlər, bacardıqları qədər

pisləyib əleyhlərinə fikir formalaşdırırlar, digər tərəfdən yorulduqlarını gördükdə əlaqə yaratmaq üçün yaşıl işıq yandırır və deyirlər ki, biz sizinlə müzakirəyə, əməkdaşlığa hazırıq. Bu zaman adətən, məsul şəxsləri zəiflik göstərən dövlətlərin ayaqları sürüşür. Deməli, bir tərəfdən güclü təzyiq və digər tərəfdən də gülər üz göstərib qucaq açırlar.

## Ameika ilə əlaqənin acı nəticələri

Nəticə belə olur ki, düşmənçilik etdikləri dövlət bu səhvi edib onların dəvətini müsbət qarşıladıqda öz müstəqilliyindən ötrü əldə etdiyi azacıq heysiyyəti də əldən verir. Xalqın dəstəyinə malikdirsə, onu itirir, beynəlxalq dəstək varsa, onu, öz iradəsi varsa, iradəsini. Sonra bu təzyiqləri daha da ağırlaşdırıb onu öz əllərinə keçirirlər; məhv etmək istəsələr,

məhv edirlər, nəyisə qəbul etdirmək istəsələr, qəbul etdirirlər.

## Qüdrətli xalq

ABŞ rəsmilərinin səhvi bundadır ki, bu üsulu İran xalqı kimi böyük, iradəli, qüdrətli və özünə güvənən bir xalqa tətbiq etmək istəyirlər. Amerikalıların səhvi bundadır ki, xalqına əsla arxalanmayan zəif bir hökumətə qarşı sınaqdan keçirdikləri üsulu İran xalqı kimi böyük, iradəli, möhkəm, tarixi və fitri köklərə malik bir xalqa tətbiq etmək istəyirlər. Bizim xalqımız güclü, mədəniyyətli və iradəli xalqdır. Belə bir xalqa arxalanan quruluş, yəni İslam Respublikası fərd və hökumətlərə söykənmir.

## Qüdrətli quruluş

Mənim fikrimcə, imamın ən mühüm sözlərindən biri bu idi ki, deyirdi: "Bu quruluş mənə, yaxud başqa birinə bağlı

deyil". İmam bu quruluşun atası və banisi, xalqın müəllimi idi, bu möcüzənin və böyük məharətin müəllifi o idi. O deyirdi ki, bu quruluş məndən asılı deyil, mən olmasam da bu quruluş və bu xalq var. Bu, çox böyük sözdür. Əgər imam belədirsə, deməli, hamı belədir.

### Quruluşun dayağı

Bu quruluş fərdlərə deyil, həqiqətlərə, xalqa, onun ilahi lütfə səbəb olan mənəviyyatına söykənir. Nə qədər ki, xalq bu imanla, bu ixlasla və belə pak şəkildə irəliləyir, hərəkət edir və mübarizə aparır, bu dünyada və bu quruluşda kimsə olsa da, olmasa da, Allah-Taalanın lütf və dəstəyi davam edəcək. Bu quruluş fövqəladə qüdrətə və bacarığa malikdir və malik olacaq.

### Canlı şüar

Deməli, hegemonizmlə mübarizə şüarı canlı bir şüardır. Hegemonların təbliğ etdiklərinin əksinə olaraq, bu mübarizə həm mümkündür, həm perspektivlidir, həm də bu gün İran xalqı üçün vacibdir. Siz gənclər, ziyalılar və ayıq insanlar bu mübarizənin müxtəlif üsullarını tapmalısınız. Bizim əsas sözümüz budur. Düşməni və onun ölkə daxilindəki qüvvələrini tanıyın.

**Hegemonizmin arzusu**

Düşmənin üsullarını, cəmiyyətdə, mətbuatda, mediada, universitet və məktəblərdə iş tərzlərini öyrənin. Hegemonizm istəyir ki, bu ölkədə güclü iman olmasın, hamı ehtirasa qurşansın, İslamın pis saydığı işlər geniş yayılsın. Hegemonizm istəyir ki, ölkə daxilində tənbəllik və işsizlik baş alıb getsin, iqtisadi, ictimai və mədəni işlərdə quruculuq, yenilik və islahatı olmasın. Hegemonizm istəyir ki,

ölkədə elm inkişaf etməsin, tədqiqat və təhsil olmasın.

## Gənc nəslin sayıqlığı

Bəzi şəxslər hiyləgər şüarlarla hegemonizmin istədiyi işləri görməyə çalışırlar. Siz tam ayıq olmalısınız. Biz gənc nəsildən bunu gözləyirik. "Hegemonizmə ölüm!", yaxud "ABŞ-a ölüm!" deməklə iş bitmir. Bu, bir şüardır, lazımdır və var. Lakin şüar əsasında işləmək də lazımdır. Siz gənclər bir yerdə əyləşin, söhbət edin. Mən universitetin və gənc mühitinin siyasi olmasını dedikdə bunu nəzərdə tuturam. Bu xalqın, bu ölkənin yolunu göstərən bir nişan olan qlobal hegemonizmlə mübarizəni araşdırın və açıqlayın.

## Beynəlxalq diktatura

Bu gün amerikalılar diktaturaya sözdə müxalifdirlər, amma sizin tanıdığınız və

adlarını çəkmək istəmədiyim bir çox ölkələrdə mövcud olan ən pis diktaturaları öz qanadları altına alır, ən pis diktatorlarla yola gedirlər. Onlar dünya miqyaslı bir diktatura da tanıyırlar: ABŞ diktaturası. Onlar dünyadan öz istəklərinin icrasını tələb edirlər, xalqların və demokratik hökumətlərin istəklərinin yox.

**Şüarda təfəkkür**

Bütün ölkələrin daxili işlərinə, xüsusən də bu sərvətli, neftli regiona və İslam Respublikası quruluşuna aid məsələlərə müdaxilə edirlər. Hegemonizmin bu müdaxiləsinə, belə təcavüzkar və işğalçı ruhiyyəsinə qarşılıq olaraq, hər bir fərd hegemonizmlə mübarizə şüarı üzərində düşünməlidir. Siz gənclər isə daha çox düşünməlisiniz.

**Məğlubedilməz xalq**

Allaha şükür olsun ki, bu meyarlar bizim ölkəmizdə çox böyük həddə mövcuddur. Düzdür, bundan da yaxşı ola bilər və olmalıdır. Amma təkcə ABŞ yox, ABŞ kimi on supergüc də gəlsə, beynəlxalq aləmdə bu xüsusiyyətlərə malik olan, belə tələbəsi, taciri, ziyalısı, şagirdi, ruhanisi, hökuməti, imanı, duyğusu və səmimiyyəti olan bir xalqın başından bir tük də əskildə bilməzlər.

**Hegemonizmin məğlubiyyəti**

Mənim siz əziz gənclərə, qız və oğlanlara tövsiyəm budur. Sizə aid fəaliyyətlərdə, elmdə, təhsildə, tədqiqatda, müxtəlif ictimai-siyasi fəaliyyətlərdə, mədəni işlərdə, mətbuat, incəsənət, idman və bu kimi sahələrdə tam aktivliklə və bütün imkanlarınızla iştirak edin, öz paklığınızı, təqvanızı, imanınızı, ixlasınızı - siz bu cəhətlərdən dünya gəncləri arasında

həqiqətən, nümunəsiniz - qoruyun. Əgər bu imanlı, ixlaslı və müqəddəs işlər davam etsə, heç şübhəsiz, hegemonizm İran xalqı qarşısında bir dəfə yox, dəfələrlə diz çökəcək və məğlub olacaq. Buna əmin ola bilərsiniz.

**Həqiqi mübarizə**

Biz nədən qorxmalıyıq?! Nə üçün vahiməyə düşməliyik?! Bəllidir ki, "mübarizə" dedikdə mənası "bu qüdrətli iman və iradədən qaynaqlanan mövqedə dayanacağıq və heç kəsə təslim olmayacağıq" deməkdir. Mənası bu deyil ki, ordu toplayıb ABŞ-la müharibəyə gedirik. Bizim işimiz və məqsədimiz bu deyil. Əlbəttə, kimliyindən asılı olmayaraq, hər bir təcavüzkar bu xalqın möhkəm yumruğu ilə qarşılaşacaqdır. Buna heç bir şübhə ola bilməz. Bu xalq üçün əsas məsələ müqavimət və həqiqi mübarizədir. Bu iş Allah-Taalanı və dövrün imamının müqəddəs qəlbini sizdən razı edəcək, sizdə

onun intizar hissini gücləndirəcək, mərhum imamın mübarək ruhunu sevindirəcək və düşməni nakam qoyacaq. Ümidvarıq ki, Allah-Taala bu müvəffəqiyyəti sizin hamınıza bəxş etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Tələbənin məsuliyyəti[4]

Bismillahir-Rəhmanir-Rəhim.

**Tələbə və bu günümüz**

Əziz qardaş və bacıları ziyarət etməyə çox şadam. Mənim əzizlərim, tələbə məsələsi çox həssas məsələdir. Tələbəyə diqqət adətən, gələcəyə görə olur. Yəni deyirlər ki, bu günün tələbəsi sabahın müdiri, naziri, prezidenti, yaxud millət vəkilidir. Tələbəyə bugünkü diqqət adətən, onun sabahkı mövqeyinə görə olur. Əlbəttə, bu, səhv baxış deyil, düzgündür və bu əsasla, istər rəsmi məmur, istər qeyri-rəsmi bir şəxs, ruhani, yaxud hər hansı bir qayğıkeş insan üçün tələbə təbəqəsi qarşısında lazım olan işlərin və mühüm öhdəliklərin çoxu müəyyən edilir.

[4] Tələbə birlikləri ilə görüşdə çıxışı: 5 dekabr 1996.

Lakin mən demək istəyirəm ki, tələbə məsələsi təkcə bu deyil. Tələbəyə təkcə onun sabahkı mövqeyinə görə yox, həm də bugünkü mövqeyinə görə nəzər yetirmək lazımdır.

Siz özünüz tələbə olsanız da, tələbəlik sahəsində üzərinə məsuliyyət götürmüş insanlarsınız. Siz İslam birliklərinin, İslam cəmiyyətinin, Tələbə Bəsicinin və digər bu kimi qurumların nümayəndələrisiniz. Bu baxımdan, sizə, tələbə təbəqəsi qarşısında üzərinə məsuliyyət götürmüş şəxslər kimi baxır və bu xüsusda bəzi mətləbləri söyləmək istəyirəm.

**Aktiv mühit**

Bəli, heç bir şübhə yoxdur ki, tələbəyə sabahkı mövqeyinə görə diqqət yetirilir. Lakin ona bugünkü möqeyinə görə də baxmaq lazımdır. Çünki tələbə mühiti canlı, həyəcanlı, aktiv və bəzi məsələlərdə həlledici

bir mühitdir. Yəni belə olmalıdır. Belə olmasa, səbəbini tapıb aradan qaldırmalıyıq.

### Tələbənin əlavə məsuliyyəti

Bundan əlavə, o, elmi-mədəni mühitdədir. Əgər tələbənin yaşadığı cəmiyyət hərəkətli və istiqamətli olsa, həm gənclik duyğularına malik olan, həm də elmli, istedadlı, aydın və ayıq olan gənc təbəqəsinin əlavə bir məsuliyyəti də olacaq. Bu gün bizim yüz minlərlə, yaxud bir milyon tələbəmiz var. Zavodlarda, evlərdə, bazarlarda bir milyon qeyri-tələbə gəncimiz də ola bilər. Biz tələbələrə onlar kimi baxa bilmərik. Tələbələr bir təbəqədirlər və bunun özü əlavə mühüm xüsusiyyətdir.

### Gəncin aydınlığı

Buna əsasən, həm gənc olan, həm təbii surətdə aydın təfəkkürlərə malik olan, həmçinin aydın olduğuna görə ümumi

məsələlərə və cəmiyyətin siyasi mövqeyinə həssaslıq göstərən, daha artıq məsuliyyət hiss edən bir təbəqə indinin özündə də ölkənin, xalqın ümumi vəziyyətində, mühitin yaxşılaşdırılmasında rol oynamalıdır. Bu, tələbəyə bu gündən ötrü baxışdır.

## Tələbələrin yenilik qüdrəti

Bəzən bir cəmiyyətdə şərait xeyli ağırlaşır. Fərqi yoxdur, hər bir fəsad cəmiyyətin düşüncə mühitini zəhərləyir və bulaşdırır. Hər bir fəsad belədir. Siyasi fəsad da belədir, əxlaqi, cinsi fəsad, yaxud maddiyyata təmayül də. Fərz edin, bir cəmiyyəti bütünlüklə biganəlik bürüsün. Siz diktatura rejimlərinin birinə baxın, görün orada siyasi mühit nə qədər bulanıq və tənəffüsə yararsızdır. Xalqın ən böyük probleminə çevrilmiş belə bir mühitdə gözlənilmədən bir tələbə fəryadı, tələbə mövqeyi, tələbə hərəkatı bütün mühiti

dəyişdirir. Necə ki, bizim ölkəmizdə belə oldu.

## Kommunistlərin nəticəsiz səyi

Əlbəttə, bu fərqlə ki, bizim ölkəmizdə tələbə hərəkatı İslam hərəkatı çərçivəsində baş verdi. Bu çərçivənin özü böyük bir şey idi. On doqquz və iyirminci əsrdə baş verən inqilablarda, hətta keçmiş sovetlərin Oktyabr inqilabında da tamamilə fərqli idi. Ümumiyyətlə, başqa növdən idi. İrandakı bu böyük mənəvi və maddi hərəkət yeni bir şey idi. Tələbə hərəkatı bu çərçivədə qərar tutdu. Yəqin ki, sizin yadınızda olmaz, 1977-ci ildə hərəkatın qızğın çağında, yaxud əhalinin şəhərlərin xiyabanlarına çıxıb şüar verdiyi və rejim üçün daha heç bir imkanın qalmadığı 1978-ci ildə iyirmi ildən artıq sükut etmiş, dövlət qurumlarına daxil olmuş, üzvlüyünü qəbul etmiş, yaltaqlanmış, rejim və SAVAK üçün muzdurluq etmiş kommunistlər

qəflətən peyda oldular, Avropadan broşür gətirib yaymağa başladılar. Məqsədləri tələbə və ziyalıları cəlb etmək idi, lakin işləri nəticəsiz qaldı. Nə qədər çalışdılarsa, bacarmadılar.

**Tələbə məsuliyyəti**

Təkcə kommunistlər yox, solçu ziyalılar da bəzi işlər gördülər. Onlar gənc və ziyalı insanları cəlb etməli idilər, lakin edə bilmədilər. Nə üçün? Ona görə ki, bu hərəkat İslam hərəkatı idi və tələbələr də ona qoşulmuşdular.

Düzdür, o zaman İranda bugünkü qədər tələbə yox idi; indikinin yarısı, yaxud üçdə biri qədər də yox idi. Olanların da hamısı fəal deyildi. Hər halda, ozamankı universitet bugünkü ilə fərqlənirdi. Bəzi qruplar aktiv idilər. İslamçı və solçu qruplar az-çox fəallıq nümayiş etdirirdilər. Onların da bəzilərinin fəaliyyəti yaxşı idi, amma

universitetin ümumi mühiti çox əlverişsiz və pis idi. Xüsusən də qızların vəziyyəti, qız və oğlanların qarışması, modabazlıq və digər belə hallar onların bütün istedadlarını öldürmüşdü. O zaman universitetdə yalnız bir qrup fəal idi, radikal, məntiqli və möhkəm olub-olmamalarından asılı olmayaraq, İslam hərəkatı çərçivəsində irəliləyirdilər.

Görürsünüz ki, bu tələbə xisləti öz müdaxiləsi, hərəkəti, dərki və dəlilləri ilə şəraiti dəyişdirir və toplumu hərəkətə gətirir. Bu, tələbənin bu gününə aiddir, sabahına deyil. Bütün universitetlərdə bu potensial xüsusiyyət var. Dedim ki, mən sizinlə danışdıqda tələbə olduğunuza nəzər yetirib danışmıram. Təxminən hamınız tələbəsiniz. Amma mən sizinlə tələbə mühitində məsuliyyət qəbul etmiş birlik, Bəsic və ya nümayəndəlik üzvü kimi danışıram. Səbəbi də budur ki, öz gənclik dövrümü müntəzəm

olaraq universitet və tələbələrlə keçirmişəm. Məşhəddə düşüncə və mübarizə işlərinə başlayan zamandan mənim də üzv olduğum dini aydınlıq cərəyanını universitetə daxil etdik, Quran və hədis məsələlərinin yeni elmi əsaslarla təqdiminə başladıq. Bizim orada bütün, yaxud əksər işlərimiz tələbələrlə idi. Digər yerlərdə də ən çox tələbələrlə ünsiyyətdə olurduq. Mən universitet işlərinə çox həssasam. Hesab edirəm ki, universitetdə üzərinizə məsuliyyət götürməklə dəyər və qiymətiniz daha da artır, düşüncə, elm, əməl, xarakter və davranış xüsusiyyətlərinizin əhəmiyyəti böyüyür.

**Kələkbazlar**

Belə müsbət və mühüm xüsusiyyətə malik tələbə mühitində bir-iki mənfi xüsusiyyət də var. Onlara da yaxşı fikir vermək lazımdır. Biri budur ki, tələbə mühiti duyğusal olduğundan, həmişə pusqu

qurmuş bir qrup kələkbaz müxtəlif işlər üçün bu həssas və hazırlıqlı təbəqədən sui-istifadə etməyə çalışır. Düzdür, hamı istifadə edə bilmir, lakin istəyirlər. Tələbə mühiti onları əsla qəbul eləmir, onlara yol açmır. Bəziləri isə zirəkdirlər. Əgər hansısa siyasi partiya, iqtisadi qrup, mədəni təşkilat, yaxud tanınmış şəxsiyyət tələbə mühitindən öz məqsədləri üçün istifadə etmək istəsə, lazımi bacarıqlara malik olsa, bu, tamamilə mümkündür. Yəni tələbə mühitinə daxil olub bir yolla ondan bəhrələnə bilər.

**Tağut rejiminin israrı**

Tələbə mühitində əxlaq fəsadları çoxdur. Düzdür, indi bizim cəmiyyətimizdə çox azalıb, amma başqa ölkələrdə, xüsusən də üçüncü dünya ölkələrində olduqca çoxdur. Gedənlər bunu görüblər. Mən Asiya ölkələrində bunun bəzi nümunələrini yaxından görmüşəm. Bəzən gənclərdə çox pis

əxlaq pozğunluqları müşahidə olunur. Bunun müxtəlif amilləri var, indi bu barədə danışmaq istəmirəm. Belə gənclərin əksəri tələbədir. Məsələn, İslam ölkələrinin birində gördüyüm gənc başının yarısını qırxırdısa və ya inqilabdan öncə burada bir gənc kürkü tərsinə geyinirdisə, hansısa məqsədlə bunu edirdi. Yaxud cins şalvarlara dabandaşı sürtürlər ki, bir qədər yeyilsin. Bunlar əksər hallarda tələbə gənclər idilər. Düzdür, qeyri-tələbələr də vardı. Pəhləvi rejimi universitet mühitini bulaşdırmaqda israrlı idi, orada düzgün düşüncə inkişafını istəmirdilər.

**Gəncin həssaslığı**

Gəncin həssas, üzüyola və ürəyiyumşaq olması ikitərəfli bir qılınc kimidir: həm düzgün təfəkkürlər bu imkandan bəhrələnib universitetə daxil ola və onu cənnətə çevirə bilərlər, həm də yanlış təfəkkür və üsullar universitetə daxil ola

bilərlər. Bu, zəif nöqtədir. Tələbələrlə münasibətdə buna diqqət yetirmək lazımdır.

Tələbə gənc və azadfikirli, təbii olaraq həssas və duyğusaldır. Hər bir həyəcanlı, yaxud zahiri gözəl sözün təsiri altına düşməsi mümkündür. Bunu yaddan çıxarmayın. Bu da zəif nöqtədir.

### İnqilabın əsaslı işi

İnqilabın əvvəlində bütün ölkədə - zavodda, bazarda, universitetdə, hətta silahlı qüvvələrdə də İslam birlikləri yarandı, sonra onlardan başqa təşkilatlar meydana çıxdı. Bu gün müxtəlif İslam təşkilatları mövcuddur. Bu, inqilabın ölkəyə bəxş etdiyi ən gözəl işlərdən idi. Təxminən 1980-ci ildə dünyanın ogünkü tanınmış inqilabçılarından biri demişdi ki, İran İslam İnqilabı bir neçə əsaslı iş görüb və bu işlər onu həmişəyaşar edəcək. Onların biri də İslam birlikləri idi. O demişdi ki, bu iş İslamın düşüncə və dəyərlərini

xalqın özündən olan mühafizəçilər vasitəsilə təmin edib əbədiləşdirəcək, heç kim onlara qarşı çıxa bilməyəcək.

**Birgə olmaq**

İslam birlikləri özfəaliyyət proqramı idi, onları heç kim sərəncamla yaratmamışdı. Buna ehtiyac da yox idi. Bu, zərurətdən doğan məsələ idi. Universitetdə, zavodda, bazarda - hər yerdə belə idi. Lakin kənardan baxdıqda işlər o qədər gözəl və dəqiq idi ki, belə təhlil edir, bu işi inqilabın məsul şəxslərinin gördüklərini düşünürdülər. Halbuki təbii bir özfəaliyyət işi, tamamilə düzgün və fitri bir məsələ idi. İndi bizim fikrimizcə, İslam birlikləri, İslam cəmiyyətləri, digər tələbə təşkilatları, Tələbə Bəsici, nümayəndəlik orqanları və bu işlərlə məşğul olan bütün şəxslər yaxşı islamçı və tələbələrdir. Eybi yoxdur, olsunlar və birgə əməkdaşlıq etsinlər, bizim fikrimizcə, heç bir

eybi yoxdur. Amma aralarında ədavət olmamalıdır. Mən təkid etmirəm ki, bunların hamısı birləşdirilsin. Xeyr. Bu, böyük problem deyil. Mühit böyükdür. Hər halda, üslublarda fərqlər mövcuddur. Üslub fərqlərinin də eybi yoxdur. Əsas bir-biri ilə yola getməkdir. İndi siz universitetlərdə nə etməlisiniz? Hansı iş hamısından daha əhəmiyyətlidir?

Mən bu barədə yeni bir söz demək istəmirəm, bəlkə də bildiklərinizi təkrarlayacaq, yada salacağam. Çünki bu sahədə mövcud olan bəzi mühüm məqamlar unudula bilər. Hamı bunları bilir, lakin təəssüf ki, bəzən diqqətdən kənarda qalır.

**Təşkilatların məqsədi**

Siz istəyirsiniz ki, tələbə mühitini din və inqilab istiqamətində inkişaf etdirəsiniz. Haradasa tələbə təşkilatı varsa, lakin hərəkəti din və inqilab dəyərləri istiqamətində

deyilsə, bu təşkilat əsla bizim müraciət tərəfimiz deyil. Adı İslam birliyi olsa da, yalandandır, İslam birliyi deyil. Mən görürəm ki, bəzən belə səhvlərə yol verilir. Deyirəm ki, yəqin gəncdirlər, diqqətsizlik edirlər. Sizsə nəzərə alın ki, bu, diqqətsizlik olmaya da bilər. Ola bilsin, doğrudan da pərdə arxasından kimlərsə hansısa məqsəd güdsünlər. Siz çox diqqətli olmalısınız. Bu sizin borcunuzdur.

**Böyük yalan**

Bu gün qərblilər dünyada özlərini demokrat, fikir və söz azadlığının tərəfdarı kimi təqdim edirlər. Halbuki bu, dünyanın böyük yalanlarındandır. Bunu bilin. Bu gün beynəlxalq aləmdə və Qərb dünyasında fəxrlə təriflənən demokratiya nə ABŞ-da mövcuddur, nə Fransada, nə də İngiltərədə. Faşizm və nasizm kimi keçmişi olduğu üçün Almaniyanı misal çəkmirəm. Özlərini

demokratiyanın beşiyi adlandıran ABŞ və Fransada iddia etdikləri demokratiya əsla mövcud deyil, onunla məsafələri çoxdur. Lakin qərblilərin xüsusiyyəti budur ki, ən pis bir şeyi belə çox təmiz, ütülü, qablaşdırılmış, ətirlənmiş və gözəl şəkildə təqdim edirlər. Onların tərbiyəsi belədir. Kiminləsə vuruşmaq istədikdə, bizim kimi yaxalaşıb hay-küy salmırlar, əsəblərini əsla pozmadan qarşı tərəfin ürəyinin başından bir güllə çaxır, çox soyuqqanlılıqla adam öldürürlər. Onların xüsusiyyəti belədir.

### ABŞ-ın düşmənçilik üsulu

Burada siyasi çıxış etmək fikrim yoxdur, yalnız sizin diqqətinizi yönəltmək üçün bir misal çəkmək istəyirəm. Görürsünüz ki, bu gün ABŞ Sezar və Nəmrud kimi rəftar edir. Hansı hökumət, yaxud xalq "pis" olsa, zorla və hegemonluqla müdaxilə edir. Bu zor, hegemonluq və

xəbislik neftdən, transmilli kompaniya və kartellərin sinif maraqlarını təmin etməkdən başqa bir məqsəd güdmür. Onlar bunu fikir azadlıqlarını, insan hüquqlarını, demokratiyanı müdafiə kimi adlarla dünyaya təqdim edirlər. Bu məsələlər eynilə onların daxili siyasətlərində də mövcuddur.

**ABŞ-ın rüsvayçılığı**

Əgər vaxt tapsanız, ABŞ-ın ictimai vəziyyətinə dair yazılmış kitabların bəzilərini oxuyun. ABŞ rüsvay olub və bu cəhətdən ona qarşı təbliğat problemi yoxdur. İndi hamı ABŞ-da baş verənləri öyrənə bilər, vəziyyətləri o qədər pisləşib ki, gizlədə bilmirlər. Buna görə onu yaxşı misal çəkmək olar. Mən bu haqda amerikalıların özləri tərəfindən yazılan çoxlu kitablar oxumuşam, bilmirəm siz də oxumusunuz, yoxsa yox.

**Həqiqi demokratiya**

Seçkilər barədə ABŞ-ın nisbətən məşhur solçu yazıçılarından olan Hovard Fastın bir kitabını oxudum. Onun çoxlu kitabları var. O, bədii yazıçıdır. Həmin kitabda baş vermiş bir hadisəni çox gözəl şəkildə təsvir edib. Düzdür, romandır, lakin məzmun tamamilə həqiqidir. Bunu kitabın girişində də yazır. Kitab iyirminci əsrin əvvəllərində ailəsi ilə birgə Avropa ölkələrinin birindən ABŞ-a mühacirət edən bir uşaq haqdadır. Əslində, bu uşaq ABŞ-da doğulur və ABŞ qanunlarına görə amerikalı sayılır. O böyüyəndən sonra vəkil olur və daha sonra seçkilərə qatılır. Bu kitabda oradakı seçkilərin vəziyyətindən söhbət açılır.

Baxın, bu hələ iyirminci əsrin əvvəllərinə, 20-30-cu illərə aiddir. Bu sahədə məlumatı olan və bir şey yazmış bütün şəxlərin etirafına görə, ondan sonra vəziyyət qat-qat pisləşib. Deməli, Qərb ölkələrində -

istər ABŞ-da, istər Fransa və İngiltərədə həqiqi demokratiya yoxdur. Əslində, bu ölklərin bütün işlərinə hakim amil böyük şirkətlərin pulu və media gücüdür. Namizədi onlar təyin edirlər. Bir partiya daxilində hansısa namizədi o birindən önə çəkən onlardır. Partiya rəhbərlərini onlar müəyyənləşdirir, media imkanları və böyük pullarla çox sistemli təbliğat həyata keçirirlər. Efirlər, parlaq və gözqamaşdırıcı sözlər qarşısında zavallı xalqın heç bir seçim şansı qalmır, tanımadığı adamı senator və ya prezident seçir.

İndi bizim inqilabçı ölkəmiz daxilində hansısa yazıçı bu yalançı demokratiyanı, bu qeyri-həqiqi şüarı doğru sanır. Elə bir ölkədə ki, hər bir şey xalqın istəyi ilə baş tutur, onsuz hərəkət mümkün də deyil. Bu gün bizim ölkəmiz belədir.

### Xalqın iştirakı

Siz heç bir yerdə belə bir şey görə bilməzsiniz. Bizim prezidentimiz bir şəhərə gedəndə xalq onu izdihamla qarşılayır, ona sevgisini bildirir. Başqa yerlərdə belə deyil; xalqın hamısı seçkilərdə iştirak etmir, səs verənlərin əksəriyyəti də səs verdikləri namizədi tanımırlar, bir iş kimi ona səs verirlər. Bizdə isə hiss və duyğuların rolu var, xalq səs verdiyi namizədi ürəkdən sevir, görür ki, o varsa, bu da var; o, qərar qəbul edirsə, bu da edir. Bu, dünyada misilsizdir.

**Siyasi hiylə**

İndi belə bir cəmiyyətdə hansısa ziyalı yazıçı adı ilə demokratiyadan yazır, ABŞ və Qərb demokratiyasına həsrət çəkir. Bu, siyasi bir hiylə, siyasi və mental baxımdan yanlışdır. Təsəvvür edin ki, bir nəfər İslam, yaxud İslam birliyi adı altında belə bir hərəkət etsin. Buna İslam birliyi demək olmaz. Bu, səhv hərəkətdir.

## Tələbə birliklərinin vəzifələri

Buna əsasən, tələbə birliklərinin vəzifələri arasında ən mühüm məsələ ümumi istiqaməti tanıyıb qorumaq və uğrunda çalışmaqdır. Mən indi təfərrüatına toxunmaq istəmirəm, lakin fikrimcə, birliklərin üzərinə üç mühüm məsuliyyət düşür: Biri tələbə təbəqəsini ruhi və mənəvi baxımdan qidalandırmaqdır. Əlbəttə, universitetlərdə olan nümayəndəlik orqanlarından və möhtərəm ruhanilərdən gözlədiklərimi heç zaman İslam birliklərindən gözləmirəm. Bu, bəlli məsələdir. Ruhanilərin dini və mənəvi məlumatları çox olduğundan bundan ötrü daha artıq məsuliyyət daşıyırlar və imkanları daha genişdir. Buna şübhə yoxdur. Amma hər halda, tələbələrin mənəvi və ruhi qidalanmasında İslam təşkilatlarının da üzərinə böyük məsuliyyət düşür.

**Məsuliyyətli tələbə**

Tələbənin bu günü və sabahı yalnız dərs oxumaqla təmin olunmur. Bir çox tələbələr var ki, dərs oxuyurlar, lakin insani əxlaqları yoxdur, nəinki İslam dəyərləri, heç öz cəmiyyət və vətənləri qarşısında da qətiyyən məsuliyyət hiss etmirlər. Məlumdur ki, bunun heç bir dəyəri yoxdur. Təsəvvür edin, ölkə zəhmət çəkib, xərc çəkib bir nəfəri ixtisaslaşdırır, lakin bu adamın öz ölkəsinə, evinə, toplumuna, xalqına qarşı heç bir məsuliyyət hissi yoxdur, ixtisasını aparıb düşmənə xərcləyir. Bu, ağıldan deyil.

**İnsani əxlaq**

Əsas şərt budur ki, burada dərs oxuyanın mənəviyyatı olsun. Bu mənəviyyatın bəzisi hər bir ölkədə və hər bir cinahda əhəmiyyətli sayılan ümumi insani mənəviyyatdır. Yəni müsəlman və ya inqilabçı olmasından asılı olmayaraq, öz

toplumuna və evinə qarşı vəfalı, məsuliyyətli, insana və insaniyyətə qarşı mehriban olmalı, təkcə öz cibini doldurmaq barədə düşünməməlidir. Əgər belə olmasa, dəyəri də olmaz. Əlbəttə, çörək tapmaq üçün dərs oxumağın eybi yoxdur. Bəziləri buna görə dərs oxuyurlar, oxusunlar, lakin bu çörək başqalarının bədbəxtliyi hesabına əldə edilməməlidir. Bundan ötrü insani əxlaq lazımdır. Əxlaqi xüsusiyyətlərin bəzisi belədir, bəzisi də dini məsuliyyətlərə aiddir.

**Allahla mənəvi əlaqə**

Allahla mənəvi əlaqəsi olmayan, Allahla tanış olmayan, insan varlığının mənəvi gülüstanının heç bir ətrini duymayan tələbə çox nöqsanlıdır. Qəlbinin təmizliyinə rəğmən, Allah zikrinin ləzzətini dadmayan, namazdan həzz almayan, duadan, zikrdən, təzimdən, ağlamaqdan, aləmin Rəbbi ilə ünsiyyətdən, varlıq həqiqətlərinin ən gözəli

olan Allah-Taalanın müqəddəs vücudu ilə mənəvi əlaqədən uzaq olan bir gənc çox nöqsanlı, yoxsul və qüsurludur. Sizin üzərinizə bu baxımdan da məsuliyyət düşür. Siz insanları maarifləndirməli, Allahla tanış etməli, Allahla ünsiyyətin yolunu öyrətməli və zikrin ləzzətini daddırmalısınız.

### Allah zikri - ən gözəl ləzzət

İnsan Allah zikrinin və Allahla mənəvi əlaqənin ləzzətini dadsa, başqa heç bir şey ona ləzzətli gəlməz, dünyanın bütün ötəri ləzzətləri uşaq işi kimi görünər. Belə məsələlərlə məşğul olan doğruçu insanlar bizə belə demişlər. Hər bir insan da öz ömrü boyu az-çox buna nail ola, Allah zikrinin ləzzətini bir anlıq da olsa, dərk edə bilər. Bu sizin tələbə gənclərə verəcəyiniz ən böyük hədiyyədir. Bu gənclərin, qız və oğlanların çıxarlı ruhları var. Onları namazla tanış edin. Namaz insanın boynunda yük deyil, bir lütf

və bir bacadır. Əgər Allah mənə və sizə Özü ilə danışmaq icazəsi verməsəydi, biz nə edərdik?! Əgər insanın dua və münacat etməsinə icazə verilməsəydi, nə edərdi?! Özünün ac və susuz ruhunu necə doyura bilərdi?! Allahla mənəvi əlaqədən başqa hansı bir şey insanın bu susuz ruhunu doyura bilər?!

**Azan - dadlı su**

Bəzi hədislərdə göstərildiyinə əsasən, əziz Peyğəmbərimiz azan vaxtı yaxınlaşanda Bilala deyirdi: "Sərinləşdir, ey Bilal!"[5] Yaxşı yadımda deyil, Şeyx Bəhaidən, yaxud mərhum Nəraqidən görmüşəm. Bunun izahında deyir ki, bu söz barədə bir neçə ehtimal mövcuddur. Ehtimalların biri budur ki, ey Bilal, ciyərim susuzluqdan yanır, bu

---

[5] "Kəşkül", c. 1, səh. 195.

gözəl suyu çatdır; yəni namaza giriş icazəsi olan azanı ver.

**Allah rəhməti**

Bu mənəviyyatı bu gənclərə kim verə, onların əlini kim tuta bilər?! Bu sizin borcunuzdur. Bu, böyük bir vəzifədir, onu yüngül saymayın. Əlbəttə, dediyim kimi, siz öncə özünüzə dair həssaslıq göstərin. Məncə, ötən il Qum şəhərində sizin toplantınızda dedim ki, universitetin məscidində keçirilən etikaf mənim üçün çox şirin və ləzzətli idi. Allaha şükür olsun ki, xalq bu etikafa ilbəil daha artıq maraq göstərir. Mənə məlumat verdilər ki, üçüncü gün camaat etikafdan çıxanda ağlayaraq məsciddən ayrılırdılar. Üç gün məsciddə oruc tutublar, dua ediblər, Allahla ünsiyyətdə olublar, münacat ediblər, məsciddən ayrılanda da göz yaşı ilə vidalaşırlar. Bu, Allahın rəhmətinə səbəb olan çox yaxşı haldır. Bizim bugünkü

uğurlarımızın çoxu bunların təsirindəndir. Siz bəlkə də bəzi siyasi nailiyyətləri bizə - yəni quruluşun məsul şəxslərinə və yüksək rütbəli dövlət məmurlarına aid edirsiniz. Lakin biz özümüz bəzi məsələləri müzakirə edəndə doğrudan da bu nəticəyə gəlirik ki, uyğun sahədə heç bir iş görməmişik. Bu, Allahın qüdrətinin nümayişidir. İmam xəstəxanada yatanda mənə dedi ki, bu illər ərzində, bütün bu müddətdə bizə yardım edən bir qüdrətli əli hiss etmişəm. Mən də bu gün o qüvvəni hiss edirəm. Sizin və xalqın rəftarı, bu münacat, dua, təvəssül, ibadət və itaətlər Allahın rəhmətini cəlb edir. Bəziləri bunu ümumiyyətlə, təsəvvür edə bilmirlər. Qoy etməsinlər. Lakin insan bəzi məsələlərlə və öz vicdanı ilə qarşı-qarşıya qalanda bunu tam anlayır.

## Nəfsdən ehtiyatlı olmaq

Hər halda, əvvəl özünüzdən muğayat olun. Həqiqətən, ehtiyatlı olun ki, günah etməyəsiniz və yaxşı işlər görəsiniz. Ehtiyatlı olun ki, nəfsiniz sizi deməyə, eşitməyə, mövqe bildirməyə, dalaşmağa - heç bir söz və əmələ vadar etməsin. Bacardığınız qədər bundan çəkinin. Bizlər nöqsanlıyıq. Əlbəttə, siz bizdən yaxşısınız. Gənc pak və nuranidir. Sizin işləriniz bizim kimilərin işlərindən daha rahatdır. Bizim yaşımızda işlər çox çətinləşir.

**Gəncin təsirliliyi**

Buna görə əvvəl öz barənizdə bu işi görün, sonra da tələbə mühitinə və böyük tələbə təbəqəsinə qarşı bu məsuliyyəti hiss edin. Heç kəsdən ümidinizi üzməyin. Həmişə təsir buraxmağa çalışın. Yoldan azmışlara təsir göstərməyə çalışın, onlardan təsirlənməyin. Bunu həmişə yadda saxlayın. Əlbəttə, bu işin ümumi idarəsi, xoşbəxtlikdən, bu gün universitetlərdə

çalışan möhtərəm ruhanilər və din alimləri tərəfindən həyata keçir.

**Aparıcı insanlar və ümumi kütlə barədə araşdırmanın zəruriliyi**

İkinci məsuliyyət siyasi məsuliyyətdir. Baxın, mən bir mövzu açdım. Bu mövzu bizim dini mühitlərimizdə və ya başqa yerlərdə heç zaman deyilməmişdi. Mən bu mövzunu açdım ki, tarixi və siyasi tədqiqatçılar araşdırsınlar. Bu mövzu aparıcı insanlar və ümumi kütlə mövzusudur. Bir neçə ay öncə hamısı sizin kimi gənc olan bir qrup qarşısında bu məsələni ortaya qoydum.

**Böyük Peyğəmbər**

Mənim əzizlərim! Siz Peyğəmbərin nurlu simasını təsəvvür edin. Müqəddəs peyğəmbərimiz doğrudan da paklığın, gözəlliyin, nuraniliyin zirvəsində durur. Bəşər dünyasında ondan üstünü təsəvvür

olunmur. Heç onun özü də bizim üçün təsəvvüredilləsi deyil. Siz böyük peyğəmbərlərə baxın, Quranda həzrət Yusifin (ə) və həzrət İbrahimin (ə) əhvalatlarını oxuyun. Həzrət Musanın (ə) əhvalatını oxuyun. Görün onlar nə qədər böyük olmuşlar, şəxsiyyətləri nə qədər böyükdir. Onların hamısı bizim peyğəmbərimiz qarşısında ibtidai sinif uşağıdırlar. Qeyri-müsəlmanların da hörmət etdiyi və önündə diz çökdüyü Əmirəlmöminin Əli (ə) bütün əzəmətinə rəğmən, Peyğəmbərin qarşısında ibtidai sinif uşağı, bir müəllim qarşısında sözəbaxan şagirddir; özü də heç zaman müəlliminə çatmayacaq şagird. Bunu bilin. Bu qədər böyük Əmirəlmöminin Peyğəmbər qarşısında belə bir şəxsiyyətdir.

**Aşura faciəsindən daha ağır**

Dərdli-kədərli tarixi boyunca İslamın əsas problemlərindən biri budur ki, hicri onuncu ilə qədər Peyğəmbərin əlində olan hakimiyyət sonradan Yezidin ixtiyarına keçir. Nə zaman? Hicrətin altmışıncı ilində. Görün yalnız əlli il - yarım əsr sonra hakimiyyət kimdən kimə keçir. Doğrudan da dünyada bundan ağır bir şey yoxdur. Bu, İmam Hüseynin (ə) qətlə yetirilməsindən də ağırdır. Bütün Aşura faciəsindən daha ağır olan budur ki, vaxtilə Peyğəmbərin və Əmirəlmömininin sahib olduğu hakimiyyət bir neçə onillikdən sonra Yezid kimi birisinə çatsın, sonra da Mərvana, Əbdülməlikə və digərlərinə. Belə ünsürlər təxminən 500-600 ilə yaxın din adı ilə hökmranlıq etdilər. Düzdür, sonra rza xanlar, nasirəddin şahlar və digərləri hakimiyyətə yiyələndilər. Bunların hər biri də özləri üçün bir Yezid, yaxud Müaviyə idilər. Bunları da əhəmiyyətsiz saymaq olmaz. Lakin onlar din

adı ilə hökmranlıq edirdilər. Qısası, dünyada çox az hadisə bu qədər ağır və kədərlidir.

### Aparıcı insanların xəyanəti və ümumi kütlənin təqlidi

Bu acınacaqlı durumu təsəvvür etdiniz. Bu durum iki amilin birləşməsindən yaranmışdı. Tarixə müraciət edən hər kəs bunu təsdiqləyər. Bizim aparıcı insanlar və ümumi kütlə mövzumuzun xülasəsi budur ki, bəzi aparıcı insanlar xəyanət edir və ümumi kütlənin çoxu diqqət yetirmədən onların ardınca gedirlər. Bu, həmişə gözlənilən bir problemdir.

### Bilərəkdən xəyanət

Mənim əzizlərim! Bəzi aparıcı insanlar bilərəkdən və anlayaraq xəyanət edir, yolu əyir, öz nəfslərinin, şəxsi həyatlarının, pulun, malın, sərvətin, hakimiyyətin, vəzifənin, təəssübkeşliyin və digər istəklərin arxasınca

gedirlər. Özləri də aparıcı insanlardır. Ümumi kütlənin çoxu da onları yamsılayır. Bu onların bəxtinə qalıb. Əgər yolunu azmış aparıcı şəxs bəzi xarizmalara sahib olsa, o zaman vay xalqın, ümumi kütlənin halına!

**Avamçılığa qarşı**

Bu problem qarşısında nə edə bilərsiniz? Buna görə deyirəm ki, universitetlər siyasiləşməlidir. Yəni elə edin ki, tələbə mühitində avamçılıq olmasın, tələbələrin hər birində təhlil qabiliyyəti olsun. Bəzi insanlar nazir səviyyəsinə qədər yüksəlirlər, lakin hələ də avamlıqdan çıxa, ayıqlıq əldə edə bilmirlər. Avamçılığın mənası budur. Əgər sabah elmin, həssas post və mərkəzlərin böyük bir hissəsini tutacaq tələbələr düzgün təhlil qabiliyyətinə və düzgün məqsədlərə malik olsalar, o zaman bu problem dəfələrlə azalacaq. Bu baxımdan profilaktik tədbirlər görmək lazımdır. Bunun

qarşısı alınmalıdır və bu iş sizin üzərinizə düşür.

**Düşmənin universitet daxilində müharibə komitəsi**

Bilin ki, tələbələr arasında siyasi işlər aparmaq üçün heç kim İslam birliklərini və tələbə təşkilatlarını gözləmir. Bunu digərləri, yəni düşmənlər edirlər. Əgər onlara icazə versək, universitetə gedib müharibə komitəsi yaradarlar. Necə ki, inqilabın əvvəlində bunu yaratmışdılar və imam bir fərmanla onların hamısını ləğv etdi. 1979-1980-ci illərdə Tehran Universitetinin daxilində müxtəlif qruplar müharibə komitələri yaratdılar. Onlar İslam təşkilatlarını gözləmirlər. Əgər yol versəniz, içəriyə girəcəklər; yol verməsəniz, bayırdan müxtəlif məqalə və yazılarla içərini qarışdıracaqlar.

**Düşmənin yolunun səddi**

Əgər siz universitet daxilində bu sahədə fəaliyyətə başlasanız, düşmənlərin yolunu bağlayacaqsınız. Düzgün, həqiqi, məntiqli siyasət və səmərəli İslam təlimləri əsasında təhlil edin, siyasi təhlil bacarığınız olsun. Siz bütün dünya hadisələrini bu meyarla, bu aydın və düzgün baxışla təhlil edə bilməlisiniz. Bu, ideal məqamdır. Əlbəttə, əvvəl özünüz bu sahədə sığortalanın və sonra tələbə mühitlərinə daxil olub işləyin. Bu da ikinci vəzifə və işdir. Mənim fikrimcə, həm də olduqca əhəmiyyətlidir.

**Geniş baxış**

Burada üçüncü məsələ də var. Bu sizin özünüzdən olanlarla əlaqənizdir. Təəssüf ki, mən müsəlman uşaqların universitet daxilində bəzən bir-birləri ilə çox dartışdığını görürəm. Bu zaman ümumiyyətlə, işləməyə macal qalmaz. Təəssüf ki, universitet daxilində bəzilərinin İslam adı altında

gördükləri iş cəmiyyətin mövcud dəyərlərinə, yaxud bəzi şəxslərə, məqsədlərə və digər məsələlərə dil uzatmaqdır. Hamınız öz işlərinizlə məşğul olun. Universitetdə sizin ən mühüm işiniz tələbələrlədir. Onlarsa diqqətsizlik göstərirlər. Əlbəttə, biz "tələbələrin işləri ilə məşğul olun" dedikdə mənası bu deyil ki, tələbələr cəmiyyətin siyasi məsələləri ilə maraqlanmasınlar. Xeyr, onlar cəmiyyətin və dünyanın siyasi məsələləri ilə mütləq maraqlanmalıdırlar. Əgər başınızı aşağı salsanız, hər şeydən məhrum olarsınız. Başınızı yuxarı qaldırmalısınız, baxışınız geniş olmalıdır. Baxış üfüqü olduqca geniş olmalıdır. Lakin tələbə məsələlərindən xəbərsiz qalmaq olmaz.

Bunlar hələlik bizim yadımıza düşənlərdir. Tələbə əzizlərə və tələbə birliklərinə çoxlu tövsiyələrim var, lakin vaxt ötüb.

**Mühüm vəzifələrə əməl etmək**

Mən siz əzizlər üçün dua edirəm. Bilin ki, universitetin sizin kimi fəal, müsəlman və mömin gənclərini ən azı hər gün bir dəfə dua edirəm və Allahdan sizə kömək, dəstək və hidayət istəyirəm. Siz də dua edin, Allahla əlaqənizi möhkəmləndirin, mühüm vəzifənizlə məşğul olun, nümayəndəlik orqanı ilə əlaqənizi günbəgün artırın. Ora çox həssas və mühüm mərkəzdir. Universitet rektorları ilə əlaqələrinizi də tənzimləyin. Heç zaman sizinlə universitet rəhbərləri arasında ziddiyyət, çəkişmə və dalaşma yaranmasına qoymayın. Meyar və əsas olan qanunlardır. Qanunlara tam əməl edin. Qanunlar inqilab təfəkkürünün tərənnümüdür. İnqilabın məqsədləri qanunlarda tərənnüm olunur.

Allah-Taala sizə kömək etsin!

Allah sizi, bizi və hamını hidayət etsin!

Bizim qəlblərimizi Öz xüsusi lütf və nəzəri ilə aydın və nurlu etsin!

İmam Mehdinin (ə) müqəddəs qəlbini bizim hamımızdan şad və razı etsin!

O həzrətin xeyir-dualarını bizə də şamil etsin!

Bizi Quran, inqilab və İslam dəyərlərinə, şəhidlərimizin, əzizlərimizin və böyük imamımızın keçdiyi yola daha da vəfalı etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## İslam təşkilatları - rəhbərin qolları[6]

Bismillahir-Rəhmanir-Rəhim.

**Məsuliyyət hissi**

Tələbələrin bir məsələyə dair məsuliyyət hiss etmələrinə və qəzetdə bəyanat yaymalarına sevindim. Mənim istədiyim budur. İstəyirəm ki, gənclər, xüsusən də tələbələr ölkənin və dünyanın cari məsələlərinə dair məsuliyyət hiss edib ciddi çalışsınlar.

**Daimi mübarizə**

Siz deyirsiniz ki, bu sözlərlə məni incitdiniz. Xeyr, təsadüfən sevindirdiniz. Çünki sizin bu məsələlərə qarşı ciddi

---

[6] Tehran Unviersiteti tələbələrinin İslam birliyinin üzvlərilə görüşdə çıxışı: 16 sentyabr 1997.

yanaşdığınızı görürəm. Təbii ki, əvvəldən bilirdim, təkcə bugünkü toplantıdan anlamadım. Lakin insan öz gözləri ilə müşahidə etdikdə daha artıq sevinir.

Həyatda həmişə mübarizə var; hətta cəmiyyət mübariz və inqilabçı olmasa da. Yəni həyatın xisləti keşməkeşlidir. Bu keşməkeş bəzən təbiətlədir, bəzən təbiət daxilindəki şər qüvvələrlə, bəzən xarici ünsürlərlə, bəzən hegemonizmlə, bəzən daxili şeytanla və nəfslə. Hər halda, həyat keşməkeşli və mübarizə yeridir.

**İnqilabçı cəmiyyətin təbiəti**

Cəmiyyət bizim cəmiyyətimiz kimi inqilabçı olduqda təbii ki, bu mübarizə daha sərtləşir. Nə üçün deyirik ki, inqilabçı cəmiyyət təbiətcə mübarizdir? Çünki fərz edirik ki, inqilab mövcud quruluşu ortadan götürüb. Təbii ki, bu, bir sıra düşmənlər yaradır. Dəyişiklik etmədən bir quruluşu

ortadan götürmək imkansızdır. Deməli, cəmiyyətdə əxlaqi, elmi və əməli dəyişiklik baş vermişdir. Və bunun bir sıra düşmənləri var.

### Düşmən və düşmənliklər

Bəli, siz bu gün bu düşmənlikləri yaxşı görürsünüz. Əgər kimsə başını öz işinə və tısbağa qınına salmasa, azca qaldırsa, bizim çoxlu düşmənlərimizin olduğunu görər; xaricdən də var, daxildən də, maraqları təhdid olunanlar da var, daxildəki istək və arzuları həyata keçməyənlər də, şəxsi tamahları, sərmayə, pul, sərvət, iyirmimərtəbəli binası olmayanlar da.

Bəzilərinin bu quruluşda yalnız şəxsi həvəsləri və cinsi hissləri doymadığından, pozğunluqlarını doyura bilmədiklərindən quruluşla düşməndirlər. Demək istəmirəm ki, çox və mühümdürlər. Demək istəyirəm ki,

bizimlə düşmənliklərin çoxluğu bu vəziyyəti yaratmışdır.

Xaricdə hegemonizm, sionizm, sionizmin varlığından qazanc götürənlər, İslam bölgəsinin mürtəce dövlətləri və sair qüvvələr var. İslam Respublikası quruluşu, bu quruluşu sevənlər və bütün xalqımız əleyhinə düşmənçiliklər var.

**Müharibə vəziyyəti**

Səhnə müharibə səhnəsidir. Bu məsələnin xırdalıqlarına varmaqda məqsədim budur ki, sizin zehninizdə doğrudan da döyüş səhnəsi canlansın, yumşaq yataqda yatmadığımıza, asfalt yolla hərəkət etmədiyimizə bütün vücudunuzla inanasınız. Biz müxtəlif dövlətlərin düşmənçiliyi ilə dolu bir yolla gedirik və müharibə vəziyyətindəyik.

**İslam birliyinin xüsusi rolu**

Tələbə təbəqəsinin, müsəlman tələbələrin və İslam birliyinin bu müharibədə xüsusi rolu var. Demək istəmirəm ki, ən üstün rol onunkudur, lakin hər halda, xüsusi rolu var. Buna görə, siz özünüzü yaxşı bir mübariz kimi yetişdirməlisiniz. Bu mənim bütün tələbələrə, xüsusən də buraya gəlib bu məsələni mənimlə müzakirə edən siz qardaş və bacılara əsas sözümdür.

**Müharibə qaydaları**

Yəni bir qüvvə kimi müharibəyə qoşulmalısınız. İnsan bəzən görür ki, düşmənin bombardmanı çox güclü və şiddətlidir. Bəzən hiss edir ki, axşama qədər iki kilometr geri çəkilməyə məcburdur. Bu zaman əvvəla, yalançı ümid ona üstün gəlməməli, ikincisi isə hiss etdiyimizi uca səslə deməməliyik.

Quran buyurur: "Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə dərhal onu

yayarlar."[7] Bu, cəmiyyətdəki mənfi qruplar barədədir. Onlara təhlükəsizlik, yaxud qorxu barədə bir söz çatdıqda yayır və şayiəyə zəmin yaradırlar. Bir əsgər müharibədə düşmənin bir iş görmək istədiyini hiss etdikdə onu öz komandirinə deyə bilər, lakin bu xəbəri yaymamalıdır. Çünki digərlərində ruh düşkünlüyü yaranar.

**Ümid ətri**

Deməli, birinci özündə, sonra isə digərlərində ümid yaratmaq və bundan əlavə, bir-birinə haqq və dözümlülüyü tövsiyə etmək. Təhlükə hiss etdikdə hərəkəti sürətləndirmək, səyi artırmaq, qüvvəni çoxaltmaq və döyüş yoldaşlarını daha artıq qorumaq lazımdır; yəni digərinin zəiflədiyini duyduqda ehtiyatlı olsun və onu qorusun.

---

[7] Nisa/83.

## Döyüş və ümid

Bunlar düşmənin təhlükəsini hiss edən zaman insanın diqqət yetirməli olduğu məsələlərdir. O, həm də güc toplamalıdır. Əgər lazım olsa, bu zəif cəhətləri düzəltmək üçün vaxt itirmədən özündən yuxarıya və lazım olan hər kəsə məlumat verməlidir.

Siz müharibə vəziyyətində olduğunuzu bilin. Və bu sizdə ümidi artırmalıdır. Ümidsizliyi əsla yaxın buraxmayın. Əgər ümidsizliyə uğramaq istəmirsinizsə, olanlara bədbin yanaşmamalısınız. Təbii ki, özümüzü də aldatmamalıyıq. Yəni reallığı görməyib əbəs yerə sevinməməliyik. Mən bunu əsla tövsiyə etmirəm. Lakin çalışın ki, həqiqət bizə və heç kəsə olduğundan acı və pis görünməsin. Bundan ehtiyatlı olun.

## Ümid tövsiyəsi

Mən görürəm ki, siz söhbət əsnasında tez-tez ümidli olduğunuzu vurğulayırsınız.

Bəli, bu, mütləq lazımdır. Bilirsiniz ki, mən bu məsələyə qarşı həssasam. Mən bəzən söhbətlərimdə də bunu təkrarlayır, xüsusi və kiçik toplantılarda da deyirəm. Sizə də bu tövsiyəni edirəm.

**Fikirləri qəbul etməyə hazır mühit**

Sizi elmi, duyğusal, yaxud siyasi təzyiqlər qarşısında qoyanlar tələbələrin neçə faizidir? Azdır. Siz deyə bilməzsiniz ki, tələbələrin hamısının bu hissi, bu problemi var. Deyə bilərsiniz ki, hamıda bu potensial var. Bəli, düzgündür. Çünki gənc mühiti müsbət, yaxud mənfi, qurucu, yaxud dağıdıcı fikirləri qəbul etməyə istedadlı və hazırlıqlı bir mühitdir. Real vəziyyətə gəlincə isə belə deyil.

**Gənc tələbə mühiti**

Tələbə mühiti gənc mühitdir. Düzdür, burada sizin işarə vurduğunuz düşüncə

problemlərinə düçar olan tələbə azlığı var. Onlar bunu ortaya ata, başqasını təsir altına sala bilərlər və ola bilsin, özünüz dediyiniz kimi, siz onları qane edə bilməyəsiniz.

**Hidayət**

Siz bu problemi aradan qaldırmağa çalışmalısınız. Yəni tələbə mühitində inqilabın təməllərinə qarşı şübhəyə düşmüş insanları hidayət etmək vəzifəsini hiss etməlisiniz. Bu məsələ rəhbərlik məsələsinə aid deyil, dini etiqadlara və İslamın prinsiplərinə aiddir.

Şayiə yayılır, söz danışılır, səhv və əsassız əsaslandırmalar edilir, müxtəlif cəhətlərdən - istər sinifdə, istər müxtəlif çıxışlarda və istər universitet xaricindəki mediada dini təməllərə hücumlar baş verir. Bunlar var. Mən bunlar haqda az-çox məlumatlıyam. Lakin bu, gənc, mömin və inqilabçı təbəqəni daha artıq fəaliyyətə vadar

etməlidir. Yəni durumun sizdən nə tələb etdiyini bilin və həmin sahədə fəaliyyətinizi artırın.

### Möhkəm təməllər

Məsələn, indi tələb olunan işlərdən biri budur ki, şübhənin sizə keçməməsi üçün siz öz elm və düşüncə təməllərinizi möhkəmləndirəsiniz. Bu şəraitdə sizə lazım olan, yəni mübarizənizin şərtlərindən sayılan məsələlərdən biri budur. Buna nail olun, heç kimi gözləməyin.

### Aparıcı insanlar və ümumi kütlə

Bu gün İslam cəmiyyətində ən vacib sandığım məsələlərdən biri sizin toxunduğunuz və mənim də dəfələrlə təkid göstərdiyim bu məqsədlərdir. Bunun qaynağı mənim bir çıxışda cəmiyyətin aparıcı insanlarına və ümumi kütləyə aid dediyim

məsələdir. Bu, tarixi faktlara söykənən bir fikirdir.

Mənim həmin bir saat yarımlıq çıxışım üçün, bəlkə bir neçə dəfə artıq tarixi fakt mövcuddur. Erkən İslam çağında baş verənlər bu çıxışda dediklərimə aiddir. Yəni haqq tərəfdarı olan aparıcı insanlar lazım olan vaxt öz vəzifələrinə əməl etmədilər. Ümumiyyətlə, hər bir şey buna qayıdır.

**Ümumi kütlə**

"Ümumi kütlə" dedikdə məqsəd ancaq savadsız və nadan insanlar deyil. Ümumi kütlə bu xüsusi məsələyə qarşı özəl həssaslığı olmayanlar, məsuliyyət hiss etməyənlər və lazımi dərkdən məhrum olanlardır. Ümumi kütlənin mənası budur. Ola bilsin, onlar başqa bir sahədə çox məlumatlı və məqsədli olsunlar, lakin bizim söhbətimizin mövzusu olan bu sahədə lazımi ayıqlıqları və

fəaliyyətləri olmadığından ümumi kütlədən sayılırlar.

**Aparıcı insanlar**

Aparıcı insanlar bunun əksidir. Bunların bəzisi haqq, bəzisi isə batil tərəfdarıdırlar. Yəni batil cinahda da aparıcı insanlar mövcuddur, amma biz onları mövzuya daxil etmirik. Onlar bizim söhbətimizə daxil deyillər. Bizim söhbətimiz haqq tərəfdarı olan aparıcı insanlardan gedir. Əgər siz haqq tərəfdarı olan aparıcı insanların hər hansı bir dövrdə din, iman, elm və mərifətlərinin hökm etdiyi kimi vəzifələrinə əməl etdiklərini, lazımi fəaliyyət göstərdiklərini görsəniz, bilin ki, heç bir faciə baş verməyəcək.

**Şüreyh Qazi**

Aparıcı insanlardan biri öz vəzifəsinə əməl etsə, ümumi kütlədən minlərlə insanı

düzgün istiqamətə sövq edə bilər. Məsələn, əgər Şüreyh Qazi Hani ibn Ürvənin Übeydullah ibn Ziyadın həbsxanasında döyüldüyünü, yaralandığını və ölümlə hədələndiyini gördükdə Übeydullahdan qorxmayıb - Übeydullah demişdi ki, xəbər versən, səni öldürəcəyəm - bunu xalqa desəydi, heç şübhəsiz, Kərbəla hadisəsi baş verməzdi.

**Tarixin gedişinin dəyişilməsi**

Demək istəyirəm ki, aparıcı bir insanın yerli qərarı tarixi dəyişdirə bilər. Oradakı cəmiyyət Şüreyhin sözü ilə qiyam edə bilərdi. Əlbəttə, bunun istisnaları da baş verə bilər. Mən istisnaları nəzərə almadan deyirəm. Übeydullah onda hələ güclənməmişdi, onu asanlıqla devirə bilərdilər. Əgər bu baş versəydi, Müslim ibn Əqil də öldürülməzdi, Kufənin və İraqın hakimiyyəti Əhli-beytin

əlinə keçərdi və o zaman Kərbəla hadisəsi baş verməzdi.

Düzdür, Allahın qəza və qədərinə əsasən, İmam Hüseyn (ə) nə zamansa şəhid olacaqdı. Amma o zaman və bu hadisədə olmayacaqdı.

**Aparıcı insanların qərarının təsiri**

Bəzən bir qərar belə olur. Erkən İslam çağında bu nümunələrdən çox tapmaq olar. Səqifə hadisəsi yolu zamanında dəyişəcək qərarlardan ola bilərdi. İmam Həsən Müctəbanın (ə) dövründə də belə aydın nümunələr var, Əmirəlmömininin dövründə də, Siffeyndə də, digər yerlərdə də. Kərbəlada və erkən İslam çağında da belə oldu, indi də belədir.

Siz haqq tərəfdarı olan aparıcılarsınız. Çox gözəl. İndi təhlükə hiss edirsiniz. Sizin duyduğunuz bu təhlükələrin, fərz edək ki, hamısı düzgündür. Bəli, mən əksəriyyətini

real hesab edirəm, inkar etmirəm. Mənimlə sizin fərqimiz budur ki, siz bunları ilk dəfədir görürsünüz, mən isə artıq neçənci dəfədir. Mən bu hadisələrin nə ilə nəticələnəcəyini bilirəm. Buna görə də, bu hadisələr qarşısında mühakiməm sizdən fərqli ola bilər. Təhlükələrin mövcudluğuna gəlincə isə, təxminən əksərində sizinlə razı və bu haqda məlumatlıyam.

**Düşüncənin gücləndirilməsi**

İndi aparıcı insanlar olan sizlər görün bu təhlükə qarşısında nə etməlisiniz. Bəli, işlərin biri budur ki, filankəsi (özünü nəzərdə tutur (müt.)) görüb ona deyəsiniz. Bu, baş tutdu. Lakin məsələ bununla bitmir. Hər biriniz məsuliyyət hiss etməlisiniz. Bu məsuliyyətlərin biri budur ki, özünüzü düşüncə baxımından gücləndirəsiniz. Düzdür, siz İslam birliyisiniz və bir İslam birliyi bir ruhani kimi bərk olmur. Nə vaxtsa

bir söz, bir hadisə, bir emosional, yaxud əqli amil ona təsir buraxa bilər.

### Ələ alınması mümkün olmayan insan

Bunun baş verməməsi üçün bir iş görün. Bu, ilk addımdır. Yəni indi buraya toplaşmış sizin hər biriniz ələ alınması mümkün olmayan insan olsanız, etiqad bəslədiyiniz düzgün istiqamətdə hərəkət etsəniz, siz 50 nəfər 50 min nəfərlik bir universiteti hansısa bir səmtə çəkə bilərsiniz.

Tehran Universitetinin təxminən 50 min tələbəsi var. Siz də təxminən 40-50 nəfərsiniz. Qeyd etdiyim müharibədə olduğu kimi lazımi şərtlərə yiyələnin. Belə olsa, təsir buraxa bilərsiniz. Bu təsir altı aydan, bir ildən sonra görünməyə bilər. Eybi yoxdur, beş ildən sonra görünsün.

### Təsirin rolu

50 nəfərin 50 min nəfərlə işləməsinin müəyyən mexanizmi var. Düzdür, şərait fərqlidir. Siz söhbətiniz əsnasında tərəf-müqabilin birliyinə işarə vurdunuz. Haradan bildiniz ki, onlar birdirlər? Nə bilirsiniz birdirlər? Xeyr, mən qəbul etmirəm. Sizin birliyiniz daha güclüdür.

Düzdür, sizin düşməniniz maddi baxımdan qüdrətlidir. Bu ölkədə zahirdə müxalif olmayan bir jurnalda çap olunan bir məqalə müəyyən xətt əsasında hərəkət edir. Siz ehtimal verin ki, bu, sərhədlərin xarici ilə əlaqədədir. Bunlar var, amma onların birliyinə dəlil deyil.

**Düşmənlərin daxili ixtilafları**

Siz bilin ki, bu gün İslam Respublikası qarşısında dayanan qruplar - dünyanın ABŞ, Yaponiya və Avropa kimi güclərindən tutmuş xaricdə oturan və hər birinin tərəfdarları olan əksinqilabçı ünsürlərə və

daxildəki bəzi qüvvələrə qədər hamısının arasında ixtilaf və təfriqə var. Bu ixtilaflar siz möminlərin öz aranızda hiss etdiyiniz uğunsuzluqlardan qat-qat artıqdır. Bunu bilin. Onlar bir olsaydılar, işləri daha yaxşı gedərdi, halbuki belə deyil. Universitetdə bir gəncin ayrı cür düşünməsi isə təbii məsələdir.

**Mədəni qarşıdurma**

Bir insan gəlib universitetdə qəşəng bir söz deyir. Bu söz əsaslandırma baxımından güclü olmasa da, gəncin təbiəti onu qəbul edir. Bizim eybimiz budur ki, onun qarşılığında belə xüsusiyyətlərə malik olan bir natiq göndərmirik ki, gedib düzgün söz danışsın. Bu zaman hamı ona sarı yönələr. Problem budur. Siz elə bilməyin ki, qarşı tərəf möcüzə edir və bu möcüzə gəncləri məhvə aparır. Xeyr, natiqlik sənəti belədir.

## Tələbənin təbiəti

Mənim tələbələrlə əlaqəm çox olub. Tələbə təbiətcə yeni sözü qəbul edəndir; çünki yeniliyə həvəslidir. O həm də elm adamıdır. Elm adamı olmaq insanı yeni əsaslandırmaya və yeni sözə sövq edir. O, xüsusən inqilab mühitində bu əsaslandırmaya yönəlir. Ümumiyyətlə, inqilab mühitində, hətta əks-inqilabçı mühitdə də belədir. O, yenilik, dəyişiklik istəyir. Buna görə də, bir nəfər gəlib yeni bir söz danışanda, düzgün və ya səhv bir fəlsəfi termin işlədəndə, 50 il bundan əvvəl Avropada kitabı yazılmış, sonra ona qarşı 10 kitab yazılmış köhnə bir nəzəriyyəni ortaya atanda, ifadə qəşəng, söz gözəl və cəlbedici, bir qədər də yeni və rəsmi təbliğatın əksinə olanda tələbəni cəlb edir.

## Rəsmi təbliğat problemi

Rəsmi təbliğat məsələsi də bir problemdir. Bizim problemlərimizin bir hissəsini bu gün dinin, dini tələblərin hakimiyyətdə olması təşkil edir. Təbii olaraq hakimiyyət qarşısında bir qədər imtina mövcuddur. Çarə yoxdur. Əmirəlmömininin hakimiyyətində də belə idi. Hakimiyyətin xisləti elədir ki, ona qarşı bir qədər rəğbətsizlik mövcud olur. Düzdür, İslam Respublikasına qarşı rəğbətsizlik başqa hakimiyyətlərə qarşı rəğbətsizlikdən qat-qat azdır. Hətta demokratiya iddiasında olan, prezidentlərini çox uca tutan, təəssübkeşliklə müdafiə edən hökumətlərə qarşı rəğbətsizlik də İslam Respublikasına qarşı rəğbətsizlikdən qat-qat artıqdır.

**Haqq cəbhəsi**

Bunların hamısının nəticəsində gənc bir düşüncəyə yönəlir. Çox gözəl, siz gəlin haqq cəbhəsinə deyin ki, mən bu işlə daha çox

məşğul olmalıyam. Bəlkə sizdən də çox mənim borcumdur ki, gənc üçün məqbul bir düşüncə və təbliğat sahəsini universitetə yönəldim. Əgər çoxlarını doğru yola gətirməsə, o zaman universitetdən və özümdən gileylənim ki, nə üçün belə oldu.

Baxın, mən belə düşünürəm və bu düşüncənin arxasında 30-35 il təcrübə dayanır. Mən özüm bu məsələ ilə qarşı-qarşıya qalmışam. Sizin yadınızda deyil. Bu gün bəzi inqilabçı fikir və təmayüllər məzəmmət olunduğu qədər bir zamanlar ölkəmizdə İslam təmayülləri, hətta onun inqilabçı növü məzəmmət olunurdu. Düzdür, onlar məxfi idilər, lakin elə məxfi olmaları onlara kömək edirdi.

### Cəlbedici və məntiqli söz

Dəqiq yadımda deyil, 72-73-cü illərdə baş verən 2-3 hadisəyə görə qəti şəkildə bu nəticəyə gəldim ki, rejim kommunistlərin

təbliğat kitablarını, xüsusən də çox da rejim əleyhinə olmayan və yalnız elmi məsələləri və dinə qarşı mövzuları ehtiva edən kitablarını yayır. O zaman heç kim buna inanmırdı. Mən gördüklərimdən bu nəticəyə gəlmişdim.

İnqilabdan sonra da belə idi. Mən əvvəllərdə iki dəfə Gilan Universitetinə getdim. Universitetlər hələ tətil edilməmişdi. O zaman bəzi qruplar universitetləri tam ələ keçirmişdilər. Sizin yadınızda olar, yaxud da eşitmisiniz ki, bu Tehran Universitetində solçu qruplaşmalar yerləşmişdilər, otaqları var idi. Başqa bir neçə universitetə də girmişdilər. Mənim getdiyim iki universitetdə - Gilan və Zahidan universitetlərində inqilabçı uşaqlar qoymadılar, dedilər ki, təhlükə var, siz getməyin.

Çıxış üçün dəvət olunmuşdum. Lakin universitetə getmək təhlükəli idi. Bir qrup

zala toplaşıb pis və sərt şüarlar verirdilər. Orada müsəlman uşaqlar da vardı, amma onlar çoxluq təşkil edirdilər; ən azı iddia və sözləri üstün gəlirdi. Dedim ki, yox, mən elə bunun üçün gəlmişəm, getməsəm olmaz.

O zaman İnqilab Şurasının üzvü və imamın Müdafiə Nazirliyində nümayəndəsi idim. İnqilabın birinci ili idi. O gün məni belə çəkindirdilər, amma mən də bir hövzə tələbəsi olduğumu bildirib dedim ki, xeyr, gedirəm. Bu, hər iki yerdə bizim dostlarımızın təəccübünə səbəb oldu.

Gənclərə deyiləsi və onlar üçün məqbul olacaq sözlərim vardı; hətta qruplaşmalarda olan inadkar gənclərə də. İş elə alındı ki, onlar danışa bilmədilər və mən universitetin zalından qələbə ilə çıxdım.

**Haqq sözün dəyərləndirilməsi**

Universitet belədir. Biz bu işi görməliyik. Demirəm ki, gedin çıxış edin,

lakin bu işi yüksək dəyərləndirin. Məqalə yazılıb universitetdə yayılsın, söz deyilsin. Bu gün irad tutulan bütün məsələlərdə deyiləsi sözlər var; sırf düşüncə məsələlərindən, nəzəri məsələlərdən tutmuş praktik və real məsələlərə, sizin dediyiniz rəhbərliyə aid məsələlərə qədər.

**Siyasətlər**

Misal üçün, televiziya və radio məsələlərini fərz edin. İndi rəhbəri teleradio şirkətinin prezidenti kimi təqdim etmək istəyirlər. Deyirlər ki, rəhbər ölkənin idarəçisidir, Ali Məhkəmənin rəisi də rəhbərdir, çünki o təyin edir; konstitusiyaya uyğun olaraq, prezidenti də rəhbər təyin edir. Demək istəyirlər ki, bu işi də rəhbər yönəldir. Xeyr, rəhbər yalnız ümumi siyasətləri təyin edir.

**Uğur və uğursuzluq**

Əlbəttə, mən bir qədər irəli də gedirəm. Əgər doğrudan da ehtiyac hiss etsəm, bəzən ölkə məmurlarının işinə qarışıram. Lakin bunlar əslində, rəhbərin vəzifələrindən deyil. Rəhbər siyasətləri təyin edir, məmurlar da icra edirlər. Hər bir uğur siyasətlərə, hər bir uğursuzluq da icraçıların pis işləməsinə aiddir.

**Uğurlu siyasətlər**

Nə üçün? Çünki icraçıların özləri o siyasətləri bəyənirlər. Əgər siyasətlər uğursuzluğa səbəb olsaydı, onlarla fəxr etməzdilər. Bu siyasətlər rəhbər tərəfindən irəli sürülür və icrasına təkid göstərilir. Lakin icrada pis işləndikdə, acı və xoşagəlməz nəticələr qarşıya çıxır.

Rəhbərin mənası bu deyil ki, mən universitetə gedim. Əlbəttə, universitetə də gedirəm. Bu bir neçə ildə unviersitetə getmədiyimə görə həmişə özümü narahat

hiss etmişəm. İnşallah, birinci sizin universitetinizə gedəcəyəm.

### Rəhbərin missiyası

Mən tələbə mühitini və universiteti sevirəm, orada yorğunluq hiss etmirəm. Lakin demək istəyirəm, rəhbərdən gözlənilən bu deyil ki, bir neçə tələbə gəlib suallarını versinlər, o da cavablasın və yol göstərsin. Xeyr, rəhbər düşüncə baxımından elə şərait yaratmalıdır ki, bu işlər görülsün. Bu da qısamüddətli deyil, uzunmüddətli işdir.

Xoşbəxtlikdən, bu işlər də görülüb, lakin problem və çatışmazlıqlar var. Bəzi ruhani dostların belə işlərə lazımi hazırlıqları yoxdur. Ola bilsin, başqa yerlərə daha hazırlıqlı olsunlar. Bəzilərinin də Allaha şükür olsun ki, hazırlıqları var.

### Rəhbərin qolu

Siz İslam birliyisiniz. İslam birlikləri həmişə rəhbərin qolu kimi işləyib. İnqilabın əvvəlindən indiyədək belə olub, indi də belə olun. Siz bu işi görün. Bu sizin vəzifənizdir. Yəni əslində, rəhbərin bu məqsədlə durub universitetə getməsinə ehtiyac yoxdur. Bu iş siz gənclərin əli ilə həll olunur və həll olunmalıdır. Siz iradə göstərin, işə atılın və səhnəni idarə edin.

**İradə, hərəkət və qələbə**

Meydan sizindir. Mən həmişə gənclərə deyirəm ki, Quran İsrail övladlarına Beytülmüqəddəs barədə belə buyurulur: "Əgər girsəniz, mütləq qələbə çalarsanız".[8] İsrail övladlarına dedi ki, bu nəhənglərin (Əmaliqənin) şəhərdə olmasına baxmayın. İsrail övladları şəhərə girməyə qorxurdular. Dedi ki, siz daxil olsanız, qələbə çalacaqsanız.

---

[8] Maidə/23.

Bu, çox əhəmiyyətli məsələdir. Yəni siz iradə göstərib hərəkət etsəniz, qələbəyə zəmanət verilir.

**Əsas təhlükə**

Mənim qorxum budur ki, bizim yaxşı uşaqlarımız, universitetin aparıcı tələbələri vəziyyəti ayrı cür görüb ruhdan düşsünlər. Bu, mühüm və real təhlükədir. Çünki tələbə uşaqlarda, universitetin mömin qüvvələrində faəliyyət həvəsi olmasa, bizim heç bir şeyimiz qalmaz.

Sizdə fəaliyyətə həvəs olsun, meydana atılın, qələbə sizinlədir. Ayrı cür ola da bilməz. Düzdür, ötən illərdə tələbə mühitlərində, İslam birliklərində bəzi nöqsanlar olub. Bunlar başqalarına aid deyil, tələbə və birliklərin özlərinə aiddir.

Siz mənim övladlarım kimisiniz. Mən sizdən razıyam. Bu bir neçə ilə baxdıqda sizdə mənfi bir cəhət görmədim, hamısı yaxşı

olub. Nümunəsi işarə vurduğum bu bəyanatdır. Əvvəllər də öz mövqeyinizdə yaxşı olmusunuz. Sizləri demək istəmirəm, ümumi olaraq, İslam birlikləri bəzi qüsurlara yol veriblər.

Görünüb ki, bir universitetin İslam birliyi siyasi baxımdan özünə müxalif bir cinahı vurmaq üçün nəinki qeyri-inqilabçı, hətta inqilabla düşmən bir ünsürlə birləşib; onunla yola getmir, amma bununla yola gedir.

Baxın, inqilab və İslam mühitlərini lazımi qüvvə və həvəsdən salan bunlardır. Əgər həvəs və qüvvə olsa, başqa cəhətlərdən heç bir nigaranlıq yoxdur. Allaha şükür olsun ki, bütün mövcud problemlərə rəğmən, mömin insanlarda bu həvəsi hiss edirəm.

Seçkilərdən sonra siz mənim yanıma gələndə dedim ki, dünyanın siyasi analitikləri son prezident seçkilərində gənclərin əksəriyyətinin səs verdiyini

deyirlər. Doğru da deyirlər. Bu seçkilərdə gənclər mühim rol ifa etdilər.

Sonra əlavə edirlər ki, gənclər dəyişiklik istəyirlər. Bu söz də doğrudur. Lakin bu dəyişiklik nədir? Onu özləri təyin edirlər. Başlayırlar İslam Respublikasında dəyişilməsini istədiklərini gənclərə öyrətməyə. Düzdür, üç-dörd nəfər nərmə-nazik rep gənci onların dediyi kimidir. Lakin bunu bütün gənc nəslə aid etmək olmaz.

Mən bir az əvvəl Tehran Universitetinin İslam birliyindən gəlmiş qardaşlara dedim ki, siz gəncsiniz, bu seçkilərdə səs vermiş və haqlı olaraq, dəyişiklik istəyən gənclər sizlərsiniz. İndi gedin və necə dəyişiklik istədiyinizi deyin.

**Dəyişiklik fəryadı**

Bu, mühüm məqamdır. Yəni müsəlman və inqilabçı bir gənc tələbə ehtiyacı olduğu dəyişikliyi ucadan desin. Desin ki, mən bu

dəyişikliyi istəyirəm. Qoy onların ağzı yumulsun. İşarə vurduğum çox kiçik bir azlığın meydanı ələ almasına imkan verməyin. Onlarda təhlükəyə atılmaq yoxdur. Buna görə də mübarizə apara bilməzlər. Əvvəllər dar şalvar, indi isə enli şalvar. Onlar mübarizə adamı deyillər, təhlükəni gözə alıb yeni mübarizə meydanlarına daxil olmazlar. Onlar əyyaş və əhli-kefdirlər, cəmiyyətdə istənilən dəyişikliyi təyin etməyə haqları çatmır.

**Gəncin dəyişiklik istəyi**

Amerika radiosu, BBC, İsrail radiosu, Assoşited Press, Yunayted Press və digər beynəlxalq media şəbəkələri gücsüz və zəlil bir azlığın dilindən danışır, bunu ölkənin bütün gənclərinə aid edirlər. Bizdə 30 milyon gənc var. Siz bu 30 milyonun ən yaxşılarısınız. Siz gedin və nə istədiyinizi deyin. Bunlar mühümdür. Universitet gənci

desin ki, bəli, biz dəyişiklik istəyirik; biz istəyirik ki, bu bir neçə ildə inkişaf adı altında İslam dəyərlərinin ziddinə görülmüş bütün işlər İslam dəyərlərinə yönəldilsin və inkişafı bu yolla əldə edək. İslamçı bir gəncin istədiyi dəyişiklik inqilab prinsiplərini və İslam ucalığını dirçəltməkdir.

Mən bu bir neçə gündə bizim cari məsələmiz olan Avropa hadisələrinə görə çox ehtiyatlıyam ki, kimdənsə bir səhv baş verməsin. Halbuki səfirlər məsələsi çox xırda bir məsələdir. Bu, İslam Respublikasının ümumi siyasətini, qüdrətli hərəkətini sarsıda bilməz. Lakin bu ərəfədə bir nəfərin belə dediyi söylənilir: "İslam Respublikasının inqilabçı qüruru daha bitmişdir".

**İzzət və iqtidar**

Nə üçün? Çünki üçüncü dərəcəli bir adam deyib ki, səfirlər qayıtmaq istəsələr, problem yoxdur. Əslində, heç belə də

deməyib, onlar belə başa düşüblər. Dərhal sevindilər ki, inqilab qüruru bitdi. Biz deyirik inqilab izzəti, onlar isə deyirlər inqilab qüruru. Görün nə qədər əhəmiyyətlidir: siz elə bir mövqedə olasınız ki, danışanda izzət və başucalığı duyulsun. Bizim inqilabçı qüvvələrimizin sözlərində əsla zəiflik hissi olmamalıdır. Sözlərinizdən, rəftarlarınızdan və seçdiyiniz mövqelərdən başucalığı və iqtidarınız duyulmalıdır.

**Hüzurun bərəkəti**

Yalançı və xəyali yox, real qüdrətiniz olsun. Məncə, bu, mümkündür.

Bilin ki, ölkənin ümumi idarəsində rəhbərin fəal rolu olmasaydı, vəziyyət gördüyünüz kimi deyil, çox pis olardı. Lakin rəhbərin rolunun da xüsusi mənası var. Bu bəlkə də çoxları üçün başadüşülən deyil. Məsələn, kimsə "iş" sözünü eşidəndə, təsəvvüründə mütaliədən qabaq bel vurmaq

canlanır. Maddi və fiziki olmayan zərif işlər adətən, gec yada düşür.

Rəhbərin rolu vəsfəgəlməzdir, məmurların əksəriyyətinin və müəyyən mənada, hamısının rolundan güclü, mühüm və dəfələrlə əhatəlidir.

**İmam və rəhbərin rolu**

İmamın mənəvi şəxsiyyəti mənimlə və mənim kimilərlə müqayisəedilləsi deyildi, olduqca yüksək idi. Lakin imamın əməli rolu o zaman bugünkündən dəfələrlə az idi. Mən konstitusiyanın istədiyi və dediyi rolu nəzərdə tuturam. Bu baxımdan, nigaran olmayın ki, rəhbərin rolu görünmür. Bu, yetərincə mövcuddur.

Əlbəttə, bu rol sizin istədiyiniz başqa məsələlərlə yanaşı ola bilər. Fərz edin, tələbələrlə, yaxud hansısa təbəqə ilə daha sıx əlaqə olsun. Yaxud rəhbərə bağlı hansısa orqanda, təşkilatda hansısa dəyişiklik baş

versin və ya verməsin. Bunlar xırda məsələlər olsa da, bəzən daha artıq gözə gəlir.

İnşallah, müvəffəq olasınız. Allah sizi İslam, inqilab və bu ölkənin gələcəyi üçün qorusun! Həm təhlükələrdən qorusun, həm də ölkə düşmənlərinin azdırıcı işlərindən! Pak və nurlu qəlblərinizi Öz nuru ilə daha da nurlandırsın və sizi ölkəni idarə etməyə hazırlasın! O zaman vəziyyət indikindən qat-qat yaxşı olacaq. Çünki sizlər inqilab uşaqlarısınız. Allah sizi qorusun ki, bu dövrdən özünüzü sağlam çıxarıb sizi gözləyən ağır yükə hazır ola və onu çiyninizə götürməyi bacarasınız!

Allah amanında!

## Universitetdə ruhani fəaliyyətinin şərtləri[9]

Bismillahir-Rəhmanir-Rəhim.

Allaha şükür edirik ki, Onun lütfü ilə həm elmə və dini bilgilərə, həm də əksərən gənclik qüvvəsinə malik olan din alimləri, dəyərli insanlar ölkə universitetlərində fəaliyyətlə məşğuldurlar. Mən keçmişdə belə bir qrup az müşahidə etmişəm. Bunun üçün Allah-Taalaya şükür etməli və bu işlə məşğul olan əziz qardaşlara səmimi təşəkkürümüzü bildirməliyik; cənab Cənnətiyə, cənab Sədrə və Allahın lütfü ilə bu işlə məşğul olan digər qardaşlara.

---

[9] Fəqih rəhbərin universitetlərdəki nümayəndəlik orqanının əməkdaşları ilə görüşdə çıxışı: 8 oktyabr 1997.

## Tövhid elmi və dini bilgilər

Siz əziz qardaşlara da deyirəm ki, universitetlərdə işləmək çox əhəmiyyətlidir. Çünki biz ruhanilər çiynimizdə olan ilahi missiyanı çatdırmaq üçün dinləyici axtarırıq. Əgər dinləyici olmasa, ruhaninin mənası olmaz. Hər halda, "Alimlər peyğəmbərlərin varisləridir"[10] fikri bütün dini anlayışlarda yayılmış qəti fikirdir. Bəllidir ki, İslam təlimlərində təkid göstərilən elm tövhid elmi və dini bilgilərdir. Onu təbliğ etmək, ona əməl etmək çox əhəmiyyətli, onu əldə etmək çox dəyərlidir.

## Təsirli təbliğat

Deməli, əsas məsələ bundan ibarətdir ki, aşağı səviyyədə bizim öhdəmizə düşən bu missiyanı, bu peyğəmbərliyi həyata keçirək,

---

[10] "Bəsair əd-dərəcat", səh. 10.

yəni öz tərəf-müqabillərimizə çatdıraq. Bəli, ümmətlər müxtəlifdir. Peyğəmbərlərin dinləyiciləri və tərəf-müqabilləri müxtəlif olmuşlar. Onların ən yaxşıları gənclərdir. Sizin təbliğatınız 30, 40, 50 il öz təsirini göstərəcək. Yəni söhbət bundan gedir ki, biz elmi 50 il istifadə edəcək bir adama öyrədək, yoxsa qısa müddət istifadə edəcək adama.

**Gəncliyin üstünlükləri**

Gənclik həm bu baxımdan, yəni uzunmüddətli fəaliyyət imkanı baxımından bir imtiyazdır, həm də yaxşı qavramaq və zehninin bizim öyrətdiyimiz əsasında formalaşması baxımından. Gəncdə bu ikinci üstünlük də mövcuddur.

**Gəncin haqqı qəbul etməsi**

Üçüncü üstünlük budur ki, gənc haqqı qəbul edəndir. İlk mərhələdə bütün gənclər belə fərz olunur. Gənc deyilənlərə öyrənmək

və əməl etmək üçün qulaq asır. Bunun bəzi istisnaları da mövcuddur, lakin normalda gənc belədir, qəbul və əməl etməyə hazırdır.

### Mərifət əhli

Sizin dinləyicilərinizin gəncliyə aid bu üç imtiyazdan əlavə, bir üstünlükləri də var. O da budur ki, onlar savadlıdırlar. Bu baxımdan, bir şeyi başa salmaq üçün insanın çətinlik çəkdiyi və mətləbi düzgün dərk edə bilməyən insandan üstündürlər. Bu da dördüncü imtiyazdır.

### Ən yaxşı dinləyici

Beşinci imtiyaz budur ki, ölkənin gələcəyi onun əlindədir. Siz bütün dinləyiciləri kateqoriyalara bölsəniz, onların ən yaxşısı və ən üstünü universitetlərdə sizin qarşılaşdığınız dinləyicilər olar: gənc, savadlı, elm adamı, perspektivli və ölkənin

gələcəyində təsirli. Görün nə qədər mühümdür.

**Yaxşı tribuna**

Bunları bilmək vacibdir. Bu tribunanı əldən verməyin, bunun qədrini bilin. Əgər bu işin başqa bir işlə ziddiyyət təşkil etdiyini görsəniz, başqa işi buna görə saxlayın. Amma bundan da mühüm olsa, onda heç. Əks təqdirdə, bunu çox uca tutun, vaxt sərf edin, işə getmək üçün özünüzü hazırlayın, mütaliə edin, fikirləşin.

**Ruhani universitetdə**

Bəllidir ki, ruhaninin belə bir mühitdə olması zəruridir. Bizim universitetlərimizin sizin kimi elmli ruhanilərə ehtiyacı var. Bu universitetlərə getmək istəyən, getməli olan ruhani mütləq bəzi xüsusiyyətlərə yiyələnməlidir. Allaha şükür olsun ki, bəzilərinizdə bir qədər az, bəzilərinizdə bir

qədər çox olmaq şərtilə, bu xüsusiyyətlər sizdə mövcuddur.

### Elm və bilgi xüsusiyyəti

Bir xüsusiyyət elm xüsusiyyətidir. Tərəf-müqabilinizin ehtiyacı qədərincə əlidolu getməlisiniz. İnsanın yüksək səviyyədə bacarığı olmayınca, aşağı səviyyədə olanı yüksəldə bilməz. Siz kimi yuxarıya çəkmək istəsəniz, öz sinənizə qədər çəkə bilərsiniz.

### Qarşı tərəfin haqqı

Buna əsasən, insan öz elmi səviyyə və bacarığını yüksəltməlidir ki, yuxarıya çəkə bilsin. Qarşı tərəfi kiçik görmək, sualını dəyərsiz, ehtiyacını səviyyəsiz və özünü az tələbatlı güman etmək olmaz. Kim tərəf-müqabili ilə belə rəftar etsə, məğlub olar, ünsiyyət və təsir işində uğur qazana bilməz. Qarşı tərəfin haqqını vermək lazımdır. Onu

diqqətə haqlı və layiq bilin və bu əsasla rəftar edin.

**Həqiqi ruhani**

Buna əsasən, ilk şərt budur ki, insan universitetə elmi baxımdan əlidolu getsin. Allaha şükür olsun ki, bu var, sizin hamınız alimsiniz. İkinci məsələ budur ki, tələbə sizin ruhaniliyinizə inansın. Ruhanilik də təkcə geyimlə deyil. Çoxlu geyim sahibləri həqiqi ruhani deyillər və ruhani paltarı geyinməyənlərdən çoxları əsl ruhanidirlər. Ruhani olmaq lazımdır; ruhla və mənəviyyatla işləyən adam.

**Ürəkdən danışmaq**

Söz ürəkdən gəlməlidir. Əgər zahiri, formal və yalnız dildən olsa, təsir buraxmayacaq, qulaqlardan o tərəfə

keçməyəcək.[11] Belədir. Ürəkdən gəlməlidir. Bu da imandan, mənəviyyatdan və ruhanilikdən asılıdır. Bunu gücləndirmək olar. Nə zaman bu sahədə vəziyyət çətinləşsə, Allah zikrinin tükənməz ehtiyatına sığınmaq lazımdır: namaza, müstəhəb işlərə, Allaha, zikrə, duaya. Bunlar insana kömək edir.

**Pak söz**

Əgər sözünüzdən sızan bu pakedici yağışın doğrudan da pak olmasını, ürək və beyin çirkinliklərini təmizləməsini istəyirsinizsə, onu saflaşdırın. Mən dəfələrlə Mövləvinin dilindən bu sözü demişəm. O deyir: "Dünya suları bütün çirkinlikləri təmizləyir, bütün murdarlar su ilə pak olur. Amma suyun özü dəyişir və çirklənir. Bu su yenidən öz paklığını əldə etmək üçün yüksəlir, buxar formasında yuxarıya qalxır

---

[11] "Təvil əd-dəaim", c. 1, səh. 81.

və sonra yağış (pakedici su[12]) şəklində qayıdır”.

**Paklıq yolu**

Bir merac və yüksəlmə lazımdır. İnsan bununla yenidən öz paklığını əldə edib pakedici ola, sonra tərəf-müqabilinin beyninə, ürəyinə və düşüncəsinə daxil olub onu paklaya bilər. Əks təqdirdə, bulanıq su pakedici ola bilməz.

Allah zikrinə sığınmaq, Allahı yada salmaq, Ona yalvarmaq, ehtiyacını bildirmək və Ondan hidayət diləmək bunu təmin edir. Bu baxımdan, insanın heç bir problemi yoxdur. Allahın bu lütf və mərhəmət ehtiyatı həmişə insanın ixtiyarındadır. Bu, iki xüsusiyyət.

**Qüdrətli yumşaqlıq**

---

[12] Bax: Furqan/48.

Üçüncü xüsusiyyət də əxlaqdır; necə deyərlər, davranış ağlı: "Əgər qaba, daşürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər"[13]. Rəftarda mehriban olmaq lazımdır; lakin zəiflikdən uzaq mehribanlıq və qüdrətli yumşaqlıq. İnsan o qədər yumşaq olmamalıdır ki, xoş üz göstərmək və qarşı tərəfi razı salmaq üçün nə desələr, qəbul etsin.

Xeyr, bu, yumşaqlıq deyil, zəiflikdir. İnsan qətiyyəti yumşaqlıqla birləşdirməlidir. Su damcıları daşın üzərinə düşüb iz saldığı kimi, o da öz təbii yumşaqlığı ilə bu daşın üzərinə o qədər damır ki, onda çuxur yaradır. Yumşaqlıq belə olmalıdır. Onlarla yumşaq, mehriban rəftar edin.

## Tələbə övlad kimi

---

[13] Ali-İmran/159.

Tələbələr sizin övladlarınız kimidirlər, onlarla övladınız kimi rəftar edin. İnsan bəzən öz övladından da səhv görür, bəzən əsəbiləşir, lakin bu əsəbilik onu kobud rəftara sövq etmir. Belə olmalıdır. Onları öz övladlarınız bilməlisiniz. Düzdür, övladlar bəzən eyni olmur; insan bir övladından çox razıdır, bir övladından isə o qədər də yox.

**İslam mühitində gəncin təbiəti**

Tələbə mühitində müşahidə etdiyiniz yaxşı, ürəkaçan və gözəl əlamətlər gəncliyin təbiətindəndir. İndi ölkədə bir milyona yaxın tələbəmiz var. Biz bilməliyik ki, bu tələbələrin böyük əksəriyyəti öz mömin gənclərimizdirlər; haqqı qəbul edən mömin və pak uşaqlar.

**Ağıllı rəftar**

Bəli, onların arasında haradasa valideynin razılığını çox da qazanmayan

uşaqlar da var. Onlarla da ağıllı rəftar etmək lazımdır. Bilin ki, düşmən universitet işində çox aktivdir. Tərəf-müqabilinizin əhəmiyyətinə dair dediyim xüsusiyyətlər düşmənlərin təhlillərində də mövcuddur.

**Yaxın gələcəkdə**

Şübhəm yoxdur ki, yaxın gələcəkdə casus orqanlarının məxfi sənədləri arasında - bu sənədlər necə olsa, bir gün yayılacaq - düşmənin bizim universitetlərimizdə necə işlədiyini, hansı universitetdə hansı iş apardığını görəcək və oxuyacaqsınız.

**Fəal düşmən**

İndi belədir. Onlar işləyir, fəaliyyət göstərirlər. Düşmən çox fəaldır. O, universitetlərin həm bu gün, həm də gələcək üçün əhəmiyyətini dərk edir. Universitet belədir. Universitet həm indi üçün mühüm təsirə malikdir, həm də gələcək üçün.

**Ölkənin gələcəyini quran**

Dedik ki, tələbə ölkənin gələcəyini qurandır. İndi də belədir. Tələbə gənc ailəsi, ətraf mühiti və cəmiyyəti üzərində təsir buraxır. Onun təsiri çoxdur.

**Düşmən və universitet**

Mənim əzizlərim! İslamın və İslam Respublikasının düşmənləri universitetə böyük ümid bəsləyirlər. Onlar belə həssas mövqeli ölkəni, belə böyük mədəniyyətə sahib xalqı və bu qədər zəngin sərvətə malik torpağı onların əlindən və təsir dairəsindən çıxaran hər şeyə qəzəblidirlər.

**Xalqı və onun sərvətlərini qorumaq**

İslam Respublikası ölkəni, xalqı, mədəniyyəti, ehtiyatları, imkanları və bu mühüm strateji mövqeyi İslam düşmənlərindən, ABŞ-dan qorumaq üçün

qurulub. Bu gün görürlər ki, dünyada hegemonizmə qarşı ən çəkinməz mövqe, amerikalıların təkqütblü dünya düzəninə qarşı ən güclü səs İslam Respublikasınındır.

### İstiqlaliyyət əlaməti

Bu gün Avropa və ABŞ arasında iqtisadi qarşıdurma və çəkişmələri müşahidə edir, İranın rolunun nə qədər əhəmiyyətli olduğunu görürsünüz. Bu, güman və şüarçılıq deyil, ölkənin və dünyanın cari məsələlərilə birbaş əlaqədən irəli gələn informasiyadır. Bu gün məsələn, ABŞ-a öz müstəqilliyini göstərmək istəyən ölkələrin ən yaxın yollarından biri İranla əlaqədir. İranla əlaqələrin və alış-verişin özü istiqlaliyyət əlamətidir.

### Beynəlxalq imic

Fərz edin, bir ölkədə hökumət öz xalqının qayğıkeş təbəqələri tərəfindən

ittiham olunur ki, məsələn, ABŞ-ın, yaxud filan supergücün diktəsini qəbul edirsiniz. Bu zaman həmin ölkə öz xalqına bunun əksini göstərmək üçün İslam Respublikası ilə açıq dostluq əlaqələri yaradır. Bu gün dünyada belədir. Mən adlarını çəkmək istəmirəm, hətta böyük ölkələr də indi belə olub. Bu, İslam Respublikasının mövqeyini göstərir. Belə bir güclü, qorxmaz, qüdrətli və qürurlu mövqe İran xalqı və İslam Respublikası üçün fəxrdir.

**Düşmənin səddi**

Bəli, bu, buranı çəkinmədən çapıb-talayanlara çox ağırdır. Bununla mübarizə aparmağa çalışırlar. Onlar əsas maneə hesab etdikləri ilə mübarizə aparırlar: ruhanilərlə, dinlə, dinin ölkə məsələlərində hakim mövqeyi ilə. Onlar əsas nöqtələri seçir və sonra dəqiq elmi mübarizələrə başlayırlar. Bu

mübarizə sahələrindən biri də sizin çalışdığınız universitetlərdir.

**Düşmənin nüfuzu**

Bunu deməkdə məqsədim odur ki, sizin ayıq, ağıllı, dəqiq və planlı işinizin nə qədər böyük olduğunu biləsiniz. Düzdür, qeyd etdiyim kimi, xoşbəxtlikdən, universitet ümumilikdə yaxşı mühitdir, gənclər mömindirlər, dini və islami meyllərə çox bağlı uşaqlar var. Bəzi təşkilatlar, məsələn, İslam birlikləri düşmənlərin diqqət mərkəzindədir. İnqilabın əvvəlində olduğu kimi, onların bəzilərinə nüfuz ediblər.

İnqilabın əvvəllərində düşmən İslam birliklərinin universitetdə, zavodda və başqa yerlərdə çox aktiv olduğunu görüb öz adamlarını həmin birliklərə yeritdilər. Biz 1979-1980-ci illərdə belə bir dövr yaşadıq. O zaman İslam birlikləri zəif idilər. Onların içinə nüfuz etdilər. Sonra həmin birliklərin

yarandığı orqanın əməkdaşları ayıqlıq göstərdilər, həssas oldular və yad ünsürləri təmizlədilər.

**Tanımaq və təmizləmək**

İndi də elə olacaq və olmalıdır. Bəzi universitet birlikləri insafla desək, yaxşı, ixlaslı və İslam birliyi adına uyğundurlar. Bəzi yerlərdə isə xeyr, İslam birliklərinin divarı zəif olmuş və onlar yol tapmışlar. Tələbə təbəqəsinin özü - bu daha sizin işiniz deyil, tələbələrin özlərinin işidir - onları tanıyacaq və birlikləri təmizləyəcək. Çünki hər halda, düşmənə işləyən şəxs, yaxud təşkilat uzun müddət pərdələnə bilməz.

**Açıq şəkildə və alimcəsinə**

Sizin üçün başqa bir vacib məsələ açıq, şəffaf, ağıllı, ayıq və alim mövqeyə malik olmaqdır. Dini və bəzən lazım olduqda siyasi məsələlərdə mövqelər tam aydın, əsaslı və

güclü olmalıdır. Bunun da bizim zehnimizdə mövcud olan daimi ehtiyatı işlətməyimizə, ona nəzər salmağımıza ehtiyac var. Ümidvarıq Allah sizi müvəffəq etsin və bu təbəqəni bacardıqca güclü, dərin və ayıq edə biləsiniz. Alim, dindar və ayıq insanların bacardıqca çoxunu öz aranıza daxil edin. Tələbələrlə yaxşı, səmimi və dost münasibətləri qurun.

**Ruhaninin məqamı**

Səmimi və dost münasibətlər qurun, yardım təşkilatlarına xas münasibətlər yox. Bunlar xırda məsələlərdir. Bəziləri elə bilirlər ki, dəstək maddi problemləri həll etməkdir; məsələn, cənab, mənim bu qədər borcum var, bizim bu qədər problemimiz var. Xeyr, belə deyil. Bunlar xırda işlərdir. Bu işlərlə məşğul olmaq, şübhəsiz, əsas işdən - qayğıkeşlikdən, mehribanlıqdan, dərdləşməkdən, həmçinin müəllimlik, maarifləndirmə, yol göstərmək

və rəhbərlik etməkdən yayınmaqdır. Ruhaninin mövqeyi budur. Hər yerdə, o cümlədən universitetlərdə Allah sizi müvəffəq etsin və Öz qeybi yardımlarını köməyinizə göndərsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Hövzə və universitetin aydın fikirliliyi[14]

Bismillahir-Rəhmanir-Rəhim.

Cənab Ərafinin hesabatına çox sevindim. Allaha şükür olsun ki, bu, işin aktiv olduğunu göstərir. Bizim üçün sizin nəyə nail olmanızdan daha əhəmiyyətli olan niyyətinizdir: işinizi necə dəyərləndirir və nə məqsədlə icra edirsiniz. Bu mənim üçün sizin nailiyyətlərinizdən daha əhəmiyyətlidir. Allaha şükür olsun ki, mən həm sizin çıxış və hesabatınızdan, həm də cənabların özündən bunu hiss edirəm.

Əziz qardaşlar! Bilin ki, cəmiyyətimizin elmi işlərinin islahı üçün ümidimi sizin təbəqəyə dikmişəm. Birinci dərəcədə

---

[14] Hövzə və Universitetin Əməkdaşlıq İnstitutunun əməkdaşları ilə görüşdə çıxışı: 3 noyabr 1997.

ruhaniliyin və Qumun elmi islahını nəzərdə tuturam. Onun öz yerini tapması, bu böyük, mürəkkəb və qarışıq dünyada öz vəzifəsini icra etməsi üçün maksimum iradəyə ehtiyac var. Demirəm sizin qrupa, deyirəm sizin təbəqənizə; dərs oxumuş, zəhmət çəkmiş, hövzənin elmi məsələləri, ölkənin və dövrün hadisələri ilə tanış olan və gənclik qüvvəsinə sahib alimlərə. Allaha şükür olsun ki, gənclik hissləri onlarda hələ kifayət qədər mövcuddur.

**Məsuliyyət və ümid**

Bu, hövzənin işlərindən biridir. Universitetlə maraqlanmaq, universitetə kömək göstərmək, ölkənin savadlı gənc nəslinin zehin və düşüncəsi qarşısında məsuliyyət hiss etmək - bütün bunlar hövzənin missiyasının bir hissəsini təşkil edir. Hövzə işlərində də ümidim sizədir. Heç şübhəsiz, hövzədə belə bacarıqlı gənc alimlər

çoxdur. Lakin bəziləri universitet işlərinə münasibdirlər, bəziləri hövzənin kitab işlərinə, bəziləri də tədris işlərinə.

**Ən üstün söz**

Hər halda, müvəffəq olasınız. Mən də sizin işinizi tamamilə dəstəkləyirəm. Bəlu, bunlar bizim universitet qarşısında borcumuz üçün çox azdır. Bu gün dinlə azacıq əlaqəsi olan bütün elmlərdə hövzə ən üstün və son sözə malik olmalı, o söz universitetdə tədris edilməli idi; dərs vəsaiti, yaxud mənbə formasında. Əlbəttə, əlavə ədəbiyyat da əhəmiyyətlidir, lakin dərslik daha mühümdür. Halbuki belə deyil. İndi universitet işlərinin az bir qismi müəyyən formada burada görülür.

**Dəqiq ekspertlik**

Xoşbəxtlikdən, sizlər diqqətlisiniz, işləriniz möhkəmdir. Bu məni sevindirir.

Məqsədiniz, maraqlarınız düzgündür, işlərinizi düzgün dəyərləndirə bilirsiniz. Mühüm odur ki, öz işinizin nə qədər əhəmiyyətli olduğunu bilirsiniz. Mən onun əhəmiyyəti barədə danışmıram, çünki görürəm ki, Allahın lütfü ilə bu sahədə lazım olanları demisiniz. Mən də hamısını təsdiqləyirəm.

**Gənc və hövzə**

Belə işlərə dəstək baxımından heç bir şərtim yoxdur. Yəni doğrudan da əlimdən gələn maddi və qeyri-maddi yardıma etirazım yoxdur. Siz işə başlamısınız. Mən məhdud imkanlarım daxilində sizə kömək etməyə hazıram və dua da edirəm. Mən sizi həmişə dua edirəm. Nə qədər fikirləşirəm, görürəm ki, bu gənc qruplar hövzəyə zəruri və həllediciidirlər. Buna görə də, sizin üçün dua etməyi özümə borc bilirəm. Hər halda,

bu, Allaha sığınmaqdır və inşallah, təsirli olacaq.

Bu sahələrdə heç bir problem yoxdur. Eybi yox, istər maddi, istərsə də tövsiyə lazım olan istəklər barədə sözlərinizi sizinlə əlaqədə olan cənab Hicaziyə deyin. Buranın imkanları ilə uyğun olduğu təqdirdə etirazım yoxdur və tam razıyam.

## Qorumaq

Mənim fikrimcə, sizə çox vacib məsələlərdən biri təlatümlü bir okeana düşmüş təşkilatınızı hər cəhətdən qorumaqdır. Əlbəttə, elmi cəhətdən səviyyəsinin enməsinə qoymayın. Allahın lütfü ilə onu olduğu yüksək səviyyədə qoruyun. Düzdür, mən sizin işləriniz haqda yaxından və yetərli məlumata malik deyiləm. Mənə kitablar verilib. Bəziləri barədə mən mütəxəssis deyiləm, bəzilərini də oxumağa imkan tapmamışam. Buna görə də işin

səviyyəsi baxımından son nəticəyə gəlməmişəm. Lakin ümumi olaraq bir çox səbəblərdən hiss edirəm ki, işin səviyyəsi yaxşı və yüksəkdir. Bunu qorumağa çalışın, enməsinə imkan verməyin.

**Universitet, ruhani və minbər**

Digət tərəfdən, nəzərə alın ki, indi bizim universitetimiz asudə mühit deyil. Misal üçün, minbərə dəvət olunduğumuz hazır bir məclisdə adam ürəyi istəyəni deyir, heç bir narahatlıq da olmur. Lakin universitet elə deyil ki, insan gedib otursun və asanlıqla danışmağa başlasın, istədiyini desin. Adətən, belə yerlərdə bir nöqtədən başlayır və bir nöqtəyə çatmaq istəyir. Minbərin axırında isə görür ki, tamam başqa yerdədir, başqa bir aləmdə seyr edir. Yəni mühit insanı başqa səmtə çəkir.

Sizin iştirak, təsir, əməl və fəaliyyət niyyəti ilə daxil olduğunuz universitet belə

bir mühitdir. Həm mühitin özü gəncdir, həm orada məharətli, boynuyoğun minbər adamları oturub və hamısı minbərə cummaq istəyir. Demək üçün hər birinin çantasında bir şey var. Siz buraya daxil olmaq, bu məclisdə çıxış etmək istəyirsiniz. Onlar sizi rahat buraxmırlar.

### Tələbə gəncin xüsusiyyəti

Siz mənim yaşımda olan 10 nəfəri bir otağa salın, sonra bizi çıxarıb oraya öz yaşınızda olan 10 nəfəri salın. Bir mikrofon da quraşdırın, görün danışıqlar nə qədər fərq edir. Gənc təbiət etibarilə belədir. Üstəlik, tələbələr sizdən də gəncdirlər. Təbii olaraq gəncin bir növ hərəkətə, fəaliyyətə, iğtişaş və etiraza, tənqidə, hər bir şeyə irad tutmağa meyli var. Eyni zamanda əqidə bəslədiyi məsələlərdə xüsusi prinsipiallığı da var. Bunların hamısı onda cəm olub.

**Müqavimət**

Universitetə ətrafdan düşüncə, söz, azdırma, hidayət etmə - hər bir şey yönəlir. Siz belə bir yerə daxil olursunuz. Mən sizi doğrudan da səmimi, layiqli və sevimli bilirəm. Bunu sizə tam səmimiyyətlə deyirəm. Siz ilk növbədə özünüzdə kənar təsirlərə qarşı müqavimət yaratmalısınız. Bu, zarafat götürmür. İnsan təsirlənir, dəyişir.

Siz bir dəmir üzərinə çəkic, yaxud gürz vurur, onu müxtəlif formalara salırsınız. Bir müddətdən sonra isə baxıb görürsünüz ki, çəkicin özü yeyilib. Yəni möhkəm və güclü olsa da, nəhayət, təsirlənib; o buna təsir edib. Bu barədə düşünün.

**Ziyalılıq**

Sizin daxil olduğunuz sahə təhlükəli sahələrdəndir. Çünki ziyalılıq təhlükəli bir mövzudur. Bu nə döyüş meydanıdır, nə

cəbhədir, nə Bəsicin işidir, nə də inqilabçı bir hərəkətdir. Ziyalı çevrəsi çətin çevrədir.

**Ziyalı mühiti**

Bu qədər deyim ki, mən uzun illər ölkənin ziyalı çevrəsi ilə yaxın münasibətdə olmuşam, görkəmli şəxslərini, bu çevrəyə daxil olan yaxşı insanları və sonra oradan necə xaric olmalarını görmüşəm. Yəni ziyalı çevrəsi qəribə çevrədir və orada təsirlənmə var.

**İki növ şüar**

Mən indi sizin toxunduğunuz şüar məsələsi üzərində dayanmaq istəyirəm. Şüarda məqsəd müsahibə almaq və danışmaq olsa, bundan çəkinin, şüar məfhumları olsa, çox da çəkinməyin, işçi qrupunuza bir qədər şüar pistonu yerləşdirin.

Mən 72-73-cü illərdə Məşhəddə bir qrup gənc tələbəyə təfsir dərsi deyirdim. Çox qarışıq bir məclis idi. Bu gün ölkədə vəzifə başında olanların bəziləri, məsələn, cənab Doktor Fərhadi, Firuzabadi və Məşhəddə olan digər şəxslər o məclisin uşaqlarındandırlar. Onların hamısı universitet tələbəsi idilər, mən onlara təfsir deyirdim. O məclis çox təsirli və qəribə cazibəyə malik məclis idi. Çalışırdım ki, heç zaman tətil olmasın. Məşhəddə mənim vəziyyətim elə idi ki, insanların ətrafıma toplaşmasına imkan vermirdilər. Biz bunu bir müddət saxladıq, nəhayət, tətil oldu. Çalışırdım ki, bu məclis tətil olmasın, heyfim gəlirdi.

**Həm əməl, həm söz**

Bir gün dərsdə tələbələrin biri bir şüar verdi. Mən çox narahat oldum, dedim ki, nə üçün belə edirsən. Şüar nə əməldir, nə də söz.

Söz mənim burada dediklərimdir. Burada söz deyirik, əməl etmirik. Danışıram, təfsir dərsi deyirəm - söz budur. Şüar söz də deyil, əməl də deyil. Niyə əbəs yerə şüar verib dərsimizi təhlükəyə salırsan.

Hamınız o şəxsi tanıyırsınız, indi tanınmış şəxsiyyətlərdəndir. O vaxt tələbə idi. Dərs açıq olduğundan getməyə, qalmağa və danışmağa icazə verilirdi. O, önə çıxıb dedi: "Müəllimimiz deyir ki, şüar nə sözdür, nə əməl. Mən demək istəyirəm ki, şüar həm sözdür, həm əməl. Əməldir ona görə ki, biz bu gün bundan yaxşısını edə bilmirik. Həm də sözdür, çünki məzmunu var".

Gördüm doğru deyir. Gedib dayandım yanında və dedim ki, mən qəbul etdim: şüar həm sözdür, həm əməl, lakin xahiş edirəm burada şüar verib dərsi tətil etdirməyin.

Şüar bəzən həm söz, həm əməldir. Qoyun orada bir qədər şüar pistonu da olsun, şüarınıza görə bəziləri sizdən

çəkinsinlər. Mən istəyirəm bəziləri inqilabın hörmətini saxlasınlar. İndi bəzi şəxslər inqilabın bəzi məsələlərinə qarşı cürətləniblər. Necə deyərlər, borcluya üz versən, səni borclu hesab edəcək.

## Düşüncələrin döyüş meydanı

Bir zamanlar bundan da zəif məsələlərdə fikir bildirməyə cürət etmirdilər, indi isə inqilabın açıq-aşkar məsələlərini qərəzli şəkildə müzakirəyə çıxarırlar. Əgər düzgün müzakirə olsa, xeyrimizə olar. Xeyr, qərəzli və zərərli müzakirələr aparırlar.

Universitet belə bir yerdir. Hücum halında oraya daxil olun. Ümumiyyətlə, sizin bu işiniz mübarizədir. Bunun üzərindən bazarlıq etmək olmaz. Bu işdə mübariz ruhiyyə lazımdır. Mübariz ruhiyyə olmasa, iş getməz. Çünki bu, adi bir iş deyil.

Bu gün sizin tərəf-müqabilləriniz, tələbələr arasında öz batil fikirlərini yayan

şəxslər sülhlə gəlmirlər, vuruşmaqdadırlar. Bu, elan olunmamış bir müharibədir, hegemonizmin bizim əleyhimizə apardığı bütün işlər kimi başqa formadadır.

### İnqilabçı müsəlman baxışı

Hər halda, siz din və dinə bağlılığın əsas məqamlarını, bəndəlik məsələsini, xüsusən inqilaba bağlı olan, misal üçün, sosioloji məsələləri inqilab mühitində yetişmiş inqilabçı bir müsəlman baxışı ilə təhlil edin. Elmi baxış insanı belə duyğu məqsədlərdən uzaqlaşdırmamalıdır.

Əlbəttə, o dəyərlərdən və o düzgün məqsədlərdən uzaqlaşdırmaq üçün bəzi sözlər deyirlər. Lakin mənim fikrimcə, əsla məntiqli və düzgün deyil. Siz inqilabçı baxışla, əsl İslam təfəkkürü ilə və İslam qaynaqlarına tam əsaslanmaqla məsələlərə yanaşın. Bu işdə heç bir bazarlığı qəbul etməyin, qətiyyətlə rədd edin.

Biz inqilabdan əvvəl gəncləri cəlb etməkdən ötrü bəzi səhvlər etdik. Dedik gəlin görək onun ürəyi istədiyi kimi bir iş görmək olar, yoxsa yox. Sonra bu "bir iş görmək olar"ın ardınca səbəb və izahlar yonmağa başladıq. O səbəblərə indi baxanda qətiyyətlə rədd edirik. Bu, olduqca təhlükəli olan eklektik fikirlərlə sonuclandı.

Xalqımızda indi də mənfi təsirləri qalan eklektik fikirlərin bizlərdən başlandığını desəm, təəccüblənməyin. "Biz" dedikdə bizim təbəqəni nəzərdə tuturam. Əmmaməli şəxslər gənclərin acığı gəlməsin və onların baxışı ilə uyğun olsun deyə, şəriətin, İslamın, Quran və hədisin dəlillərini ayrı cür izah etdilər. Belə oldu.

**Şəhid Mütəhhəri**

Çox yaxşı olar ki, mən bu sahədə, insafla desək, iynə ucu qədər də yayınmayan

şəxsdən danışım. Quranda deyilən "az şey"[15] qədərincə də razı olmayan bu şəxs mərhum Mütəhhəri idi. Başqaları az-çox, bəziləri də sona qədər yayındılar.

Mərhum cənab Hacıağa Hüseyn Qumi bir şəxsə demişdi ki, eşitmişəm sən dostbaz adamsan, mən də dostbazam. Amma mən dostumla cəhənnəmə qədər gedərəm, ondan irəliyə getmərəm. Eşitmişəm ki, sən lap içərilərinə də gedirsən. Xülasə, bəziləri bu işdə lap dərinə getdilər.

**Mühafizəkarlıq**

Mühafizəkarlıq mütləq lazımdır. Siz elə dirəksiniz ki, sizə söykənmək istəyirlər. Dirək möhkəm olmalıdır. İndi Allahın lütfü ilə universitetdə bir dirək kimi fəaliyyət göstərmək istəyirsinizsə, inşallah, bu

[15] İsra/74.

məsələyə riayət edin. Həm elmi cəhətlərə, həm də bunlara tam riayət olunsun.

Ümidvarıq Allah da hər an sizə kömək göstərsin, sizi hidayət etsin, Öz hidayətini əsirgəməsin, bu yolda başucalığı və uğurla irəliləyə biləsiniz!

Allahın salamı və rəhməti olsun sizə!

## Tələbə, gənc və sağlamlıq[16]

Bismillahir-Rəhmanir-Rəhim.

Əvvəla, əziz qardaş və bacılara təşəkkür edirəm ki, lütf göstərib bu dəvəti qəbul etdiniz, təşrif buyurdunuz və bir yerdə iftar etdik. Biz ötən il də oğlan və qız tələbələrlə buna bənzər toplantı keçirdik. Adət üzrə iftardan sonra mən bir qədər ağırlaşıram. İstirahət üçün getdim, tələbələr də getdilər. Hiss etdim ki, bizim toplantımızda nəsə çatmadı. Məncə, qardaş və bacılardan bir qrupun gəlməsi, bir süfrə başında iftar etməmiz və sonra da hər

---

[16] Ramazan ayının 23-cü gecəsində İslam birliklərindən olan tələbələrlə iftar mərasimində çıxışı: 21 yanvar 1998.

birimizin öz işimizin ardınca getməmiz kifayət etmir. Toplantının bir şeyi çatmır. Bizim bu görüşümüz ötən il sınaqdan keçmiş çatışmazlığı aradan qaldırmaq üçündür.

Mən indi də bir neçə dəqiqədən artıq danışmayacağam. Çünki məlum deyil iftardan sonra söhbət etməyə bir neçə dəqiqədən artıq vaxt qalacaq, yoxsa yox. Hələlik bir qədər danışaq.

**Gənclik və ibadət**

Bu gecə mübarək ramazan ayının 23-cü gecəsidir. Xoşbəxtlikdən, bu il ayın əvvəli sübuta yetdi. Yəni bu gecənin 23-cü gecə olmasında heç bir şübhə yoxdur və böyük ehtimalla Qədr gecəsidir. Düşündüm ki, sizə bu tövsiyəni edim: bu gecəni özünüzə həqiqətən, Qədr gecəsi edin, onun qədrini bilin. Hər şey, həmçinin ibadət də gənclik dövrünə aiddir. Mən bunu gənclərə dəfələrlə demişəm.

**Qocalıqda ibadət**

Çoxları, həmçinin biz keçmişdə elə bilirdik ki, insan gəncliyini necə gəldi keçirsin, orta yaş dövründə və qocalıqda ibadətlə məşğul olsun. İki böyük eyib və irad bunu imkansız edir: Biri budur ki, gənclikdə fiziki və psixoloji sağlamlıq və enerji olur. Yaxşı, davamlı və keyfiyyətli ibadət üçün də bu lazımdır.

Ruhdan düşmüş, əldən düşmüş, yorğun və bədənində müxtəlif xəstəliklər olan insan əhya gecəsində səhərə qədər necə ibadət edə bilər?! Yaşlı adamlar adətən, bir neçə saat fasiləsiz ibadət edə bilmirlər. Lakin gənc dağa çıxdığı, bir neçə saat idman edib futbol oynadığı kimi bunu da bacarır, yorulmur. Məgər orta yaşlı adam futbol meydançasında bu qədər qaça bilər, yaxud bu qədər dağa çıxa bilər?! Belə insanlar az tapılır.

**İbadət və sağlamlıq**

İbadətdə də belədir. İbadət etmək, bir yerdə üzü qibləyə oturmaq, namaz qılmaq və diqqəti toplamaq fiziki və psixoloji sağlamlıq və güc tələb edir. Bunlar gəncdə mövcuddur, qocalarda isə yoxdur. Orta yaşlılarda bəzən var, bəzən yoxdur. Bu, sübut edir ki, insanın gəncliyi mənasız keçirib qocalıqda ibadət edəcəyini düşünməsi xəyaldır.

**Qocalıq və gənclik**

İkinci səbəb bundan da əhəmiyyətlidir. O da budur ki, insan orta yaşlarında, bizim yaşlarda və ondan sonra əslində, mənəvi cəhətdən öz gəncliyinin çörəyini yeyir. Belə deyil ki, insan yuxarı yaşlarda birdən-birə özünü bu tərəfdən o tərəfə çevirə bilsin. Məgər bu, mümkündür?! Bu, imkansızdır. Mənəvi, psixoloji və əxlaqi baxımdan gəncliyi necə keçirsəniz, qocalığınız da elə olacaq.

Mümkün deyil ki, insan gənclikdə - hiss, duyğu və xarakterlərinin inkişafda və formalaşmaqda olduğu bir dövrdə maddiyyata, ehtiraslara qərq olsun, Allahı düşünməsin, yada salmasın, Allah sevgisi, övliyalara məhəbbət, övliyalarla yanaşı addımlamaq barədə düşünməsin, yaxşı və uca insanları xatırlamasın, mütləq qəflət içərisində keçirsin, qocaldıqdan sonra isə desin ki, bundan sonra başqa cür edəcəyəm. Bəli, Allah heç kimin əlini boş qaytarmır, 70 il günah etmiş bir insanı da o yola buraxırlar. Lakin insan orada uğurla hərəkət edə bilməz; nə nuranilik tapa bilər, nə ibadətlərə, Allahın məhəbbət və zikrinə vara bilər. Daha olmaz. Lakin gənclikdə düzgün əməl etmiş olsa, gənclikdən başlamış olsa, qocalıqda istifadə etmək olar.

### İmamın qocalığı

İmam kimi adamların 80-90 yaşlarındakı vəziyyətləri onların gəncliklərinin davamıdır. İmam İrana gələndə və İslam Respublikasını quranda təxminən 79 yaşı vardı; yəni bu ağır məsuliyyətləri üzərinə götürəndə səksənə yaxın yaşı vardı. Bütün insanların təqaüdə çıxdığı, bir tərəfdə oturduğu, hər bir işə könülsüz və həvəssiz halda yatağa düşdüyü bir yaşda dünyanın ən böyük işlərinə başladı; bir ölkəni idarə etmək, hətta bir quruluş qurmaq və onu addım-addım inkişaf etdirmək.

**İmam ramazanda**

İmam mənəvi cəhətdən də belə idi. Mən bunu dəfələrlə demişəm. Adətən ramazan ayında imamın görüşü olmurdu. Düzdür, bizlər bəzən bu ayda da onunla görüşür, iftarda, ya da başqa bir səbəbdən bir-iki dəfə onun yanında otururduq. Xalq isə

əksərən onu görmürdü, biz də normaldan az görürdük. Ramazan ayından sonra xalqın qarşısına çıxanda bu bir ayda daha da nurlandığı aydın hiss olunurdu. Doxsana yaxın yaşı olan bu qoca həmin bir ayda hərəkət və inkişaf edirdi. O, daim inkişafda idi, ramazan ayında isə daha çox və daha ciddi; çünki zaman daha əlverişli idi.

**Mənəvi şərait**

Bir nəfərin qocalıqda bir gənc kimi mənəviyyat aləmində belə fövqəladə hallara malik olması onun gəncliyinə aiddir. O, gəncliyini də belə keçirib; ibadətlə, zikrlə, dua və təvəssüllə. Gördüyü bütün böyük işlər, oxuduğu dərin elm, müxtəlif sahələrdə - fəlsəfədə, fiqhdə, irfanda və üsulda yiyələndiyi mükəmməllik, uzun müddət çalışdığı siyasi fəaliyyət bütünlüklə mənəviyyat, diqqət və zikr halında olub.

Mənəviyyat insan üçün bir ab-hava və şərait yaratmalıdır.

## İmamın gənclik ibadətləri

Mənim yadımdadır, 1970-71-ci illərdə imamın təqlid müctəhidi olması haqda o zaman Nəcəfdə olan Məşhəd alimləri ilə söhbət edirdik. Biz çox böyük və yaxşı insan olan və bir neçə il öncə Allahın rəhmətinə qovuşan məşhur Məşhəd alimlərindən birinin – mərhum Ağa Mirzə Cavad Tehraninin yanına getdik. O, səksən yaşında da cəbhəyə getdi, 60 və 120 mm çaplı minaatanlardan mərmi də atdı. O da çox yaxşı kişi idi. Biz gənc olanda o nisbətən yaşlı idi. O, imamın adını çəkib deyirdi ki, siz onu təzə tanımısınız, biz isə qırx ildir tanıyırıq. O deyirdi: "Mən təhsil üçün Tehrandan Quma gedəndə həzrət Məsumənin məqbərəsində gözüm nazik qara saqqalı olan gözəl və yaraşıqlı bir göncə düşdü. O, gündüz və

gecələr müəyyən bir yerdə ibadətə qərq olur, təhtülhənəkini salıb ibadət edirdi. O zaman qəlbimdə bu gəncə sevgi yarandı. Soruşdum ki, bu kimdir? Dedilər ki, ağa Ruhullahdır. O zaman ona ağa Ruhullah deyirdilər. Mən o vaxtdan bu kişiyə hörmət bəsləyirəm".

**Gənclik nuraniliyi**

Mənim əzizlərim! Qocalığı formalaşdıran gənclikdir. Gəncliyin, gənclik paklığının, nuraniliyinin qədrini bilin. Siz gənclər yeni bir paltara bənzəyirsiniz; əgər bulaşsa, çirklənsə, bir dəfə yumaqla yenidən təmiz olar, bir qədər təmizləməklə təmizlənər. 20 illik köhnə paltar isə heç bir yolla düzəlmir. İnsan yuxarı yaşlarda belə olur. Allah eləməmiş, insan ömrünü günahla keçirmiş olsa, nə etsələr də elə rövnəqli və şəffaf ola bilməz. Gənclikdə isə mümkündür. Sizin qəlbləriniz işıqlıdır. Bunu dəyərləndirin.

## Qədr gecəsinin qədrini bilmək

Ramazan ayını da dəyərləndirin, Qədr gecəsini çox uca tutun. Bu gecə qədr gecəsidir. 23-cü gecə çox mühümdür. Əlbəttə, bu gecənin Qədr gecəsi ilə əlaqəsi haqda bir neçə versiya deyiblər. Bəziləri deyirlər ki, bu 3 gecənin biri mütləq Qədr gecəsidir və 23-cü gecənin ehtimalı digərlərindən çoxdur. Ehtimal sırasında sonra 21-ci və daha sonra 19-cu gecə gəlir. Yəni Qədr gecəsi bu üç gecənin biridir. Axşam azanından sübh azanına qədər Qədr gecəsidir; bütün xüsusiyyətləri ilə birgə: mələklərin enməsi, Allahın salamı, dua və zikrlərin qəbul olunması, min aydan üstünlüyü və sair.

## Tale və müqəddəratlar

Bəziləri isə belə düşünürlər ki, xeyr, bu 3 gecə - yəni 19, 21 və 23-cü gecələr birlikdə Qədr gecəsidir. Lakin onların hər birində

Allahın lütfü bir növ təcəlli edir. Bu üç gecənin hər biri bir formada diri və ayıq qəlblər üçün Allahın lütf və ziyafət süfrəsidir: hacətlər, ruzilər və tale 19-cu gecədə yazılır, 21-ci gecədə təkid və 23-cü gecədə imza olunur. Yəni insanın müqəddəratı bu üç gecədə həll olunur. Siz Allaha diqqətlə və dua ilə öz taleyinizi yaza bilərsiniz.

**Çalışmaq və dua**

Bu o demək deyil ki, çalışmağın taleyə təsiri yoxdur. Çalışmaq səbəbdir və heç bir nəticə səbəbsiz həyata keçmir. Lakin səbəbləri əldə etmək də öz növbəsində başqa bir səbəbə bağlıdır. Dua səbəblərə şərait yaradır. Siz Allaha deyirsiniz ki, "Ya müsəbbib əl-əsbab", yəni ey Səbəbləri səbəbləndirən, onlara səbəblik bəxş edən, işlərin həyata keçməsi üçün onları təmin edən.

**Səbəblər**

Allah insan üçün ixtiyar və seçimin müqəddimələrini düzəldir. Yaxud mərhum Əllamə Təbatəbainin sözü ilə desək, sizin tanıdığınız digər maddi və mənəvi səbəblər kimi, dua da səbəblərdən biridir. Biz həyatın bütün hadisələrində, bütün işlərində bəzi səbəblər müşahidə edirik. Bu səbəblərin bəzisi maddidir, bəzisi mənəvi, bəzisi də insani. Bəziləri insanın imkanından xaricdir, bəziləri isə bunların sintezindən yaranır.

**Duada ciddilik**

Dua da bu səbəblərdən biridir. Allah-Taaladan istəmək bir səbəbdir. Buna görə duaya ciddi yanaşın, Allah-Taaladan həqiqətən, istəyin. Dua bu deyil ki, insan hansısa sözü filan cür deməyə çalışsın; sanki şeir, yaxud nəğmə oxuyur, eləcə deyir ki, İlahi, mənə bunu ver, mənə onu ver, bizi bağışla. Bu, dua deyil, dilin vərdişidir. Dua -

diləməkdir. Allahdan istəmək lazımdır. Bacardığınız qədər israrla və ciddi şəkildə istəyin. Bu zaman qəbul olunmaq ehtimalı daha böyük olur. Ciddilik lazımdır.

**Duanı tanımaq**

Bəziləri təəccüblə deyirlər ki, bizim dualarımız qəbul olunmadı. Əgər soruşulsa ki, siz nə etdiniz, necə dua etdiniz, deyirlər rövzə məclisində filan ağa çoxlu dua etdi, biz də "amin" dedik. İnsan nə istədiyini bilməsə, kimdən nə dilədiyinə diqqət yetirməsə və ümumuyyətlə, ciddi istəyi olmasa, bu, dua deyil.

**Kiçik və böyük istəklər**

Bu mövzu barədə başqa bir məqam budur ki, həyatın istəkləri bitmir. Bəzi istəklər kiçikdir, bəzi istəklər isə böyük, uca və dəyərli. Böyük istəkləri tapın, uca və qədir-qiymətli istəklər diləyin. Demək

istəmirəm ki, adi yaşayışa aid heç bir şey istəməyin. Yox, bəzən adi istəklərdə də olduqca təyinedici məqamlar olur. Amma bəzi istəklər çox kiçikdir.

İndi kiçik istəklər üçün misal çəkmək istəmirəm, amma böyük istəklər üçün istəyirəm. Siz “Məkarim əl-əxlaq” duasına baxın. Həzrət Səccadın (ə) duasıdır. Səhifeyi-Səccadiyyənin 20-ci duasıdır. Əvvəlindən sonuna qədər böyük, qəribə və taleyüklü istəklərdir. İnsan baxdıqda doğrudan da heyrətə gəlir. Heç bir beyin bütün bu böyük istəkləri sıralayıb Allahdan istəyə bilməz. Belə başlanır.

**İmansız insan - çöp kimi**

Başlanğıcı budur. Əvvəlcə iman üçün dua edir: "İlahi, mənim imanımı ən kamil iman et!" Əgər bu dua qəbul olunsa, insan həyatda heç zaman məğlubiyyətə uğramaz; təkcə bu dua ilə. İmansızlıq çox pis şeydir,

çox zərərlidir. İmansız insan küləklərin bu tərəfdən o tərəfə apardığı bir yarpaq və çöp kimidir. Həmişə oyan-buyana sürünür. İmansız insan heç bir prinsip və dəyərə iman bəsləməyəndir. Sevmək və etiqad bəsləmək bir yerdə imanı təşkil edirlər.

**Niyyət**

Sonra deyir ki, mənim yəqinimi ən üstün yəqinlərdən et. Bu, ikinci duadır. Mənim qəsdimi və niyyətimi ən yaxşı niyyətlərə çatdır. Çünki insanın bütün əməlləri onun niyyətinə bağlıdır.

**Əməlin sərgərdanlığı**

Əməldə əsas məsələ niyyətdir. Niyyətsiz heç bir əməl, əməl deyil. Niyyət istiqamət, məqsəd, amal və seçimin göstəricisidir. İnsanın ən əsas xüsusiyyəti onun seçim qüvvəsidir. Niyyət də budur. Niyyətsiz insan oyan-buyana sürünən

heyvan kimidir; yaxud tufan zamanı oyan-buyana uçan yarpaq kimi: bəzən bu tərəfə uçur, bəzən o tərəfə, bəzən bununladır, bəzən onunla. Ümumiyyətlə, nə etdiyini bilmir; bəzən bir cür əməl edir, bəzən isə onun əksinə. Niyyətsiz insan belədir.

**Niyyətin mənası**

Niyyət - məqsədlilikdir; yəni işin məqsədi. Bu məqsəd də, təbii ki, bəzi məsələləri nəzərə almaqla, müqəddimələrlə, lazımi səbəb və vasitələrlə birgə olmalıdır. İnsan düşünüb bir məqsədi seçir, bu məqsəd yolunda hərəkət edir və bu yolda, bu yolun sonuna çatmaq və onda irəliləmək üçün hər bir işi görür. Niyyətin mənası budur. Bu niyyət nə qədər yaxşı, şəffaf, ağıllı və məntiqli olsa, təbii ki, insan daha uğurlu olar, niyyətin faydalarından daha çox yararlanar.

**Duaya diqqət**

Sonra deyir ki, mənim əməlimi də ən yaxşı əməllərlə bitir. Ola bilsin, sizin builki ramazan ayınız bir formada olsun, amma sonra düşünməklə, Allahı yad etməklə, Allaha diqqət göstərməklə, yaxşı dostluqlarla, mütaliə ilə gələnilki ramazan ayınız bundan yaxşı olsun və beləcə ilbəil yaxşılaşsın. Duanın mənası budur. İnsan əməli addım-addım ən yaxşısına doğru aparır. Bu duanın digər hissələri də belə maraqlıdır.

Görün bu dua nə qədər mənalı duadır. Deyir ki, mənim diqqətimi və iradəmi cəlb edən amillərə qarşı yardım et. Elə et və elə şərait yarat ki, mənim zehnimi özünə yönəldən belə şeylərə, həyatın gündəlik məsələlərinə düçar olmayım. Bəs nə olsun?

### İnsanın məsuliyyətləri

“Məni elə sahələrə yönəlt ki, sabah qiyamət günü məndən onlar barədə

soruşacaqsan”. Qiyamətdə insanlardan nə haqda soruşacaqlar? Məsuliyyətlərdən - özü, ailəsi, cəmiyyəti, ölkəsi, gələcək müsəlmanlar, tarix və bəşəriyyət qarşısında vəzifələrdən soruşulacaq. İslama görə, insan özbaşına buraxılmayıb, həyat başdan-ayağa məsuliyyətdən ibarətdir.

**Qısa ömür**

Yaşadığımız bu bir neçə il çox qısadır. İnsan gənc olanda elə bilir ki, əbədidir, ölümə, faniliyə, bu dünyadan köçməyə nağıl və əfsanə kimi baxır. Halbuki öz gözləri ilə insanların ölümünü görür. İnsan gənclikdə belədir. Sonra qocalığa yaxınlaşdıqca dünyanın həqiqəti onun üçün daha da aşkarlanır, dünyanı daha artıq tanıyır. Sonra birdən dönüb arxasına baxanda, misal üçün, 60 il, 50 il həyat 10 gün kimi, 1 ay kimi görünür. Deyir ki, sanki dünən idi. Sonra görür ki, həyat olduqca qısadır. Bütün bu

müddətdə baş verən müxtəlif hadisələr baş qarışdırmaq olub.

**Fani dünya**

Dünya həyatı bitəsidir. İndi 60 il belə ömür sürdük. Bundan sonra daha neçə il yaşayacağıq? Əgər çox yaşasaq, fərz edin daha 20 il. Bu 20 il də həmin 60 il kimi, hətta daha azdır. Təkrarı çox, yeniliyi isə az olacaq. Həm də daha tez ötəcək. Yəni insan dərk edir ki, həyat mahiyyətcə çox ötəridir.

**Dünya həyatının fəlsəfəsi**

Gənclikdə bizə nə qədər deyirdilər ki, həyat bir andır, bir saatdır, bir gündür, inanmağımız gəlmirdi. İndi yavaş-yavaş görürük ki, elə imiş. Sizin də inanmağınız gəlmir; qəbul edirsiniz, amma hiss etmirsiniz. Bilin ki, tezliklə dərk edəcək və görəcəksiniz ki, həyat bir anlıqdır. İnsanın bu dünyada keçirdiyi bu bir an, bir saat, bu qısa müddət

onun öz vəzifələrini yaxşı yerinə yetirməsi üçündür. Sonra gedib əbədi həyatda onun mükafatını alacaq.

**Əsl xoşagələn**

Məsələnin məğzi bundan ibarətdir, insan buraya qalmaq üçün gəlməyib. Burada heç bir şey prinsipcə, xoşagələn deyil. Bütün yaxşı və xoşagələn işlər gələcəkdəki nəticəsinə görə gözəldir. Ona görə deyir ki, sabah soruşacağın, məsuliyyətini xatırladacağın və cavab istəyəcəyin işdə mənə uğur ver.

Görün nə qədər mühümdür. Bəli, bu məsuliyyət dərs oxumağa, həyat yoldaşına, uşağa və ailəyə də şamil olur. Bunlar da məsuliyyətlərdir.

Elə Səhifeyi-Səccadiyyənin özündə övladlar, valideynlər, qonşular və döyüşçülər üçün dualar var.

**“Məkarim əl-əxlaq”**

Bu dua da genişdir. Məncə siz bu dua ilə, bu kitabla, Səhifeyi-Səccadiyyə ilə, çox fövqəladə əhəmiyyətli olan bu bir neçə dua ilə tanış olsanız, çox yaxşıdır. O cümlədən, Səhifeyi-Səccadiyyənin 20-ci duası olan “Məkarim əl-əxlaq” duası ilə tanış olun. Duanın yaxşı və dəqiq tərcüməsini tapıb oxuyun. Bu dua ilə ünsiyyətdə olsanız, çox yaxşıdır.

**Ən mühüm dua**

Qısası budur ki, bu gecə dualara ciddi yanaşın, öz istəklərinizi Allahdan istəyin. Kiçik istəklərinizi də Allahdan istəyin, heç bir istəyi diləməyə xəcalət çəkməyin. Sizə kiçik görünsə də, əliniz çatmayan, sizin üçün çətin olan hər bir şey üçün dua edin, Allahdan istəyin ki, sizə asanlaşdırsın. Lakin ən mühüm dua - İslamın taleyi, xalqın bir-biri ilə mehriban olması, vəhdətin qorunması,

keçmişdə tağut dövründə mövcud olmuş bəzi fəsadların köklərinin quruması üçün dua etməkdir.

### Hərcəhətli fəsad

Tağut dövrü ümumiyyətlə, fəsad yetişdirmə dövrü idi; hərcəhətli fəsad – cinsi, maddi, elmi, əxlaqi, siyasi fəsad, hökumətdə və xalqda fəsad. Qəribə bir şey idi. İnqilabın qələbəsindən 20 il sonra bütün bu fəsadların kökü quruya bilməz. Bizim cəmiyyətimizin bəzi fəsadları onlardandır. Bəziləri də düşmənlərimizin bu bir neçə ildə israrla və qəsdən yaratdıqları şeylərdir.

### Taundan pis

Yəqin eşitmiş olarsınız, keçmişdə bir şəhərə, yaxud ölkəyə zərər yetirmək istədikdə əhalinin istifadə etdiyi suya xəstəlik mikrobu tökmək adət olmuşdu. Bugünkü bakterioloji silahların sadə və ibtidai forması

belə olmuşdur. Misal üçün, gedib onların çaylarını vəba mikrobu ilə bulayırdılar. Bu, adət halı almışdı. Bizim dövrümüzdə isə vəba mikrobundan da təsirli və dağıdıcı olan mənəvi və əxlaqi mikroblar var; məsələn, etiqadsızlıq, imansızlıq, bir-birinə etimadsızlıq, cəmiyyətin mötəbər dəyərlərinə biganəlik kimi mikroblar. Əgər bu mikrobları xalqın canına salsalar, vəba və taundan pis olar; özü də elə bir ölkədə ki, səkkizillik məcburi müharibə dövründə gənclər cəbhəyə getmək üçün yarışa girirdilər.

**Cihad şövqü**

Sizin bəziləriniz o zaman gördünüz, bəziləriniz də bəlkə o zamanı yaxşı dərk etməmisiniz, yaşınız buna imkan verməyib. Ailələrinizdə görmüsünüz, lakin yaxşı dərk etməmisiniz. Nə qədər ailələr gənclərini israrla cəbhəyə yollayırdılar. Məgər

səkkizillik məcburi müharibə dövründə kimisə zorla cəbhəyə aparıblar?!

Gedin oxuyun, görün dünyanın harasında belə bir şey olub?! 8 il müharibə baş verib, amma bir nəfəri də zorla cəbhəyə göndərməyiblər. Gedənlərin hamısı könüllü gedib. İstər Bəsic, istər ordu əsgəri, istər korpus mühafizəçisi - hamı həvəslə gedirdi. Biz birinci ildə elan etdik ki, xidmətini bitirənlər də gəlsinlər. Onlar həvəslə ad yazdırmağa başladılar. Ailələri, bir neçə uşaqları vardı, amma cəbhəyə gedirdilər.

**Düşmənin işi**

Belə bir ölkədə hər hansı bir sahədə ümumi hərəkətə ehtiyac duyulan kimi xalq səhnəyə çıxır və rəğbətlə işə hazır olurdu. Əgər düşmənlər bu ölkəni təslim olmayan bir varlıq formasından çıxarmaq istəsələr, nə etməlidirlər? Məgər gəncləri və inkişafda olan nəsli laqeyd, iradəsiz və məqsədsiz

etməkdən daha yaxşı bir yol varmı?! İşə, əməkdaşlığa, milli birliyə, dini dəyərlərə və dinin missiyasına etiqadsız etmək istəyirlər.

**Başıuca xalq**

Bu mikroblar vəbadan pisdir, yoxsa yox?! Əgər bacarsalar, edəcəklər; buna cəhd edirlər. Lakin əcnəbilərə muzdurluq edənlər, müxtəlif səbəblərdən bunları yazan və əməl edənlər həqiqəti düzgün anlamayıblar. Bilmirlər ki, bir nəsil və bir xalq məsələsi sadə bir məsələ deyil. Elə bilirlər ki, üç-dörd məqalə yazmaqla bir xalqı tam dəyişə bilərlər. Xeyr, belə deyil. Bu xalqın xeyirxah insanları ölməyiblər.

**Duanın səmərəsi**

Bunlar yaradılan fəsadlardır. Bu fəsadların aradan qalxması üçün Allaha dua edin. Əlbəttə, Allahdan istəməyin mənası budur ki, Onun lütfünü bu məsələyə cəlb

edin və Allah-Taaladan kömək istəyin. Allahın köməklərindən biri bu sahədə sizin ürəklərinizi möhkəmlətmək olacaq. Sizin özünüz bu yolda alovlu mərmiyə çevriləcəksiniz, heç bir şey sizin qarşınızı kəsə bilməyəcək. Duanın dəyəri və səmərəsi belədir.

Bu gecə duanı yaxşı dəyərləndirin. Müsəlmanların maraqları və sağlamlıqları dua edin. Afiyət – sağlamlıq üçün dua mühümdür. Hədislərə görə, məsumdan və bəlkə də Peyğəmbərimizdən soruşdular ki, nə üçün dua edək? Buyurdu: "Afiyət üçün".

Bəzilər afiyəti yanlış anlayırlar, elə bilirlər ki, bu, rahatlıq deməkdir. Yəni insan ağır işlərdən uzaqlaşıb bir kənara çəkilsin və özü üçün yaşasın. Xeyr, duada istənən afiyətin mənası bu deyil. Afiyət bəla sözünün antonimidir: pis əxlaqdan, el arasında rahatlığa qaçmaq adlanan xəstəlikdən, biganəlik xəstəliyindən sağlam qalmaq.

Günahdan, düşmənin istismarından, nüfuzundan və nəfsi istəklərdən sağlam qalmaq. Bütün bunlar afiyətdir. Buna görə də, axırıncı səcdənin dualarında deyirik: “Ya vəliyyəl-afiyəh, əsəlukəl-afiyəh: afiyətəd-dünya vəl-axirəh”. Yəni: “Ey afiyət sahibi, səndən afiyət istəyirəm: dünya və axirət afiyətini, sağlamlığını”. İmam Səccadın (ə) Səhifeyi-Səccadiyyədəki dualarının biri afiyət istəmək duasıdır. Bu duada Allahdan sağlam qalmağı diləyir. Bu, çox yaxşıdır.

**Afiyət istəmək**

İmam Hüseyn (ə) bütün əzəməti, azadlıq, cəsarət və fədakarlıq simvolu olması ilə yanaşı, Ərəfə duasında belə deyir: “Pərvərdigara, əgər Sən məndən razı olsan, başqa heç bir şeyə əhəmiyyət verməərəm”. Ardınca deyir: “Lakin mənə afiyət nəsib etsən, çətinlik və bəlaları qarşıma çıxarmasan, mənim üçün daha yaxşıdır”.

Yəni İmam Hüseyn (ə) də bu mənada afiyəti istəyir.

Afiyət istəmək çox yaxşıdır. Allah-Taaladan afiyət istəyin; özünüz üçün, xalqınız üçün, ailəniz üçün, ata-ananız üçün. İnşallah, Allah-Taala sizə kömək etsin! Hidayəti də istəyin. Yavaş-yavaş dediyim oldu. Yəni sizlərin mənəviyyatı və istiqanlılığı yorğunluğu unutdurdu və söhbət bir qədər uzandı. Yaxşı, indi mən bir neçə dua edirəm.

**Rəhbərin duaları**

İlahi, Səndən istəyir və Səni çağırırıq əzəmətli, ən böyük, ən izzətli, ən uca, ən əziz adınla! Ya Allah, ya Allah, ya Allah!

İlahi, bizim qəlblərmizi öz mərifət və lütf nurunla işıqlandır!

İlahi, bizi bu gecə Qədr gecəsinin ehsan və ziyafət süfrəsinə qonaq et!

İlahi, bizim bu gecəmizi mömінlər və yaxşı insanlar üçün ayırdığın yaxşılıqlardan məhrum etmə! Bu gecə bizim qəlblərmizi Özünə yönəlt! Gözlərmizi Öz məhəbbətinlə yaşart!

İlahi, bu gecə dilimizi Öz mədhinə və Sənin dərgahına duaya aç!

İlahi, Məhəmməd və Ali-Məhəmməd haqqına, bizi bu gecənin xeyirlərindən məhrum etmə və bu gecə dualarımızı qəbul et!

İlahi, bu gecə Öz xeyir, rəhmət və lütfünü bu xalqa, bu ölkəyə, bu pak qəlblərə, xüsusən də ölkənin gənclərinə nazil et!

İlahi, bizim gənclərimizi qoru! Onları Öz yoluna və doğru yola yönəlt!

İlahi, Məhəmməd və Ali-Məhəmməd haqqına, bizi Öz yolunda yaşat və Öz yolunda öldür! Bizi həyatda və ölümdə Qurandan ayırma!

İlahi, bizi bağışla! Bu gecə günahlarımızı, xətalarımızı, səhvlərimizi, nöqsanlarımızı və qüsurlarımızı kərəmin, lütfün və fəzlinlə əfv et!

İlahi, bu gecədən başlayaraq Öz uğurlarını bizə bəxş et! Bizim qəlblərimizi Özünə, mənəviyyata və haqqa sarı yönəlt!

İlahi, Məhəmməd və Ali-Məhəmməd haqqına, bu gecə Öz lütfünü, inayət və ehsanını bizim valideynlərimizə, ölənlərimizə, boynumuzda hər növ haqqı olanlara şamil et! Dünyada olanlara daha artıq uğur bəxş et! Dünyadan köçənlərə rəhmət et!

İlahi, bizdən dua etməmizi istəyənləri, dua etmək üçün bizi vasitə salanları, harada və kim olurlarsa-olsunlar, nə istəyirlərsə-istəsinlər, Məhəmməd və Ali-Məhəmməd haqqına, istəklərini ən yaxşı şəkildə əta et!

İlahi, Məhəmməd və Ali-Məhəmməd haqqına, Özünün, övliyalarının, saleh

bəndələrinin məhəbbətini qəlblərimizdə günbəgün artır! Haqq yolu bizə göstər! Bizi şeytanın, öz nəfsimizin və bizi əhatə edən günahların şərindən xilas et!

İlahi, dövrün imamının müqəddəs qəlbini bizdən razı et! Bu gecə Qədr gecəsidir. Həqiqətdə dövrün imamının gecəsi, vilayət gecəsi, dövrün vəlisinə diqqət gecəsidir. Bu gecə bütün varlıq aləmi zamanın imamının ətrafında hərəkət edir, salam və mələklərin hamısı o həzrətə yönəlib.

İlahi, bu gecə o həzrətin yaşayış yerinin mənəvi fəryadları arasında bizim salamımızı da ona çatdır! O həzrətin mənəvi dualarını və razılığını bizə də şamil et! Bizi o həzrətin köməkçilərindən et!

İlahi, Məhəmməd və Ali-Məhəmməd haqqına, kəramətli dövlətini, haqq hökumətini və mütləq ədalətin hakimiyyətini bizə göstər! Bizi bütün ömrümüz boyu o yolun xadim və yolçularından et və

mövlamız Sahibəzzamanın zühurunu tezləşdir!

Allahın salamı və rəhməti olsun sizə!

## Bəsic təfəkkürü[17]

Bismillahir-Rəhmanir-Rəhim.

**Bəsicin mənası**

Qardaşımız çox yaxşı sözlər dedi. Universitetdə sizin kimi yaxşı və mömin gənclərin olmasına çox sevinirəm. Qeyd etdiyiniz bu işlərin hamısı yaxşıdır.

Tələbə Bəsici ifadəsi iki sözdən təşkil olunub. Bu iki sözün hər birinin geniş izahı var. Bunlar insanın boynuna müəyyən vəzifələr qoyur. Biri "bəsic" sözüdür, biri isə "tələbə". "Bəsic" dedikdə inqilabi mübarizəyə həmişə hazır bir toplum nəzərdə

---

[17] Tehran Universiteti Bəsicinin üzvləri ilə görüşdə çıxışı: 31 yanvar 1998.

tutulur. Onlar heç zaman qaib olmurlar, həmişə hazırdırlar.

**Qüvvələrin ən safı**

Deməli, "bəsic" fədakar hazırlıq mənası mövcuddur. Müharibə zamanı "bəsic" dedikdə təsəvvürümüzə gələn ilk məna ölkə və cəmiyyətin ən yaxşı qüvvələrinin saf və seçilmiş hissələrindən ibarət idi. Bəsic elə qüvvədir ki, vəzifəni idarə və qrup qanunları əsasında öhdəsinə götürmür, könüllü şəkildə meydana atılıb hazırlığını bildirib.

**Tələbə**

Tələbə Bəsicində, yaxud digər bəsiclərdə də bu məsələ eynilə mövcuddur. Buna əsasən, "bəsiz" sözü belə bir uca və şərəfli məna daşıyır.

"Tələbə" sözü də belədir, məna ağırlığı baxımından başqa bir cəhətdən çox diqqətəlayiq və əhəmiyyətli mənanı ehtiva

edir. Tələbə - yəni gələcəyə sahib olacaq və elm öyrənməkdə olan gənc. “Tələbə” sözündə bu xüsusiyyətlər var. Tələbə - yəni gənc, çünki tələbəlik zəruri olaraq gənclik dövrünə aid olur. “Tələbə” sözündə elm istəmək və bilgi axtarmaq da var.

**Tələbənin yolunu azması**

Tələbə gələcəyə, gələcək də ona məxsusdur. Baxın, “tələbə” sözünün bu məzmunu çox mühümdür. Buna görə də gəlin belə bir nəticə alaq: əgər tələbə düşüncə və siyasi baxımdan yolunu azsa, böyük fəlakət baş verər. Doğrudurmu?

Tələbə öz şəxsi həyatını yaxşılaşdırmaq üçün dərs oxusa və başqa məsələlərə biganə yanaşsa, bu, çox böyük təhlükədir. Tələbənin cəmiyyətə, onda baş verənlərə əhəmiyyətsiz, maraqsız və laqeyd yanaşması çox böyük dərddir.

**Laqeydlik**

Fərz edin, tələbəyə deyilir ki, xalqın bir qismi əqidə və düşüncə baxımından fəlakət içindədir. O isə çiynini çəkib deyir ki, mənə nə! Sanki deyirlər filan bölgənin əhalisi zəlzələ nəticəsində məhv oldu, o isə çiynini çəkib deyir ki, mənə nə! Xalqın bir hissəsi məişət baxımından ağır durumdadır, o isə çiyinlərinin çəkir və deyir ki, mənə nə! Belə laqeydlik haləti çox böyük bəladır.

**Gəncin mənəvi fəlakəti**

Sabah məmləkəti idarə edəcək bir insanın cəmiyyətin və xalqın taleyinə bu qədər etinasız yanaşması çox nigaranedicidir. Bundan da nigaranedici odur ki, laqeyd deyil, həssasdır, lakin mənfi həssaslığı var. Yəni misal üçün, cəmiyyətin bir hissəsinin zəlzələ nəticəsində məhv olmasını istəyir. Zəlzələ aydın fiziki bir zərərdir. Bundan da pisi heç kəsin diqqət yetirmədiyi mənəvi

zərər və fəlakətlərdir. Misal üçün, ürəyi istəyir ki, xalq ehtiraslara qərq olsun, imansızlıqda boğulsun və özü hansısa məqsədinə çatsın.

**Tələbənin taleyi**

Görün tələbə məsələsi nə qədər həssasdır. Əgər biz tələbənin mənasına və tələbə adında yatan analayışlara diqqətlə nəzər salsaq, kim oluruqsa-olaq - özümüz tələbə, müəllim, ali təhsil məmuru, dövlət məmuru, küçədə yol yeriyən adi bir insan belə olsaq da, tələbə təbəqəsinin taleyinə çox diqqət göstərərik. Əgər tələbənin kim olduğunu bilsək, onun taleyi haqda da çox məsuliyyət hiss edərik.

Xoşbəxtlikdən, məndə bu həssaslıq inqilabdan qabaq yaranıb. Buna görə də, ömrümün əsas hissəsi tələbələrlə keçib. İnqilabdan qabaq Məşhəddə getdiyim məscid tələbələrin mərkəzi idi. İnqilabın

əvvəllərində, yəni universitetin əks-inqilabçı qüvvələrin nizamsız döyüş komitəsinə çevrilməsindən qabaq da həmişə universitetə get-gəl etmişəm.

## Universitetin inqilabçı qüvvələri

Siz inqilabın əvvəllərində universitetdə deyildiniz. O zaman kiçik idiniz, tələbəlik vaxtınız çatmamışdı. Mən o zaman hər həftə məscidə gəlir, namaz qılır, söhbət edir, suallara cavab verirdim. Hətta günlərin bir günü Tehran Universitetində qanunsuz partiyaların üzvü olan tələbələr universitetdəki inqilabçı qüvvələri məhv etmək istəyirdilər. Universitetdə hər yeri dəhşət bürümüşdü. Təsadüfən, o gün günortadan qabaq mənim bir işim vardı. Ümumiyyətlə, o zaman - inqilabın birinci ilində mənim çoxlu işlərim olurdu. İşimi görüb günorta çağı universitetə yola düşdüm.

İki-üç korpus uşağı mühafizəçi kimi mənimlə idilər. Dedilər ki, getməyin, bu gün universitet təhlükəlidir. Dedim ki, yox, elə məhz bu gün universitetə getməliyik, zamanı indidir. Tehran Universitetinə gəldim. Heç kəs yox idi. Universitetin məscidində bəlkə 4-5 nəfər var idi, onlar da dedilər ki, tez buradan gedin, təhlükəlidir. Əgər o qruplar məni uzaqdan tanısaydılar, kim olduğumu bilsəydilər, doğrudan da ciddi təhlükə yaranardı. Uşaqlar qorxub bizi universitetdən çıxardılar.

**Tələbələrlə əlaqə**

Sonra prezidentlik dövründə də, işlərimin çoxluğuna rəğmən, bəzən universitetə gəlirdim. Bəlkə də bəzilərinizin yadınıza gəlməz, Tehran Universitetinə və digər universitetlərə get-gəl edirdim. Çıxış edirdim, suallara cavab verirdim. İndi də gələcəyəm. Hər halda, ayrılıq düşən bu bir

neçə ildə özüm heç zaman buna razı olmamışam. İnşallah, proqramlaşdırıb yenə də müxtəlif universitetlərə, o cümlədən Tehran Universitetinə gələcəyəm. Tələbə təbəqəsinin əhəmiyyətinə görə universitetlə əlaqəmi kəsə bilmərəm.

### “Tələbə Bəsici” adının əhəmiyyəti

Tələbə Bəsici - yəni iki sözün birləşməsi və nəticədə siz. Bu, çox böyük bir iddiadır. Sizin malik olduğunuz bütün nəcibliklərə və yaxşılıqlara, mənim sizi doğrudan da sevməyimə baxmayaraq, iddianız çox böyükdür. Yəni “bəsic” sözündə olan bu məna çox mühümdür. “Tələbə” sözündə olan məna da çox əhəmiyyətlidir. Fərqi budur ki, “bəsic” sözündə həqiqi bəsiclik çox əhəmiyyət kəsb edir. Lakin “tələbə” sözündə həqiqi tələbəlik mühüm deyil, kim universitetə girsə, tələbə olur. Burada

tələbəlik vəzifələrinə tam əməl etmək çox mühümdür.

**Bəsicin qanadları**

Mənim fikrimcə, burada sizin bəzi suallarınızın cavabı aydın olur. Məlumdur ki, universitetdə Bəsic üzvü olduqlarını iddia edən və tələbəlik vəzifələrinə əməl etmək istəyən bir qrup gəncin siyasi işinin heç bir həddi-hüdudu yoxdur. Bəli, siz bir partiya kimi olmamalısınız. Əgər bir partiya və birlik olsanız, digər təşkilatlar sizə rəqib olacaq. Lakin Bəsic heç bir təşkilatın rəqibi deyil, yalnız inqilab əleyhdarı olan təşkilatlara rəqibdir. O, digər təşkilatları öz qanadları altına alır. Bəsic belədir. Necə ki, müqəddəs müdafiə dövründə, inqilabın əvvəllərindən həmişə müxtəlif şəxs, cinah və qrupları öz qanadları altına alan mərkəz olub.

**Prinsipləri müdafiə**

Çalışın hamını öz qanadlarınız altına ala biləsiniz. Kim sizin qanadınızın altına gələcək? Sizin prinsiplərinizi qəbul edənlər. Prinsiplərinizdən yayınmayın, tam diqqətlə qoruyun. Əks təqdirdə, Bəsic sözü uyğun gəlməyəcək və başqa bir şey alınacaq. Əgər sözün həqiqi mənasında Bəsic olmaq istəyirsinizsə, öz inqilabçi və dini prinsip və təməllərinizi diqqətlə qorumalı, onların üzərində dayanmalısınız.

**Əməkdaşlıq və üzvlük**

Eyni zamanda siyasi mövqe və qrup maraqları baxımından, hər kəs hər hansı təmayüllə sizin qanadınız altına girmək, sizinlə işləmək və savabınıza şərik olmaq istəsə, qəbul etməlisiniz. Əlbəttə, sizin üzvünüz olması vacib deyil, çünki üzvlüyün də şərtləri olmalıdır. Prinsipcə, siz bunları məndən yaxşı bilirsiniz, çünki işin

içindəsiniz. Üzvlüyün şərtləri ola bilər, lakin əməkdaşlığın şərti olmamalıdır.

Buna əsasən, mən elmi, yaxud siyasi işlər üçün fikrinizin, əsaslarınızın, dini və siyasi mövqelərinizin yaratdığı məhdudiyyətlərdən başqa heç bir məhdudiyyət görmürəm.

**Gəncin problemi**

Mənim əzizlərim! Gəncin mühüm bir problemi var. Gəncdə gözəllik, üstünlük, yaxşılıq, istedad və imkanlar cəm olub. Qocalığa sarı getdikcə bu potensiallar dayanmadan azalır. Hətta mənəvi baxımdan inkişaf etmiş olsanız da, aktual imkanlar yaranacaq, lakin istedad və potensiallar durmadan azalır. İstedad, bacarıq və potensiallar çox mühüm amillərdir.

Gəncin varlığında bütün bu müsbət, yaxşı və gözəl cəhətlərə rəğmən, onun böyük bir problemi də var və o, dəyişkənlikdir; yəni

dönüş ehtimalı. Yaş artdıqca bu ehtimal azalır. Bu problemə qarşı diqqətli olun. Özünüzdə və digərlərində bu problemə əlac qılın. Elə edin ki, əqidədə möhkəm və dönməz olasınız.

Görün dualarda yəqin sabitliyindən nə qədər oxuyursunuz. Cümə gününün səhər duasında: "Bizə sabit və dəyişməz yəqin bəxş et!"[18] , ramazan ayının duasında da: "İlahi, səndən elə bir iman istəyirəm ki, sənin görüşünə nail olmayınca müddəti bitməsin"[19] - deyirsiniz. Yəni Səndən elə bir iman istəyirəm ki, Səninlə görüşənə qədər bitməsin, qalsın; nə qədər ki, məni yaşadırsan, bu imanı da mənimlə yaşat[20], canımı alanda imanla al, hətta qiyamətdə dirildəndə də bu imanla dirilt.

---

18 "Misbah əl-mütəhəccid", səh. 279.
19 "Əl-İqbal", c. 1, səh. 173.
20 Yenə orada.

**Gənc və ayıqlıq**

İmam özünün Əbu Həmzə kimi mənalı bir duasında Allahdan nəyi istəyirsə, bu, onun qəti ehtiyac olduğunu göstərir. Diqqət yetirirsiniz?

Gəncə dəyişməzlik lazımdır və bu dəyişməzlik də öz-özünə əldə olunmur, onu əldə etmək lazımdır. Gənc həmişə dəyişkənliyə hazırdır. Əlbəttə, demək istəmirəm ki, hər bir gənc belədir. Hər halda, bu dəyişkənlik digər potensiallar kimi gəncdə mövcuddur. Bu, bir baxımdan yaxşı xüsusiyyət deyil, bir baxımdan isə yaxşıdır. Çünki bunun özü də bir dəyişiklik, inqilabdır. Bundan da istifadə etmək olar. Davamlı olaraq yaxşılaşmaq və ucalmaq mümkündür. Lakin ehtiyatlı olmalısınız ki, bu, sürüşməyə, yoldan çıxmağa və Allahdan uzaqlaşmağa bais olmasın, uçurumlardan yuvarlanmaqla nəticələnməsin.

**Dərin və şəffaf iman**

Siz çalışdığınız universitetin gənclərinə bu baxışla baxın. Onun qarşısını necə almaq olar? İmanın şəffaflaşması və dərinləşməsi ilə. Bacardığınız qədər imanınızı dərinləşdirməyə və şəffaf etməyə çalışın. Bu, çətin deyil, çox asandır, bir baxımdan ən asan işdir. Nə üçün? Çünki sizin iman bəslədiyiniz həqiqət eşq bəsləmək üçün həm dini, həm də siyasi baxımdan ən güclü, ən möhkəm, ən etimadlı və ən diqqətəlayiq məsələdir. Həm bizim inqilab təfəkkürümüz belədir, həm də din təfəkkürümüz.

**Xeyir-bərəkətin qaynağı**

Bizim din təfəkkürümüz qüdrət, gözəllik və varlıq mənbəyi olan Allahla mənəvi əlaqədir. Bu əlaqə nə qədər çox olsa, bir o qədər yaxşıdır. Bu iman nə qədər güclü, bu dəlillər nə qədər möhkəm olsa, bir o qədər yaxşıdır. Xoşbəxtlikdən, bu gün böyük

müəllimlər var. Siz indi cənab Məhəmmədi İraqi və digər bəzi qardaşlar haqqında danışdınız. Xoşbəxtlikdən, bunlar alimlər və dəyərli insanlardır. Bunlar yaxşıdırlar. Bunlardan maksimum istifadə edə bilərsiniz. Qumda cənab Misbah və digər böyük müəllimlər mövcuddur. Bacardığınız qədər onlardan bəhrələnin. Onlar elm və düşüncə baxımından çoxlu xeyir-bərəkət mənbəyi ola bilərlər.

**Bəsic təfəkkürü**

Siyasi baxımdan sizin təfəkkürünüz elədir ki, inqilab düşmənlərinin bütün informasiya şəbəkələri ona qarşı səfərbər olunub. Onlar da sizin Bəsicinizə qarşı, yəni batil yolda bəsic (səfərbər) olublar; bu təfəkkürü və bu məqsədi vurmaq, xalqların gözündən salmaq, beynindən çıxarmaq üçün səfərbər olunublar. İndiyə qədər bu qədər təbliğatlara rəğmən, bacarmayıblar. Bizim

səsimiz Tehranla Mazandaran arasındakı dağlarda radiodan əməlli-başlı yayımlanmır, lakin onların səsi bizim kəndlərimizin hər bir tərəfində, hər yerdə və dünyanın çoxlu yerlərində yüz dildə eşidilir.

**Bəsicin keyfiyyət azlığının əlacı**

Eyni zamanda siz baxın, bu gün İslam dünyasının hər hansı nöqtəsində imamın adı çəkiləndə inqilab və İran xalqı yada düşür, ona hörmət və əzəmətlə baxırlar.

Sizin inqilab təfəkkürünüz və seçdiyiniz düzgün siyasi yol xalqın istiqlaliyyət, şərəf və izzət yoludur. Sizin mənfi cəhətiniz yoxdur. Bu imanı digər gənclərdə möhkəmləndirə, gücləndirə bilərsiniz. Bu işi görün. Mən bu məqamı vurğulamaq istəyirəm, xoşbəxtlikdən, sizin özünüz də buna toxundunuz və dediniz ki, Tələbə Bəsici təşkilatı keyfiyyət baxımından

inkişaf etməyib. Mütləq buna əlac qılın və çarə tapın.

**Laqeydləri cəlb etmək**

Universitet gənclərin mərkəzi və gənc də müxtəlif istedadlara, o cümlədən inkişaf və qəbul etmək istedadına malik olduğundan, düşmən də həmin cəhətdən istifadə edir. Sizin işiniz çox da çətin deyil. Əgər universitetdə olan çoxsaylı laqeyd gəncləri və yalnız təhsildən ötrü gələn gəncləri həm din, həm siyasət sahəsində öz fikir hədəfinizə çevirsəniz, mənim fikrimcə, universiteti fəth edərsiniz.

**Ağıllı iş**

Tərəzinin ağır gözü sizin tərəfinizdir. Bunu yəqin ki, bilirsiniz. Əsla nigaran olmayın. Əgər universitetdəki işiniz fəal, ağıllı, müstəqilliyə arxalanan və təbii ki, bəzi tələbə şərtləri, o cümlədən dərs oxumaqla,

tədqiqatla və elmi inkişafla yanaşı olsa, bütün tərəf-müqabilləriniz sizin istədiyiniz məqsədə və getdiyiniz səmtə yönələrlər; təbii ki, xəstələrdən başqa.

**Xarici təlqin**

Universitetlərdə müşahidə olunan bəzi səhvlər əksər hallarda universitetin xaricindən təlqin edilənlərdir. Bunu unutmayın. Bu, tələbə təbəqəsinə aid deyil, xaricdən müxtəlif mərkəzlərə təlqin edilən məsələlərdəndir.

**Məscid**

Orada paklıq, həqiqətə və mənəviyyata meyl mövcuddur. Bundan istifadə edin. Məscidin hörmətini saxlayın. Məscid çox yaxşıdır. Yaratdığınız birlikləri ağıllı, dərin və alim insanlarla gücləndirin.

Əlbəttə, mən soruşmadım, siz də demədiniz ki, indi Tehran Universitetində

qız və oğlanlardan ibarət Bəsicin nə qədər üzvü var və ümumilikdə bütün universitetlərdə nə qədərdir. Statistika varmı?[21] Dörd min nəfər. Çox yaxşıdır. Yuxarı rəqəmdir.

**Tələbələrin həvəsi**

Bu çoxsaylı üzvlər könüllü surətdə Bəsicə yazılanlardır. Bu, çox yaxşıdır. Deməli, onlar tərəfindən həvəs var. Onları qorumaq, yeniləri cəlb etmək, keyfiyyəti artırmaq və inkişaf etdirmək üçün bir mərkəz lazım idi. Əgər nöqsan varsa, bu baxımdandır. Deməli, tələbələrdə həvəs var. Bunu dəyərləndirməliyik. Bu, çox yaxşı bir şeydir.

**Düzgün təyin**

[21] Hesabat verən dedi: "Tehran Universitetində 4000 nəfərdir".

Düşünürəm ki, nümayəndəlik orqanındakı qardaşlar da yaxşı və mömin gəncləri mütləq bizim kimi sevəcəklər. Şübhəniz olmasın. Onlar da mənim kimi sizi çox sevirlər.

İnşallah, müvəffəq olasınız. Ölkənin cari məsələləri, siyasi məsələrləri barədə həmişə düşünün. Düzgün yollarla düzgün qənaətə gəlin və onun üzərində təkidlə dayanın. Doğru olan budur. Əgər insan bəzi yanlış anlaşmalara düçar olsa və öz qənaətinə əsasən, Allah-Taalanın istədiklərini yerinə yetirsə, Allah da kömək edər. Yəni bu baxımdan heç bir nigaranlıq yoxdur. Allah-Taala kömək edəcək.

**Allahın yardımı**

Quranda bir neçə dəfə aydın şəkildə vəd verilib ki, Allaha kömək etsəniz, Allah-Taala da sizə kömək edəcək: "Əgər siz Allaha yardım göstərsəniz, O da sizə yardım

göstərər”[22] ; “Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər”[23] . Bundan daha aydın nə lazımdır?! Daha Allah-Taaladan nə istəyirik?! Açıqca və qətiyyətlə deyir ki, Allah-Taala Ona kömək edənlərə kömək edəcək.

Allahın köməyi nədir? Allahın köməyi budur ki, insan Allahın yolunu hamarlamaq, yolçularını artırmaq və bu yolda hərəkət edən xalqa kömək etmək barədə düşünsün. Bu elə Allahın yardımıdır. Allah da yardım edəcək. İndiyə qədər də yardım etmişdir.

**Düşmənin nigaranlığı**

Siz elə bilməyin ki, bu ixlas və bu yaxşı niyyətlər olmasaydı, ölkənin vəziyyəti yenə də belə olardı. Heyf ki, xəbər qaynaqlarına əliniz çatmır. Vaxtınız da buna imkan vermir.

---

[22] Məhəmməd/7.

[23] Həcc/40.

Bəlkə dünyanın müxtəlif xəbərlərinə varmağa lüzum da yoxdur; yəni işlərinizdən geri qalarsınız. Lakin biz bunların içindəyik. Bilsəydiniz, İranın indiki vəziyyəti güclü düşmənlər üçün nə qədər nigaranedicidir və narahatlıq doğurur!

**Mövcud vəziyyət**

Ölkənin siyasi vəziyyəti, mövcud sabitlik, bu gün ölkədə ilahi hədəflərə sarı duyulan düzgün yönəlmə - bütün bunlar onlar üçün nigaranedicidir. Digərləri müxtəlif formalarda çox təhlil edirdilər. Bütün bu sözlərdən, qalmaqallardan və yaratdıqları ajiotajdan sonra çoxlu uğur əldə etdiklərini düşünüb sevinir, əl çalırdılar. Lakin Qüds günü gördünüz ki, nə baş verdi. Bunlar çox mühümdür.

**Allahın iradəsi**

Allah-Taala bizə kömək etməkdədir və bu kömək inşallah, hələ çox davam edəcək. Allahın iradəsi budur ki, bu xalqı bu yolu və bu məqsədləri qorusun, müdafiə etsin. Səbəbi də budur ki, xoşbəxtlikdən, bu yolda çoxlu insanlar ixlasla və Allah üçün çalışırlar, Allaha kömək etməkdədirlər. Allah-Taala da vəd vermişdir. Allah-Taala danışanların ən doğruçusu və əhd edənlərin ən vəfalısıdır. O, əhd etmişdir. İndi öz əhdinə vəfa etməkdə, bizə kömək göstərməkdədir.

**Problemlər**

Sizin gördüyünüz bu problemlər, çatışmazlıqların – yaddan çıxarmayın ki, dünyada yaşayırsınız - bənzəri və ya daha pisi hər yerdə var. Düzdür, problemlər hər yerdə eyni deyil. İnsan bəzən öz problemlərini görür və uzaqdan başqa yerlərə baxıb onların problemlərinin olmadığını zənn edir; elə bilir ki, bu

problemlər təkcə ona aiddir. Lakin eyni zamanda bəziləri aradan qaldırılmalıdır. Bunda şübhə yoxdur. İnşallah, sizlər işlərin başına keçin və bu problemlərin qalanını da aradan qaldırın. Yaxın gələcəkdə məmləkətin işlərini sizlər öhdənizə götürəcəksiniz. Bunlar düzələcək. Heç bir şübhə yoxdur.

**Prinsiplər üzərində möhkəm dayanmaq**

Bu problemlər əhəmiyyətli deyil. Bunlar ətrafda bizlərin pis çalışmamızdandır. Allahın lütfünün təbiəti isə daha aydın və daha aşkardır. Çox qəribə şeylər müşahidə olunur. İnşallah, bundan sonra da Allahın lütfü olacaq və Allah kömək edəcək. Siz möhkəm, ayaqda, əsas prinsip və inamlarınızdan azca da yayınmadan və geri çəkilmədən universitetdə olun. Siz mühüm bir yer seçmisiniz. Bu, çox əhəmiyyətli səngərdir. Hansı biriniz universitetdən çıxsa,

mütləq öz yerinə kimisə hazırlasın. Xüsusən də birinci kurs tələbələrinin yanına gedin, onları başa salın, dəstəkləyin ki, bu yolu davam etdirsinlər. Allah-Taala da bu işlərə kömək göstərəcək. İnşallah, müvəffəq olasınız.

## Universitetlətin İslama uyğunlaşmasının göstəriciləri[24]

Bismillahir-Rəhmanir-Rəhim.

Əziz bacı və qardaşlar! Çox xoş gəlmisiniz. Belə gözəl toplantıya çox şadam. Çünki siz həm elm adamısınız, həm də elm mərkəzlərinə rəhbərlik edirsiniz. Siz həm alim kimi dəyərlisiniz, həm də alim yetişdirən kimi. Hər halda, çox yaxşı bir toplantıdır. Düşünürəm ki, hər iki nazirliyin ayrı-ayrı işləri üçün keçirdiyi bu toplantı səmərəli olacaq. Mən universitet barədə bir neçə söz demək istəyirəm.

---

[24] Ölkə üzrə universitet rektorları ilə görüşdə çıxışı: 25 fevral 1998.

Unviersitet haqqında çox danışılıb. Həm biz danışmışıq, həm də illərdir ideal formanı təsvir etmək üçün hər kəs ölkə universitetlərinə aid bir söz deyir. Allaha şükür olsun ki, yaxşı nailiyyətlər əldə olunub. Cənab Doktor Müinin oxuduğu gözəl mətndə deyildiyi kimi, doğrudan da biz İslam inqilabından sonra ölkə universitetlərinin kəmiyyət və keyfiyyətində böyük dəyişikliyin şahidi olmuşuq. Kəmiyyət baxımından məsələ aydındır. Siz görün ölkədə nə qədər ali təhsil müəssisələri mövcuddur.

**Kəmiyyət**

Ucqar şəhərlərdə heç zaman ümid etməzdilər ki, ali təhsil üçün hətta kiçik bir mərkəzləri olsun. Onların bəzilərində tam orta məktəb də yox idi, indi isə dövlət və özəl universitetlər mövcuddur. Deməli, kəmiyyət baxımından həqiqətən çox inkişaf etmişik.

Əlbəttə, demirik ki, kəmiyyət hər şeydir, lakin bu süfrəni açmağın özü çox əhəmiyyətli işdir. Qoy hamı ondan istifadə edə bilsin.

**Amalçılıq**

Keyfiyyətə gəldikdə, əxlaqi və mənəvi keyfiyyət göz önündədir. Çox işlər görülüb. Elmi baxımından da bəzi yerlərdə doğrudan da çox yaxşı işlər görülüb. Siz onlarla bəlkə bizdən də artıq tanışsınız. Hər halda, mənim əzizlərim, biz amalçılığı bir prinsip seçmişik. Bizə deyilib ki: "Biz Ona tərəf qayıdacağıq"[25] ; və yaxud "Sən Rəbbinə doğru çalışıb çapalayırsan. Sən Ona qovuşacaqsan!"[26] . İnsanın hərəkətinin məqsədi Haqq-Taalaya və mütləq həqiqətə qovuşmaqdır. Bunda bizə bir mesaj var. Mesaj budur ki, heç bir hədlə kifayətlənmək olmaz.

---

[25] Bəqərə/156.
[26] İnşiqaq/6.

**Daha yaxşı vəziyyət**

İslam Respublikasında İslamın və bu quruluşun özünün xalqa verdiyi vədlərə, bizlərin təsvir etdiyimiz gələcəyə əsasən, ölkəmizin universitetlərinin vəziyyəti bundan daha yaxşı olmalıdır. Lakin indi fikrimcə, işlərin inkişafına zəruri olan bəzi məqamları deyəcəyəm. Bunların çoxu sizə aydındır; həm xatırlatmadır, həm də ondan ötrüdür ki, digərləri - xüsusən də ölkənin vəzifəli şəxsləri və universitetə aid işlərlə məşğul olanlar eşitsinlər, bu sözləri ciddi qəbul edib universitetlə maraqlansınlar.

**Elm**

Universitet ölkənin gələcəyi qədər əhəmiyyətlidir. Biz gələcəkdə böyük, abad, inkişaf etmiş, mütərəqqi, sivil, həm maddi və həm mənəvi yönümlü bir ölkə istəyiriksə, universitetlə məşğul olmalıyıq; başqa çarə

yoxdur. Bizim hər bir şeyimiz elmə əsaslanmalıdır. Bu gün elm və elmi baxış olmadan dünyada bir addım atmaq və uğur qazanmaq olmaz. Düzdür, insan ziyanın qarşısını almaq istəməsə, gözübağlı da yola çıxmaq olar. Lakin ölkənin bütün işlərində, ümumi idarəçilikdə, xüsusən də xalqa sıx bağlı bir ölkənin böyük və ümumi məsələlərinin koordinasiyasında, ölkə quruculuğunda, hətta ölkənin əxlaq və mənəviyyatının inkişafında da elm açıq göz sayılır.

**Elmi inkişaf**

Bu gün dünyanın anbaan böyük addımlar atdığı mütərəqqi texnologiyada biz həmişə müştəri və istehlakçı kimi onların arxasınca qaçmalı, onlardan istifadə etməli, bəzən surətini çıxarmalı və yaxud təqlid etməliyik?! Bütün bu sahələrdə bizim elmi inkişafa ehtiyacımız var. Cəmiyyətdə elmi

inkişaf olmasa, heç şübhəsiz, ölkənin sabahı böyük problemlərlə qarşı-qarşıya qalacaq. Bəllidir ki, maddi dünyanın qazandığı uğurlar elmin köməyi ilə əldə edilənlərdir.

**Elmin dəyəri**

Elmin maddi və mənəvisi olmur. Elm elmdir, bilməkdir, əziz və dəyərlidir. İnsan mütləq elm öyrənməlidir. Elm hərəkətdə olan insanın görən gözüdür, həmişə onun arxasınca getmək lazımdır. Siz bilir və görürsünüz ki, başqaları belə etdilər.

**Elmin səmərəsi**

Avropa tarixini oxuyan adam avropalıların tipik kobud olmalarına şübhə etməz. Ütülü paltarda, qalstuklu və ətirli zahiri görkəmin çox kobud və qaba daxili var. Bu, onların ədəbiyyat və mədəniyyətlərində də aşkar görünür. Oraya getməyən və onları yaxından görməyən

bəlkə də bunu dərk etməz, amma gedib görənlər bu haqda çoxlu əhvalatlar danışırlar və insan nə olduğunu başa düşür. Belə xarakterə malik bir xalq bu gün bütün dünyaya hegemonluq edir və dünya da onun sözünü qəbul edir. Bu, elmə görədir. Görün elm nə qədər əhəmiyyətlidir.

**Elm və ehtiyac**

Elmləri olanda, sizin həyati əhəmiyyətli neft yataqlarına malik olmanıza baxmayaraq, təbii ki, ona ehtiyaclı olacaqsınız, buna məcbursunuz. Amma əslində, o sizə ehtiyaclı olmalıdır, çünki sizin neftiniz olmasa, onun zavodları işləməz, işıqları yanmaz, soyuq havada qızına bilməzlər. Hər bir şeyləri sizin neftinizdən asılıdır, amma eyni zamanda siz onlara ehtiyaclısınız, onlar sizə və hətta sizin neftinizə də hökm edirlər.

**Elm və qüdrət**

Bu, elmin xüsusiyyətidir. Elm qüdrət amilidir. Elmi əldə etmək lazımdır, bundan başqa çarəmiz yoxdur. Qeyd etdiyim kimi, gələcəkdə ölkənin ümumi idarəçiliyindən tutmuş quruculuq işlərinə, şəhərlərin gözəlləşdirilməsinə və səhiyyəyə qədər bütün sahələrdə ölkənin inkişaf halında olmasını istəyirsinizsə, elmli olmalısınız; özü də daxildən çağlayan elm. Bizə elmin çeşməsi lazımdır, hovuzu yox. Siz özünüz elmlə aşıb-daşmalısınız. Əgər digərləri elmi çıxarıb onun artığını bizə versələr, - həm də adətən, köhnə artıqları verirlər, elmi yeniliklər özlərində qalır - vəziyyət dəyişməyəcək, bəlkə daha pis olacaq.

**Elmi çalışmalar**

Onların inkişaf sürəti çoxdur. Mən bir dəfə misal çəkdim ki, siz velosipedlə gedirdiniz, o özünü motosikletə çatdırdı, irəliyə düşdü və sonra özünü təyyarəyə

çatdırdı. İndi məsafə çoxalıb. Amma siz hələ də pedal vurub irəliləyirsiniz. Belə olmaz. Özünüzü təyyarəyə çatıdrmalısınız. Bundan başqa çarə yoxdur. Qısa yol tapmalısınız və bu da yalnız elmlə mümkündür. Heç kəs iddia edə bilməz ki, elm yalnız qərblilərin əldə etdikləridir və onun qapısı bağlanıb. Xeyr! Heç kəs iddia edə bilməz ki, elmdə bir addım irəliləyiş mütləq indiyədək elmi olanlara məxsusdur. Əlbəttə, irəliləyiş onlara daha asandır, lakin təkcə onlara məxsus deyil, elmi işlə, çalışmaqla hamıya mümkündür. Bunun şərtləri var.

**Elmi istedad**

Əziz qardaş və bacılar! Proqram hazırlayın. Elə edin ki, 20 ildən sonra bu ölkədə elmi istedadı olan bir şəxs dünyanın elmi toplumlarında baş qaldıra bilsin və ölkəmiz bu baxımdan dünyada söz sahibi olsun. İndi belə deyil. Hətta bizim işlədiyimiz

və bizdə tarixi kökü olan elmlərdə, hətta əxlaq elmində də onlar bizdən çox kitab yazmış, çox araşdırma aparmışlar.

### Ən böyük cinayət

Belə olmaz. Biz çalışmalı, elmi işlər görməliyik. Qacar və Pəhləvilərin şahlığı dövründə bu ölkənin başına gətirilən və adətən, diqqətdən kənarda qalan ən böyük faciələrdən biri budur ki, dünyada elm qapılarının açıldığı zaman onlar İranı bir dalanda saxlayıb, hərəkət və inkişafa qoymadılar. Ən böyük cinayət budur. Bu, öldürməkdən, yandırmaqdan, həbsə salmaqdan və işgəncə verməkdən qat-qat ağırdır. Bu, neftin pulunu mənimsəməkdən və əcnəbiləri hakim etməkdən ağırdır. Bu, çox mühüm məsələdir, amma heç kəs buna diqqət yetirmir.

### Elm axtarışında

Bu gün elmlə məşğul olmalı və elm öyrənməliyik. Elm haradadır? Universitetdə. Siz də universitetlərin başçılarısınız. Nə bacarırsınızsa, edin. Bu işlər görülməlidir, başqa yol yoxdur. Bu gün ölkəmizdə elm zəifdir. Əgər elm olmasa, texnologiya da olmaz, texnologiya olmasa, həyat axsayar və siz yoxsul olub başqalarına əl açarsınız. Bu gün onlar bazara kompüter çıxardılar. Nə bilirsiniz, bəlkə sabah elə bir şey ixtira edəcəklər ki, kompüter sıradan çıxacaq və gerilik sayılacaq. Siz indi qaçın ki, çatasınız.

**Rektorların işi**

Çox gözəl. Siz elm sahəsində inkişaf edin, bu işdə şərik olun. Ölkənin elmi məsələləri barədə arzularım bunlardır. Yoxsa nə üçün universitetlərin rektorları gəlib deyirlər ki, doktorantura pilləsində bir neçə fənn açdıq və filan işləri gördük?! Çox

gözəldir, amma məsələ daha ciddidir. Bu sözləri harada deyək?!

Mədəni İnqilab Ali Şurası mənimlə əlaqədədir. Cənablar təşrif buyururlar, bəzən də mən müraciət göndərirəm. Mən israrlıyam ki, universitet məsələləri orada bir qədər az müzakirə olunsun. Çünki bütün məsələlərin orada müzakirə olunması yaxşı deyil. Bu işlər sizin özünüzə aiddir. İndi ki, siz toplaşmısınız, bu işi görün.

**Elmi strategiya**

Cənablar ölkənin təhsil sisteminə və idarəçiliyə yenidən baxışa aid bəzi sözlər dediklərindən, dedim ki, mən də yenidən baxış tərəfdarıyam. Nəticənin nə olmasını demək istəmirəm. Nəticə nə olursa-olsun, yenidən baxış yaxşıdır. Yəni təhsil idarəçiliyinin vəziyyəti barədə düşünmək çox yaxşıdır. Bu işi mütləq görün.

Bundan daha əhəmiyyətlisi odur ki, ölkə üçün bir elmi strategiya hazırlayın. Ölkənin strategiyası nədir? Görün, elmi baxımdan bizim ölkəmiz haradadır, haraya çatmalıdır, hansı istiqamətlərdə hərəkət etməlidir. Əvvəl bunu hazırlayın, sonra görək ümumiyyətlə, bu fənn üzrə bu qədər sinif və bu qədər müəllim olmalıdır, yoxsa yox. Bu məsələlərin özünə də şübhə edə bilərik. Yaxud diqqətdən kənarda qalan hansısa fənnə əlavə diqqət lazımdır, yoxsa yox.

**Elmi məsuliyyət**

Bu yalnız sizin əlinizlə mümkündür. Siz etməsəniz, ölkədə heç kəs bunu etməyəcək. Demək istəyirəm ki, bu gün bu məsuliyyət sizin üzərinizə düşür. Nazirlər də bu işi sizin əlinizlə görməlidirlər, başqa yolla mümkün deyil. Bu məsələlər üzərində düşünün. Əlbəttə, hökumət etməlidir. Yəni

dövlət qurumları bu işə rəhbərlik etməlidirlər. Lakin işi görən sizlər və sizin mərkəzlərinizdə elmi işlərlə məşğul olanlardır.

**Möhtəşəm və heyrətamiz hərəkət**

Deməli, birinci tövsiyə ölkənin gələcəyi üçün universal elmi proqram hazırlamaqdır. Demirəm bu proqram 20 illik, yaxud 25 illik olsun. Onun üçün zaman təyin edə bilərsiniz, məncə edəcəksiniz də. Bu zaman 10 illik, yaxud 20 illik ola bilər. Çünki bu gün elm elə bir şey deyil ki, insan çox ehtiyatsızlıq etsin və desin ki, 25 ildən sonra. Ümumiyyətlə, 25 ildən sonra elm sahəsində nəyin baş verəcəyini bilmirik. Çünki elmin hərəkəti möhtəşəm və heyrətamizdir. Bəlkə də sizin burada proqramları daha qısa və ölkənin quruculuq proqramlarından qat-qat ixtisarla etməniz lazım ola bilər. Bu, bir məsələdir.

**Ciddilik və qayğıkeşlik**

Hər halda, bu sahədə demək istədiyim budur ki,universitetə və onun idarəsinə ciddi yanaşın. Biri var ki, boynunuzdan yükün düşməsi üçün bir iş görəsiniz. Hər halda, bu da bir idarəçilik və rəhbərlikdir. Biri də var ki, xeyr, ciddi yanaşasınız. Sanki sevimli bir xəstəniz yerə uzanıb. Resept veriblər, biz gedib onun dərmanlarını almalı, yaxud resept yazmaq üçün doktor çağırmalıyıq. Yəni belə qayğıkeşliklə işin ardınca getməlisiniz ki, dediklərimiz həyata keçsin.

**Az bəhrə**

Universitetlərin daxili vəziyyətinə - elm, əxlaq, mənəviyyat, mədəniyyət və tələbə məsələlərinə dair qısaca qeyd etdiyim məsələlər var. İndi imkan olsa, deyəcəyəm, olmasa, başqa vaxta qalsın.

Mənim elmi məsələlər barədə fikrim budur ki, universitetlərdə zamana uyğun

elmi bəhrə götürülmür. Mən universitetlərlə əlaqəsiz deyiləm; buraya bizim yanımıza həm ölkə universitetlərinin rektorları gəlir və bəzən nəsə soruşurlar, həm də tələbələr get-gəl edirlər. Mən universitetdəki bəzi məsələlərdən ümumi olsa da, məlumatlıyam. Mənə verilən məlumatlara əsasən, universitetdən təhsil sahəsində ona qoyulan vaxt qədərincə elmi bəhrə götürülmür. Tədqiqat sahəsi isə daha bərbaddır. O öz yerində. Nisbətən yaxşı vəziyyəti olan təhsildə də bu nöqsan var.

**Tətil məsələsi**

İndi mən bu barədə qənaətlərimi bölüşmək istəyirəm. Əvvəla, universitetlərdə az-çox qanunsuz tətillər var. Dərs ilinin əvvəlində bir neçə gün tətil olur, semestrin sonunda da bir neçə gün tətil olur. Yeni semestrin başlanması, bayram günləri bir neçə gün tətildir. Bunları bir-birinin üstünə

qoysanız, böyük zaman olar. Heyfdir. Tətillərin çoxluğu bir mövzudur.

Yaxud tələbələr imtahan verməyə gedirlər, amma imtahan götürən müəllim gəlib-çıxmır. Bu, baş verib, mənim xəbərim var. İmtahan indi deyil. Bəs nə vaxtdır? Misal üçün, sabah. Ertəsi gün gedirlər, imtahan yoxdur. Nə vaxtdır? Gələn həftə. Yəni universitetin proqramsızlığından irəli gələrək tələbəyə sıxıntı yaranır. Bu bəzən müəllim tərəfindən olur, bəzən də müdiriyyət tərəfindən.

**Mütaliəsiz müəllim**

Başqa bir məsələ müəllimlərin mütaliə məsələsidir. Düzdür, bizim müəllimlərimizin çoxlu problemləri var. Doğrudan da onların dərdinə şərik olmaq lazımdır. Mən sonra bu mövzuya toxunacağam, lakin nəticə budur ki, müəllimlərin mütaliəsi azalıb. Mən özüm uzun illər tədris etmişəm. Əgər müəllim

mütaliəsiz dərsə getsə, yaddaşındakılar nə qədər çox olsa da, demək üçün bir şeyi olmaz.

Mütaliə başqa bir şeydir; xüsusən bəzi elmlərdə mütaliə yeni bilgilər öyrənmək deməkdir. Yəni onun mütaliə etdiyi kitab həmişə qabaqkı illərdə, yaxud təhsil dövründə oxuduğu olmur. Bizim öyrətdiyimiz kitablar və verdiyimiz dərslər özümüzün bir neçə il əvvəl oxuduqlarımız idi. Lakin indi elə deyil və bu elmlər fərqlidir. Bu elmlərdə mütaliənin həyati rolu var. Amma müəllim vaxt tapmasa, misal üçün, həftədə 40-45 saat dərs desə, mütaliəyə vaxtı qalmayacaq.

**Müəllimlə elmi məşvərət**

Başqa bir məsələ budur ki, müəllimlərin tələbələrlə məşvərət saatları azdır. Biz əvvəllər hövzədə deyirdik ki, tələbə müəllimin dalınca düşsə, onunla

evinə, yaxud növbəti tədris yerinə qədər getsə, bir şey öyrənər, belə etməsə, öyrənməz. Çünki müəllim dərsini deyir və gedir. Halbuki universitetdə hər bir müəllimin otağı var. O, otaqda oturur və tələbələr ona müraciət edirlər. Biz bunu universitetin hövzəyə nisbətən üstünlüklərindən hesab edirdik. İndi isə görürük ki, hövzə və universitetin birliyi başqa cür alınıb, müsbət xüsusiyyətlərin əvəzinə bu xüsusiyyətlər bir-birinə keçib. Müəllim vaxt ayırmalı, tələbə də ondan bəhrələnməlidir. Siz görün bu iş tələbədə elmə necə həvəs yaradar və müəllimi nə qədər inkişaf etdirər.

### Zamana riayət etmək

Başqa bir məsələ dərs saatına riayət etməkdir. Mən eşitmişəm ki, universitet müəllimləri bu məsələdə çox da dəqiq deyillər. Sinfə çatdıqda şagirdlərin gecikmə

dəqiqələrini bir-bir qeyd edən, sonra lövhə üzərinə yazan, yaxud özlərinə verib dərsə gecikdiklərini xatırladan müəllim nə yaxşıdır! Bəziləri bunu edirdilər. Lakin indi müəllimin özü dərsə 10-15 dəqiqə, yaxud daha artıq gecikir. Bunlar ilk baxımdan çox kiçik görünür, lakin ümumilikdə bir dərya olur. Nəticəsi və yekunu zamandan münasib istifadə etməmək və vaxta uyğun elmi bəhrələr götürməməkdir.

**Dünyanın elm mərkəzləri**

Elm sahəsində iradların daha birisi dünyanın elm mərkəzləri ilə əlaqənin az olmasıdır. Mən bir neçə il bundan əvvəl bir universitetə getdim. Mənə şikayət etdilər ki, elmi jurnallar almağa pul vermirlər. Dedim ki, pulu nə qədər edir? Çox az bir məbləğ dedilər. Mən o zaman prezident idim, doğrudan da xəcalət çəkdim ki, bu qədər pul

üçün gəlmisiniz. Hökumətə dedim və düzəldi.

Mən elə bilirdim ki, ondan sonra elmi mərkəzlərlə əlaqələr çoxalıb. İndi məlumat verirlər ki, xeyr, bizim universitetlərmizin dünyanın elm mərkəzləri ilə əlaqəsi çox deyil. Mənim fikrimcə, bu əlaqə günbəgün gücləndirilməlidir.

**Kitabxana**

Kitabxana və mütaliə mənbələri də belədir. Problemlərin biri də budur. Bəzi universitetlərin kitabxanaları haqqında məlumat verdilər ki, inqilabdan sonra demək olar, bir kitab belə almayıb. Bu doğrudan da çox acınacaqlıdır: tələbə və müəllimlər mütaliə etmək, araşdırmaq istəyirlər, amma kitab yoxdur.

**Tədqiqat məsələsi**

Mənim fikrimcə, universitetlərdə tədiqiqat işi qərib və məzlumdur. Siz elə etməlisiniz ki, tədqiqat sahəsində təhsilə oxşar iş görülsün, ona da eyni qayğı göstərilsin. Doğrudan da bu işi görməlisiniz, bu diqqət və qayğı vacibdir. Tələbədə elmə həvəs yaradan da tədqiqatdır. Çünki tədqiqatın əksinə olaraq, dərs və təhsil çalışqan və həvəskar tələbə üçün də yorucu olur. Tədqiqatda isə tələbənin özü çalışır. Bu, heç şübhəsiz, universitetlərdə elmə marağı artıracaq.

**Həvəs yaradan tədqiqat**

Biz bu gün tələbələrin elmə marağı baxımından problemlə üzləşirik. Tələbə çalışır ki, semestri tez bitirsin, dərslər qurtarsın və iş dalınca getsin. Təəssüf ki, onların çoxu bitirdikdən sonra da işsiz qalırlar, çünki iş bazarı yoxdur. Bunu düzəltmək lazımdır. Mənim eşitdiyimə görə,

həm daxildə olan, həm də bursla gedib xaricdə təhsil alan tələbələrdə bu nöqsan mövcuddur. Tələbənin elm öyrənməyə və alim olmağa həvəssizliyi mənfi haldır. Mənim fikrimcə, bu həvəssizliyi aradan qaldıracaq amil tədqiqat mərkəzləridir. Bu sahədə çox işlər görülməlidir.

**Müəllimlərin məişət vəziyyəti**

İndi bu münasibətlə toxunmaq istədiyim başqa bir məsələ müəllimlər haqqındadır. Məişət problemləri baxımından müəllimlər üçün əsaslı bir şey fikirləşmək lazımdır. Mənim fikrim həmişə bu olub ki, elm adamı üçün məişət məsələləri ikinci dərəcəli olmalıdır. Hər halda, bu da bir yoldur. Fikrim budur ki, yeni elmin əsasını qoyan və dünyada elmi inkişaf etdirən alimlərin çoxu, ən azı tədqiqat və əsas işlərini görən dönəmdə yaşayış məsələlərinə, rifaha, məişətə, rahatlığa, maşın sürməyə, hansısa

evdə yaşamağa qarşı etinasız olmuşlar. Əlbəttə, nailiyyətlər əldə etdikdən sonra sərvət onlara üz tutub. Bu, başqa məsələdir.

**Zahid alimlər**

Doğrudan da fikrim budur ki, bizim tədqiqatçı və alimlərimiz yaşayışda və dünyaya aid məsələlərdə, nisbətən olsa belə, zahid xarakterə malik olmasalar, işlər lazımi həddə düzəlməyəcək. Bu mənim fikrimdir. Əgər bacarırsınızsa, bu fikri yayın. Özünüz bu sözü qəbul edirsinizsə, çox yaxşı, bu fikri təbliğ edin. Bu, çətinlikləri bir qədər azaldacaq. Lakin nə qədər ki, bu hiss təmin olunmayıb, hər halda, müəllimlərin məişət məsələlərinə, ev və məişət problemlərinə diqqət yetirilməlidir. Qoy bununla artıq get-gəllər, çoxlu dərs saatları, dərs verərkən yuxusuzluq və mütaliəyə diqqətsizlik problemləri aradan qalxsın.

**Alimə hörmət**

Müəllimlə bağlı bir məsələ də elmə və alimə hörmət məsələsidir. Bunlar mütləq lazımdır və hövzə kimi universitetdə də bir qayda olmalıdır. Hövzədə müəllimə dəyər və hörmət tanıyırlar. Hətta tələbələr müəllimləri haqqında adi danışıqlarında "dedi" və "gəldi" sözlərini deyil, daha hörmətli ifadələr işlədirlər və müəllimə qarşı bir növ təəssübkeşlik hissləri var. Bu, çox yaxşıdır. Əgər universitetdə də bu vəziyyət yaransa və müəllim hörmət duysa, əlbəttə, çox yaxşı olar. Əgər cənab nazirlər indi müəllimlər üçün bir iş görə bilsələr, şübhəsiz, bu iş çox faydalı və inkişafa səbəb olar. Baxmayaraq ki, mən yenə də birinci fikrimdə (elm adamlarının nisbətən olsa belə, zahid xarakterə malik olmalarının vacibliyi fikrində) qalıram.

**Din və əxlaqın ümumiləşdirilməsi**

Universitetlə və sizinlə əlaqədar olan məsələlərdən biri də "tələbə, din və əxlaq", yaxud "universitet, din və əxlaq" mövzusudur. Uzun illərdir həm müsəlman olan, məsələlərə dini və iman nöqteyi-nəzərindən yanaşan bizlər, həm də Qərbin çoxlu nəzər sahibləri dünyadakı elmi inkişafın indiki vəziyyətinə ciddi etiraz edirik və edirlər. Sizin hamınız bu barədə mütləq eşitmisiniz və bir çox məsələləri bilirsiniz. Bilirsiniz ki, elmin dindən ayrılığı böyük fəlakətlərə səbəb olub. Bəli, bu haradasa düzəldilməlidir. Gəlin biz bunu sınaqdan keçirək. Necə ki, bu gün bizim alimlərimizin, mütəxəssislərimizin və ölkənin yüksək elmi məmurlarının arasında dindar, əxlaqlı, inqilabçı və həqiqətən, imanlı insanlar, Allaha şükür olsun ki, çoxdur. İnqilab nəsli elm mərkəzlərinin çoxunu tutmuşdur. Bu, çox yaxşıdır, lakin ümumiləşməlidir.

## Universitetin mənəviyyatı

Təəssüf ki, digər tərəfdən, din və əxlaq məsələləri sahəsində bir reaksiya, əksüləməl, yaxud əks-hücum baş verir. Əlbəttə, onlar bir qədər tez başladılar, bunda da naşılıq etdilər. Çünki universitetdə dinə, əxlaqa və mənəviyyata sarı hərəkət hələ zəifləməyib, lakin onlar başladılar. Düzdür, bəzi uğurları da oldu, amma vaxtında başlasaydılar və sizin tərəfinizdən reaksiya olmasaydı, bəlkə də uğurları qat-qat çox olardı. Mənim fikrimcə, universitetlərdə bu məsələni ciddi saymaq lazımdır.

## Universiteti İslama uyğunlaşdırmaq

Baxın, mən bir dəfə universitetləri İslama uyğunlaşdırmaq haqqında danışdım, bəziləri buna əhəmiyyətsiz yanaşdılar, bunun geniş və dərin mənasını görmədilər. Odur ki, universitetlərdə əhəmiyyəti daha az olan məsələlərlə məşğul oldular. Bəziləri də digər

tərəfdən fəryad qopardılar ki, universitetləri İslama uyğunlaşdırmaq beyinlərin qaçışı və ehkamçılıq deməkdir və sair. Baxın, bunlar düşmənin güclü hücumudur. İslama etiqadı olmayanlar onun həqiqi və universal formada universitetə yol açdığını görəndə o qədər əl-ayaqlarını itirirlər ki, ağızlarına gələni danışırlar.

Mən televizora baxırdım, gördüm ki, universiteti İslama uyğunlaşdırmaq barədə boş-boş danışır və bu təşəbbüsü ələ salırlar. Bir neçə nəfər dəyirmi masada əyləşib danışırdı. Halbuki universitetləri İslama uyğunlaşdırmağın dərin və geniş mənası var və mənim fikrimcə, bu, universitetlər üçün hər şeydən vacibdir.

## İslama uyğunlaşmanın meyarları

Universitetin elmli olmasını da istəsəniz, gərək İslama uyğunlaşsın. İslama uyğunlaşmanın meyarlarından biri də elmə

yiyələnmək, dərinləşmək, müəllim və tələbənin özünə güvənməsidir. Məsələ bundan ibarət deyil ki, biri qoluqısa köynəklə gəlsin, yaxud birinin saçının üç-dörd teli görünsün. İslama uyğunlaşdırma bunlar deyil. Düzdür, İslam universitetinin xüsusiyyətlərindən biri budur ki, orada dindarlıq əksər forma olsun. Çünki bizim cəmiyyətimiz İslam cəmiyyətidir və onda dindarlıq əksər formadır.

**Elmin daxildən çağlaması**

İslama uyğunlaşmanın mənası budur ki, cəmiyyətdə ümumiyyətlə, dinsiz və qeyri-dini adam olmasın?! Özünü zahirdə dindar göstərən olmasın?! Xeyr, bunlar var. Kimsə onları cəzalandırırmı?! Kimsə hətta dinsiz olanları və qeyri-müsəlmanları cəzaya məhkum edirmi?! Təqib edirmi?! Deməli, belə deyil. Din əksər forma olmalıdır. Universitetin İslama uyğunlaşmasının

mənası da budur, universitetin dindarlaşması da bu deməkdir. Üstəlik, dindarlıq universitetin İslama uyğunlaşmasının bir hissəsidir, hamısı deyil. Universitetin İslama uyğunlaşması odur ki, elmi özü istehsal etsin. Necə ki, İslam bir gün xalqda bu hissi yaratdı. Hansı ki, elmlə heç bir əlaqəsi yox idi.

**Kitabların məzmunu**

İslam dini elmə ucalıq və şərəf tanıyır; özü də əsl şərəf, alət və vasitə kimi yox. İslam elmi nur bilir. İslama uyğunlaşsa, universitetə bu təfəkkür gələcək; İslam elmləri sahəsində bir formada, digər elmlərdə də başqa bir formada. Biz hətta bəzən humanitar elmlər fakültəsinin dərs kitablarında bunun tam ziddinə sözlər görürük. Görürük ki, əcnəbi qarşısında gücsüzlük, hücum qarşısında iradəsizlik və düşmən qarşısında təslimçilik öyrədilir. Bu,

düzgün deyil. Bu, İslama uyğunlaşmanın tam ziddinədir.

### İslamın universiteti

İslama uyğunlaşmaq - düşüncə ayağının altında olan möhkəm təməl üzərində dayanmaq, onun üzərində bina qurmaq, inkişaf etmək, çağlamaq və törəmək. İslama uyğunlaşdırmaq budur. İslamın universiteti çiçəklənmiş, həvəskar və elmin uca tutulduğu bir universitetdir; orada alim əzizdir, müəllimin hörməti var, tələbəlik ibadət sayılır. Siz harada belə bir şey tapa bilərsiniz ki, tələbə qürbət qəsdi edib dərs oxusun?! Bunlar çox əhəmiyyətli məsələlərdir. İslam universiteti budur.

### Fəsad əlamətləri

Qeyd etdim ki, onun bir hissəsi də dindarlıqdır; yəni orada fəsad və günah əlamətləri olmasın, oğlan-qız məsələsi, bəzi

bəyənilməz hallar və haram işlər olmasın; cəmiyyətin daxili, bizim evlərimiz kimi, universitet daxilində də olmamalıdır. Buna əsasən, universiteti İslama uyğunlaşdırmaq məsələsi çox mühümdür. Bəli, çoxlu böyük insanlar zəhmət çəkdilər, çalışdılar, dərs vəsaitləri üzərində işlədilər. Allah zəhmətlərinin əcrini versin! Bu işlər davam etdirilməlidir. Lakin bunu əsas məsələ kimi diqqətdə saxlayın: universitetdə mənəviyyat və əxlaq; universitet, elm və əxlaq.

### Universitetdə nümayəndəlik orqanı

Başqa bir məsələ də nümayəndəlik orqanlarına aiddir. Nümayəndəlik orqanları qabaqcadan var idi, biz fikirləşdik ki, bunu bir qədər sahmana salaq. Alim, dəyərli, həvəskar və universitet işləri ilə tanış olan qardaşların bəzisini bu işlərə cəlb etdik. Allaha şükür olsun ki, yaxşıdır. Düzdür, bəzi universitetlərdə daha yaxşıdır, bəzilərində isə

çox da inkişaf etməyib, təsiri çox da görünmür. Mümkündür bəzi universitetlərdə bəzi eyiblərlə qarışıb. Məsələn, hansısa bir cinaha təmayüllər görünüb, yaxud tələbə ilə çox yaxşı əxlaqi rəftar olmayıb. Bunlar mümkündür.

**Bir ruhaninin fəaliyyəti**

Allaha şükür olsun ki, bəzi yerlərdə də çox yaxşıdır. Universitetlərdəki nümayəndəlik orqanlarında fəaliyyət göstərən cənablar bir ruhani kimi universitetdə paklıq, nuranilik, din və iman mənbəyidirlər. Hamının ona ehtiyacı var; universitetin rektorundan tutmuş müəlliminə, tələbəsinə qədər. Düzdür, tələbənin digərlərindən çox ehtiyacı var. Çünki o, gəncdir. Mənim bəzi universitetlərdən dəqiq məlumatım var ki, nümayəndəlik orqanının məsul şəxsinin, yaxud şəxslərindən birinin işi nə qədər

səmərə və təsirlər buraxıb, hamını özünə cəlb edib, nə qədər ürəkləri sakitləşdirib, gənclik təlatümlərini dincliyə, aramlığa və sağlamlığa yaxınlaşdırıb. Bu, çox dəyərlidir.

**Mədəni müdirlər**

Vacib məsələlərdən biri də nümayəndəlik orqanları ilə əməkdaşlıq etməkdir. Onların məsuliyyət dairələri müəyyən olunmalıdır; yəqin ki, müəyyəndir. Hər bir şəxs öz səlahiyyəti çərçivəsində fəaliyyət göstərsin. Əlbəttə, mədəni müdirlər də var. O da yaxşıdır. Amma eşitmişəm ki, mədəni müdirlərin bəzisi çox da mədəni deyillər. Bu, eyibdir.

**Universitet cihadı**

Yenə də əxlaq və mənəviyyatla əlaqədar olan başqa bir məsələ Universitet cihadı təşkilatıdır. Mən bilmirəm burada o qardaşlardan kimsə var, yoxsa yox.

Universitet cihadı əsasən, mənəvi, mədəni və əxlaqi bir qurumdur. Düzdür ki, öhdəsinə tədqiqat işi qoyulub və onu yerinə yetirməlidir. Tədqiqat çox yaxşıdır, lakin Universitet cihadı tədqiqat mərkəzi deyil. Universitet cihadı tədqiqat aparmalıdır; bunu edirlər və çox da yaxşıdır. Lakin bəlli mənəvi və inqilabi məqsədlərlə olmalıdır ki, cihad sözü ona aid edilə bilsin. Cihad! Cihad!

Cihad nə deməkdir? Hər hərəkət cihad deyil. Hər hansı bir hərəkətin adı çalışmaq, hətta mübarizə ola bilər, lakin cihad deyil. Cihad müqəddəs bir şeydir, müqəddəs bir addır və əslində, Allah yolunda mübarizə, iman və əqidə ilə həyata keçirilən bir mücahidlikdir. Əgər universitet cihadının bəzi şöbələri mənəvi, yaxud mədəni cihaddan bir qədər uzaqlaşmışlarsa, mənim fikrimcə, bu, nöqsandır.

### Siyasi hərəkət anlayışı

Başqa bir məsələ də siyasi təmayüllər və universitetdə siyasi hərəkət məsələsidir. Mən bir dəfə bu haqda geniş danışmışam. Bu sahədə fikirlər müxtəlif ola bilər və çox güman ki, bu, məsələni yanlış anlamadan qaynaqlanır. Mənim bu illər boyunca – istər inqilabdan sonra, istər inqilabdan əvvəl, xüsusən müxtəlif tələbə qrupları ilə əlaqələrimdən anladığım budur ki, universitetdə siyasi hərəkət vacib və lazımdır. Ondan qorxmaq lazım deyil və sönməsinə imkan vermək olmaz.

Lakin siyasi hərəkətin mənası bəzilərinin yanlış və pis anladığı deyil. Bəziləri belə təsəvvür yaratmaq istəyirlər ki, tələbələrin siyasi hərəkəti - onların universitet daxilində çəkişmələri, dövlətə və quruluşa qarşı çıxmalarıdır. Xeyr, bu, səhv və pis düşüncədir. Belə hərəkət şübhəsiz ki, çox pisdir. Müsbət siyasi hərəkətdə isə 2-3 xüsusiyyət var.

### Tələbənin təbiəti

Biri budur ki, tələbə təbiətcə amalçıdır, amalçı da olmalıdır. Əgər amalçı olmasa, bu hərəkət dayanacaq. Elm sahəsində də amalçı olmalıdır, fərdi və ictimai məsələlərdə də. Gəncin amalçı olması onun inkişafına səbəb olur. Əgər gənclərdə amalçılığı boğsalar, yaxud pis saysalar, böyük bir nöqsan yaranacaq. Buna yol vermək olmaz.

### Hökumətə tərəfdarlıq

İkinci məsələ budur ki, universitetdə və digər yerlərdə hökumətə tərəfdarlıq ənənəsi olmalıdır; əlbəttə, o zamana qədər ki, hökumət xalqın qəbul etdiyi hökumət olsun. Əgər nə vaxtsa Allah eləməmiş, zor, güc, diktatura və bu qəbil işlər görən bir hökumət iş başına gəlsə, başqa məsələ.

Hökumət xalqın qəbul etdiyi, birbaşa seçdiyi, sevdiyi, əməkdaşlıq etdiyi və xalq

uğrunda canını verməyə hazır bir hökumət olduqda onun tərəfində dayanmaq lazımdır. Bütün dünyada belədir. Hər yerdə olmasa da, hətta dünyanın inkişaf etmiş ölkələrində də belədir.

Hər halda, quruluşun başında duran şəxslərə, quruluşun məmurlarına və xidmətçilərinə təşəkkür edilməlidir. Bunlarla çəkişmək, tələbələri bunlarla üz-üzə qoymaq səhvdir. Nəticədə, bu tərəfdarlığın yanında olan amalçılıq sağlam tənqidə çevrilir.

**Tənqid azadlığı**

Tənqidin qarşısını almaq olmaz. Tənqid etmək istəyirlərsə, etsinlər, lakin düşməncəsinə yox. Harada düşməncəsinə olsa, səhv və yanlışdır. Tələbələrin siyasi hərəkəti dövlətə və məmurlara tərəfdarlıq olmalıdır. Bəzən müxalif qüvvə qarşısında təəssübkeşliklə tərəfdarlıq etsinlər, lakin tənqidləri də olsun. Əgər tənqid olmasa,

amalçılıq da olmaz. Hökumətin hər bir işinə etiraz etməsinlər, amma hər bir işə “bəli” də deməsinlər.

**Yerli tənqid**

Çox da uzaq olmayan keçmiş dövrdə İslam Respublikasında belə bir hal göründü: Hökumət nə iş görürdüsə, bir qrup etiraz edirdi ki, bu, pisdir. Ya etiraz edirdilər, ya da acılayırdılar. Bu, düzgün deyil. Tənqid yerində olmalı, sözügedən tərəfdarlıq da qorunmalıdır. İnsaflı və sağlam tənqid yaxşıdır, düşməncəsinə tənqid isə zərərli.

**Düşmən qruplar**

Bayırdan universitetdə böhran yaratmaq istəyən qruplar bunu istəyirlər. Biz bu qrupları yaxşı tanıyırıq. Onlar istəyirlər ki, tənqid düşməncəsinə olsun. Onlar nəyin tənqid olunduğuna baxmırlar, tənqidin düzgün olub-olmaması ilə işləri yoxdur.

İstədikləri tələbələrlə dövlət məmurları və rəsmi şəxslər arasında düşmənçiliyin yaranmasıdır. Biz nəinki o qrupları, hətta onların adamlarını da tanıyırıq. Biz bu qrupları inqilabdan öncə və sonra illərlə sınaqdan keçirmişik. Bizimlə olublar, onları görmüşük, kim olduqlarını bilirik. Özləri də bilirlər ki, biz onları tanıyırıq. Düzdür, onları hamı tanımır, lakin bizlər İnqilab Şurasında, ondan əvvəl və sonra müxtəlif vəzifələrdə onları gördük və tanıdıq. Əksərən, elə şəxslərdir ki, hökumət məşğul olmaq istəsəydi, onlarda o qədər eyib tapardı ki, bəlkə də xəcalətdən gizlənərdilər. Lakin hökumətin onlarla yumşaq və alicənab rəftarına görə o qədər həyasızlaşıblar ki, universitetə girir, tələbə gəncləri qeyri-ideal məqsədlərə dəvət edirlər.

## Qeyri-ideal məqsədlər

Maraqlıdır! Dövlətin yüksək qurumları tələbəni ideal məqsədlərə dəvət edirlər, onlar isə qeyri-ideal məqsədlərə. Onlar deyirlər ki, gəlin ölkəni, hökuməti, İslam Respublikası quruluşunu Türkiyə və Misir dövlətləri kimi idarə edin. Özləri də bəzi işlərin başında olanda belə idilər, Hüsni Mübarək, yaxud Məsud Yılmaz olmağa doğru gedirdilər.

**Cəlladları müdafiə**

Onlar xalqın qanına bulaşmış əlləri müdafiə etdilər. Bu əllər məzlumların və xalqın qanına bulaşmışdı, bunlar da onları rəsmən müdafiə etdilər. Mənim bunlarla işim yoxdur. Bu qədər şəhidlə, belə böyük inqilabla və imam kimi bir şəxsiyyətlə yanaşı, onların İslam Respublikasına istədikləri ideal forma Ənvər Sadat və onun kimilərin hakimiyyət forması idi. Məqsədləri bu idi, indi də bunu istəyir və tələbəni buna dəvət edirlər.

**Tələbənin siyasi işi**

Onların rəftarı xəstə, qərəzli və qeyri-sağlamdır. Biz bunu universitetin və tələbənin siyasiləşməsi hesab etmirik, xəstəlik bilirik. Amma tələbələr arasında dediyim mənada siyasi hərəkət və təmayül çox yaxşıdır. Təbii ki, bir siyasi şəxsin və toplumun bütün diqqəti ölkənin daxili məsələlərinə yönəlmir. Dünya siyasət dünyasıdır. Gərək ABŞ və İsrailə diqqət yetirsinlər, dünyanın pak mübarizlərinə və pis təbiətli zalımlarına diqqət yetirsinlər. Tələbələrin siyasi işi bu sahələrdə də özünü göstərə bilər.

**Həssas tələbə**

Hər halda, tələbə çox yaxşı, əziz və əhəmiyyətli bir amildir. Onunla layiqincə rəftar etmək lazımdır. Onu ziyanlı qrupların siyasi alətinə çevirmək olmaz. Qoyun dərsini

oxusun. Dərs oxumaq üçün ona lazımi imkanları yaratsınlar, amma elə etməsinlər ki, ölkəyə, cari və taleyüklü məsələlərə laqeyd və onlardan xəbərsiz olsun. Biz deyirik ki, tələbənin siyasətdən xəbərsizliyi eyibdir. Belə olsa, cəmiyyətdə baş verənlərə, cəmiyyətin taleyinə, gələcəyinə və sabah öhdəsinə götürəcək mühüm işlərə qarşı laqeyd olacaq.

### Universitetdə xeyriyyəçilər

Deyəsən, söhbətimiz çox uzandı. Mən burada tələbənin problemlərini də qeyd etmişəm. Siz özünüz məndən yaxşı bilirsiniz: yataqxana məsələsi və sair. Keçmişdə xeyriyyəçi insanlar məscid və mədrəsə kimi, karvansaralar da tikdirirdilər. Çox gözəl, indi yataqxana tikdirsinlər. Mən tövsiyə və təklif edirəm ki, xeyriyyəçi insanlar tələbə yataqxanası tikdirsinlər. Xeyriyyəçi insanlar bir mərkəzə, misal üçün, ali təhsil idarəsinə

gəlib desinlər ki, biz 50 otağın tikilməsini öhdəmizə götürürük. Başqa birisi desin ki, mən 100 otağı təmir edirəm. Xeyriyyəçi insanların hər biri bir qədər otaq tikdirsinlər və universitetlər üçün yataqxana düzəlsin. Bu, çox əhəmiyyətli işdir. Mədrəsə tikilişi tövsiyə olundu, deyildi və təkrar edildi. Allaha şükür olsun ki, bəziləri bu yolu öyrəniblər. Belə düşünürəm ki, bu da deyilməli və təkrar olunmalıdır ki, insanlar bunun da xeyir iş olduğunu bilsinlər. Yataqxanaya ehtiyac olan şəhərlərdə tələbə yataqxanası tikdirsinlər.

### Ağır məsuliyyət

Ümidvarıq Allah-Taala sizə uğur bəxş etsin, kömək göstərsin. Doğrudan da ağır məsuliyyəti öhdənizə götürmüsünüz. Çalışın bunu ən yaxşı şəkildə yerinə yetirəsiniz. Hər halda, bu da bir gün bitəcək; 2 il, 5 il, 10 il. Vəzifə daimi deyil. İnsan bir gün rəis olur, bir

gün də gərək işini buraxsın. İşin sonunda yəqin ki, öz vicdanı qarşısında hesabat verir, bu bir neçə ildə nə etdiyini düşünür. Elə işlər görün ki, Allah-Taala qarşısında başıuca olasınız, fəxrlə "İlahi, biz bu işi gördük" - deyə biləsiniz.

Həm də bunu Allaha görə edin, riya üçün, onun-bunun xoşuna gəlməsi üçün yox. Çünki bu, Allahdan qeyrisinin razılığını Onun razılığından önə keçirməkdir. İşi yalnız Allaha görə görün və əvəzini Allahdan istəyin. İnşallah, böyük əcr və savab alarsınız.

Allahın salamı və rəhməti olsun sizə!

## İnqilab və sağlam cəmiyyət[27]

Bismillahir-Rəhmanir-Rəhim.

### İniqlab

İnqilabın mənası qısa olaraq belədir: "Bir xalqın fəsad, günah, asılılıq, düşmən qarşısında rəzillik, ümumi yoxsulluq və digər ictimai fəsadlar qarşısında qəzəblənməsi". İnqilab bir xalqın bu çirkin və həlakedici amillər qarşısında müqaviməti, qiyamıdır. Bu tərifdən doğan nəticə budur ki, inqilab bitməmişdir və bu tezlikdə də bitməyəcək.

### İnqilabın davamı

27 Tələbə birlikləri ilə görüşdə çıxışı: Fevral 1998.

Bəziləri inqilabın bitdiyini göstərmək istəyirlər. İnqilab oldu, bir hökumət iş başına gəldi və hər şey öz adi məcrasına düşdü. Dünyanın mövcud hakimiyyət modellərindən birini, əksər hallarda da xalqın qiyam etdiyi rejimdən geri qalmayan Türkiyə, Misir, İordaniya kimi bir modeli daha parlaq görüntülərlə burada tətbiq edirik və iş bitir.

Bu sözləri təkcə bu gün demirlər, 15 il əvvəl də yazırdılar. İnqilabın əvvəllərindən bu sözlər təkrar olunur. İnqilabın, xalqın və İslamın əsl qüvvələri həmişə onların qarşısında dayanıb və onları bir saman çöpü kimi məhv edib. Onlar sü üzərindəki köpük kimi məhv olur və elə köpük kimi də yenidən yaranırlar: "Köpük heç bir şey olmadığı üçün uçub gedər. İnsanlara fayda verən bir şey isə yer üzündə qalar".[28]

---

[28] Rəd/17.

**Sağlam cəmiyyət**

Bu gün də bəziləri eyni sözləri yazırlar və yayırlar; xüsusən də universitetdə. Lakin özünüz bilirsiniz ki, fəsaddan, asılılıqdan və yoxsulluqdan tam uzaq olan pak bir cəmiyyət qurmağımıza çox qalıb. Düzdür, indiyədək yolun çoxunu getmiş, Pəhləvi rejimində mövcud olan vəziyyətdən çox uzaqlaşmışıq. Şübhəsiz ki, o dövrdə olanları bugünkü nəslə təsvir etmək mümkün deyil. O zaman vəziyyət çox pis, anormal, məyusedici, müsəlman bir xalqa yaraşandan çox aşağı, İslam amallarından çox uzaq idi.

**Düşmənin mədəni-ideoloji səyi**

Allaha şükür olsun ki, bu gün o vəziyyətdən çox uzaqlaşmışıq, amma ideal vəziyyətlə də məsafəmiz çoxdur. Bundan əlavə, dünya səviyyəsində bizi keçmiş vəziyyətə qaytarmağa çalışan amillər var;

yenə asılılıq və fəsad, yenə mənəviyyatın və amalların məhvi, yenə gənc nəslin kiçik arzulara və ehtiraslara qərq olması. Onlar yenə bu vəziyyətin yaranmasını istəyirlər.

**Hərəkat davam edir!**

Həm buna qarşı mübarizə lazımdır, həm də ideal vəziyyətə nail olmaq üçün. İnqilab bu mübarizənin zirvəsi idi. Deməli, bu mübarizə bitməmişdir. İnqilab 1979-cu ildə qələbə çalanda bəziləri elə bilirdilər ki, inqilab qəfil bir hadisə idi, oldu-bitdi. Ona görə deyirdilər ki, inqilabdan indiyədək 1 il, yaxud 2 il ötmüşdür. İnqilabın qayğısına qalanlar onlara deyirdilər ki, deməyin "inqilabdan", deyin "inqilabın qələbəsindən". İnqilab hələ də davam edir. İmam da açıq söylədi ki, biz inqilab halındayıq. Casus yuvası hadisəsi zamanı imam onu inqilab adlandırdı.

Mənim əzizlərim! Beləliklə, mübarizə davam edirsə, mübarizənin ayıqlığa, birliyə, ixlasa və qayğıkeşliyə ehtiyacı var. Ayıq bir gənc kimi öz daxilinizdəki bütün qüvvələri toplamanıza ehtiyac var. Hər bir hərəkətdə Allah üçün qürbət qəsdi edin. Lazım olduğunu düşündüyünüz hər bir hərəkəti, öyrətməli, deməli və ya eşitməli olduğunuzu düşündüyünüz hər bir sözü, görməli olduğunuzu düşündüyünüz hər bir işi qürbət qəsdi ilə və yaxşı niyyətlə yerinə yetirin. Bu inqilab sizin çiyninizdə və sizin kimi milyonlarla mömin və ixlaslı insanın çiynində mənzil başına çatacaq. Ümidvaram siz gənclər o günü görəcəksiniz.

Allahın salamı və rəhməti olsun sizə!

## Tələbələrin ağır vəzifəsi[29]

Bismillahir-Rəhmanir-Rəhim.

Əvvəla, siz əzizlərə, tələbə qız və oğlanlara xoşgəldin deyirəm. İnşallah, müvəffəq olasınız, namaz və ibadətləriniz qəbul olsun! Mən belə toplantılarda, xüsusən də namazla bağlı məclislərdə iştirak edəndə, öz mömin övladlarının mehriban şəkildə bir yerə toplaşdığını görən ata kimi hisslər keçirir, mənəvi həzz alıram.

**İlahi iş**

İstər Tehranda, istər ölkənin digər yerlərində, istər ölkədən xaricdə hər hansı bir

---

[29] Camaat namazını qıldıqdan sonra tələbələrlə görüşdə çıxışı: 3 mart 1998.

universitetdə təhsil alan siz tələbələrdən hansı biri üzərində dini məsuliyyət hiss etsə, oxuduğu dərsi və çəkdiyi zəhməti Allahın hesabına yaza biləcəyini duysa, şübhəsiz ki, o, saleh bir bəndə, mələk xislətli bir insandır və gələcək üçün səmərəli ağac ola bilər. Bizim gəncimizin, tələbəmizin Allahdan ötrü çalışdığını hiss etməsi çox dəyərlidir.

**Tələbənin iradəsi**

Bu fikirdə olmaq, bu fikirlə dərs oxumaq və işləmək gənc, xüsusən də tələbə gənc üçün çox böyük əhəmiyyətə malikdir. Çünki ölkənin gələcəyi ona bağlıdır, onun əllərindədir. Onun iradə, qərar və elminin şüası təkcə evi və həyatı ilə bitmir. O bir ölkəni və bir xalqı yönəldə bilər. Mən həmişə təkid etmişəm ki, universitetlərdə məsuliyyət və Allahla mənəvi əlaqə hissi mövcud olsun.

**Məsuliyyət hissi**

Mən tələbələrin İslam təşkilatları məsələsində israrlıyam, əvvəldən də israrlı olmuşam. İnqilabın əvvəlində imam məndən və tələbələrdən bu məsələ ilə maraqlanmamızı istədi. Tələbə təşkilatları yaransın, universitetlərdə İslam və siyasət işləri görsünlər. Mənim tələbələrə etdiyim müraciətlər də əsasən, tələbələr arasındakı bu hissə diqqət məqsədilə olmuşdur. Mən bunu istəyirəm; istəyirəm ki, tələbə məsuliyyət hiss etsin.

**Şəxsi maraqlar**

Baxın, əzizlər, mən univerisitetlərin vəziyyəti ilə çox tanışam, işimə və vəziyyətimə nisbətən çox məlumatlıyam, orada nə baş verdiyini bilirəm. Universitetlərdə mömin və saleh gəncləri narahat edən məsələləri inkar etmək istəmirəm. Bəli, universitetlərdə elələri var ki, təhsilə dair heç bir məsuliyyət hiss etmirlər.

Elələri var ki, dərsdən və dini məsələlərdən artıq şəxsi məqsədlərini düşünürlər. Elələri var ki, bəzi siyasi məsələləri hər şeydən, hətta dərsdən və dindən də əhəmiyyətli bilirlər. Universitetdə belələri var. Lakin bunların heç biri ölkə universitetinin gələcəyi və nəticədə, ölkənin gələcəyi üçün təyinedici ola bilməzlər.

Universitetlərdə, tələbələr arasında mənim toxunduğum hisslərlə dərs oxuyanlar, yaşayanlar, pillələri aşıb irəliləyənlər və məzun olub cəmiyyətə daxil olanlar var. Belələri var və təyinedici olan onlardır.

**Allahın yardımı**

Buna əsasən, mənim kimi birisi universitetlərin gələcəyinə nikbin olmaya bilməz. Mən universitetlərdə dini, yaxud siyasi baxımdan xoşagəlməz bir hadisə müşahidə edən kimi tez "cənab,

universitetimiz filandır, filandır" - deyən çoxlarından fərqli olaraq, düşünürəm ki, universitetlərdə İslam məqsədlərinin həyata keçməsi prosesi gedir. Tələbə özünün işıqlı gənclik ruhiyyəsinə etimadla, Allahın lütf və yardımı ilə - Allahın yardımı qəti və qaçılmazdır. Mən bu ölkənin mühüm məsələlərinin hər birində onu öz gözümlə müşahidə edirəm - yaxşılaşmağa doğrudur. Ölkənin universiteti yaxşılaşmaqda və İslama uyğunlaşmaqdadır. Mən belə görürəm. Sizin hər biriniz bunu görsün, duysun və təsdiqləsin.

**Dinin ruhu**

Mənim ömrümün üçdə ikisi müxtəlif təcrübələrdə keçib. Siyasi təcrübələr, mübarizə təcrübələri, çətin və ağır işlər, problemlərlə üz-üzə qalmaq - ömrümüzün üçdə ikisi doğrudan da belə keçmişdir. Hər halda, biz indiyədək yaşadığımız ömürdə

həyatın müxtəlif sahələrində müxtəlif təcrübələrlə üzləşmişik. Mən belə görür, hiss edir və universitetin gələcəyinə çox ümidliyəm. Tələbə gənclərə, universitetlərdəki dini ruha çox ümidim var.

Bu, sadəlövhlükdən və reallığı görməzdən gələn bir ümid deyil. Gənc ruhiyyəsinə və hər bir gəncdə mövcud olan xüsusiyyətlərə qarşı nikbinliyə görədir. Sizin bir qədər çirkləndiyini, zehni, mənəvi və ya əməli baxımdan problemli olduğunu duyduğunuz şəxsdə də bu xüsusiyyətlər mövcuddur. Onları tapmaq, çirkinliklərdən xilas etmək lazımdır. Əsas budur.

**Ağır vəzifə**

Bu sözlər sizə xoş gəlmək üçün deyil, əksinə, məsuliyyət hiss etməniz üçündür. Universitetlərdəki əziz və dindar gənclər - siz oğlan və qızlar çox məsuliyyət hiss etməlisiniz. Sizin universitetdəki vəzifəniz

çox ağırdır. Həm digərləri kimi dərs oxumalısınız, həm özünüzü müsəlman saxlamalısınız, həm də işarə vurduğum bu əlaqə ruhunu, digərlərində yoxdursa, onlara aşılamalısınız, varsa, qorumalı və artırmalısınız. Bu siz mömin gənclərin vəzifəsidir.

**Hərtərəfli ayıqlıq**

Mən harada sizin kimi, xüsusən də ayıq, aydın və tələbə gəncləri görsəm, onlara deməyə çalışıram ki, inqilab və onun qələbəsi üçün mübarizə bitməyib. Bu mübarizə var, çünki düşmən var. Nə qədər ki, düşmən var, deməli, hücum da var. Düzdür, bir zaman düşmən çox zəif və biz çox güclü ola bilərik. Onda düşmənin hücumu o qədər də əhəmiyyətli olmaz. İnsan kiçik bir qrupa mübarizə əmri versə, əsas bölmə də əsas işlərlə məşğul olsa, yetər. Amma bir zaman düşmən hər tərəfdən hücum olur. O zaman

hərtərəfli ayıqlığa ehtiyacımız var. Ölkənin müxtəlif təbəqələri arasında düşmənlə mübarizədə öz ayıqlığını çox qorumalı olan təbəqələrdən biri də siz mömin və dindar gənclərsiniz.

**Müqəddəs məşəl**

Mənim əzizlərim, mübarizə bitməmişdir. Bir vaxtlar bu ölkədə mübarizə qərib idi; bir qrup mübarizə aparırdı və çoxları aparmırdı. Mübarizə aparmayanların çoxları mübarizə aparanlara həmişə qapaz vururdular, rişxənd edirdilər, tövsiyə edirdilər ki, bunu boşlayın, alınmır, faydasızdır. Lakin mübarizlərin müqaviməti və bu yolda çalışanların səyi nəticəsində bu müqəddəs məşəl günbəgün böyüdü və iş o yerə çatdı ki, belə əzəmətli inqilab baş verdi, qələbə çaldı.

**Ciddi mübarizə**

Bu gün də elədir. Düzdür, bu gün ölkə xoşbəxtlikdən, İslam ölkəsidir. İnqilab dövlətdə təmsil olunur, konstitusiya, çoxlu qanunlar, rəsmi qurumlar, inkişaf və uğurlar var. Lakin beynəlxalq miqyasda düşmənçiliklər də bir o qədər artıb. Bu günün düşmənçiliyi bir dövlət polisinin xalqla düşmənçiliyi deyil, dünyanın böyük sərvətlərə və elmi inkişaflara söykənən əsas casus şəbəkələrinin, hərbi və iqtisadi güclərin bir xalq əleyhinə düşmənçiliyidir. Mübarizədir, zarafat deyil.

**Daimi düşmən**

Bu gün də bəziləri tövsiyə edirlər ki, əl çəkin, qoyun yaşayaq. Elə bilirlər ki, onlar əl çəksələr, düşmən də əl çəkəcək. Elə bilirlər ki, onlar bir növ həyata üz tutsalar, Türkiyə, yaxud Misir kimi yaşasalar, düşmən onları rahat buraxacaq, ABŞ onlardan əl çəkəcək. Səhvdir, yanlışdır.

**Müstəmləkə sevdası**

Hegemonizmin, xüsusən də vaxtilə ölkəni istismar etmiş bir dövlətin, yəni ABŞ-ın başında bu ölkəni yenidən ələ keçirmək sevdası var. Ondan başqa heç bir şeylə razılaşmırlar. Bu xalq elə müqavimət göstərməli, düşməni elə uzaqlaşdırmalı, özünü elə hazırlamalıdır ki, onunla işi olmasın. Təbii ki, bu, mümkün bir işdir. Allaha şükür olsun ki, indiyə qədər bu sahədə də çox inkişaf əldə edilib. Yalnız müqavimət göstərmək və ayıqlıq lazımdır. Gərək hamı hiss etsin ki, mübarizə və inqilab bitməyib. Bir qrup təbliğat aparır ki, inqilab bitmişdir. Mənsə təkidlə sizi inqilabın bitmədiyinə əmin etmək istəyirəm.

**İlahi nemət**

Mən sizə bunu demək istəyirəm. Mən mömin, xüsusən də tələbə gənclərdən

gözləyirəm ki, inqilabın bitmədiyini qəbul etsinlər. Bəziləri təbliğat aparırlar ki, inqilab bitdi, qoyun xalq yaşasın. Elə bilirlər ki, inqilab xalqı yaşamağa qoymur. İnqilab xalqın yaxşı yaşaması üçün bir addımdır, lakin şərafətli, yaxşı və müsəlman yaşaması üçün. İnqilabı ilahi nemət kimi qorumaq lazımdır. Bu bizim əziz gənclərimizdən, Allahın lütfü ilə dindar olan siz tələbələrdən istəyimizdir.

**Düzdün dərk**

Bu gün ölkədə bunu hiss edənlər çoxdur. Bütün dövlət məmurları olmasa da, ən azı onların əksəriyyəti belədirlər, inqilab, düşmən və dost məsələlərini yaxşı dərk edirlər. Gənclərin, xalqın, ruhanilərin və müxtəlif təbəqələrin çoxu ayıq şəkildə bu yolla hərəkət edirlər. Düzdür, qarışqa kimi bu dirəyi çeynəyib aşırmaq istəyənlər də var.

İnşallah, Allah-Taala onlara müvəffəqiyyət verməyəcək və sizləri müvəffəq edəcək.

### İnqilab nəsli

Ümidvarıq işlər bu ölkənin xeyri istiqamətində günbəgün irəliləsin. Allah sizlərə uğur bəxş etsin ki, yaxşı dərs oxuyub özünüzü İslam və inqilab xəttində qoruyasınız. Yaxşılığa dəvət edib, pis işlərdən çəkindirənlər və ayıq müsəlmanlar həqiqətən, digərlərinə şahid və onları qoruyan olduqları kimi, siz də digərlərinə şahid ola, ayrılarını da bu yolda inkişafa sövq edəsiniz. İnşallah, tez bir zamanda siz mömin və yaxşı gənclər iş başına keçib ölkəni özünüz idarə edəsiniz. Yəni bu inqilab nəsli gəlib bu gün ölkədə mövcud olan çatışmazlıqları aradan qaldırsın. İnşallah, müvəffəq olasınız.

Allahın salamı və rəhməti olsun sizə!